www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 26 avqust 2015-ci il Çərşənbə № 187 (6215) Qiymətı 40 qəpik

**Xəbər**

## Neft bumunun sonu: Azərbaycan silkələnən dünyanın harasındadır?

yazısı səh.13-də

**Gündəm**

### Dollar qıtlığını kimlər və niyə yaradıb?



Bir grup əllərində olan nağd manatı bazara atıb külli miqdarda qazanc əldə etmək istəyib; prezident 21 fevral devalvasiyasında onlar haqda nə demişdi...

yazısı səh.10-da

### Daha bir cəbhəçi gənc istefa verdi

yazısı səh.6-da

### İqtidar seçkilərədək nə edəcək?

yazısı səh.11-də

### AzadlıqRadiosu əməkdaşlarının istintaqa dedikləri...

yazısı səh.12-də

### Həbsdəki jurnalist müalicə müəssisəsinə köçürülür

yazısı səh.6-da

### PKK Azərbaycana məxsus kəmərləri nədən hədəf seçir

yazısı səh.4-də

### Öldürülən məhkumun işindəki ilginc ifadə üzə çıxdı

yazısı səh.11-də

### Dalaşan xalq artistləri barışdı

yazısı səh.15-də

### Qərb Putin hakimiyyətini laxladır - Bakı üçün də yeni gəlişmə

yazısı səh.8-də

### Neft 38 dollara endi

yazısı səh.10-da

### Benzinin su qiymətinə olmasına hələ var...

yazısı səh.14-də

### İngiltərə səfiri müxalifət liderləri ilə görüşüb

yazısı səh.7-də

## "İntertabakko"nun direktoru haqda sensasion məlumatlar

# BEYNƏLXALQ BANK İŞİNDƏ "TÜTÜN İYİ": BACANAĞIN HƏBSİNİN SİRRİ...

Tütün Emalı Zavodunun direktoru İsmayıl Hidayətzadəyə uzun illər "gözün üstə qaşın var" deyən olmayıb; "Cahangir işi" üçün vacib fiqurun həbsi nəyə hesablanıb; Hacı İbrahimin sabiq baş mühasibi də axtarışa verildi



yazısı səh.5-də

## Bəzi iqtidar deputatları infarkt həddində - siyahı gecikir

YAP-ın rəsmi və qeyri-rəsmi siyahısında bir çox məşhur adlar olmaya bilər; 20 il millət vəkili olmuş və yaşı 70-dən yuxarı əksər Milli Məclis üzvlərinin növbəti heyətə salınmayacağı iddia olunur...

yazısı səh.4-də



### Razi Nurullayevdən heç yerdə deməd iyi şok açıqlama

yazısı səh.9-da



Arif Məmmədov

### "İnterpol"un axtardığı sabiq səfir dönük dostlarını qınadı

yazısı səh.7-də



*Mehman Əliyev:*

### "İqtidar islahatlar paketi hazırlayıb"

yazısı səh.7-də



## Prezident yol tikintisinə yenə pul ayırdı

**Prezident İlham Əliyev Ağcabədi rayonunun Hüsülü-Kürdlər-Şərəfxanlı-Mirzəhaqverdili avtomobil yolunun tikintisi ilə bağlı əlavə tədbirlər haqqında sərəncam imzalayıb.**

Sərəncamda qeyd olunur ki, iyirmi üç min nəfər əhalinin yaşadığı 17 yaşayış məntəqəsini birləşdirən Hüsülü-Kürdlər-Şərəfxanlı-Mirzəhaqverdili avtomobil yolunun tikintisinin davam etdirilməsi məqsədi ilə Azərbaycan Respublikasının 2015-ci il dövlət büdcəsinin dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə kəndlərarası avtomobil yollarının tikintisi və yenidən qurulması üçün nəzərdə tutulmuş vəsaitin 2,7 milyon (iki milyon yeddi yüz min) manatı Ağcabədi Rayon İcra Hakimiyyətinə ayrılsın.

Maliyyə Nazirliyi bu sərəncamın 1-ci hissəsində nəzərdə tutulan məbləğdə maliyyələşməni müəyyən olunmuş qaydada təmin etsin.

Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

## SOCAR Ukraynada yanacağın qiymətini endirib

**Ukraynanın yanacaqdoldurma məntəqələri şəbəkəsinə sahib olan iri şirkətlər dünya birjalarında neftin ucuzlaşması fonunda istehlakçılara təklif olunan yanacağın qiymətini aşağı salıb.**

"APA-Economics" Ukraynanın UNİAN agentliyinə istinadən xəbər verir ki, bu barədə "A-95" konsaltinq qrupunun həyata keçirdiyi monitorinqin nəticələrində qeyd olunur.

Məlumata görə, avqustun 21-25-i "Amic", "Shell", Azərbaycan Dövlət Neft Şirkəti (SOCAR), WOG, OKKO kimi YDM şəbəkəsinə sahib olan iri şirkətlər yanacağın qiymətlərini təqribən 0,50-0,60 Ukrayna qrivnası aşağı salıb.

"Dizel yanacağının qiymətində müşahidə olunan qiymət enməsi artıq benzinin qiymətinə də təsir edib", - deyə məlumatda vurğulanır.

Qeyd edək ki, Azərbaycan Mərkəzi Bankının bu günə olan rəsmi məzənnələrinə əsasən, 1 Ukrayna qrivnası 0,0467 manatdır.

## Hövsan cəbhəçiləri də Razi Nurullayevin tərəfinə keçdilər

**AXCP sədrinin keçmiş müavini Razi Nurullayevin yeni yaratdığı qurumun Təşkilat Komitəsini dəstəkləyənlərin sayı artır. Musavat.com-a verilən məlumata görə, dünən AXCP-nin Suraxanı payon təşkilatındakı "Hövsan-2" dayaq dəstəsinin daha 6 nəfər üzvü Əli Kərimlinin sədri olduğu təşkilatin strukturlardan istefa verərək, Razi Nurullayevin başçılıq etdiyi quruma keçdiklərini bildiriblər.**

AXCP üzvlüyündən istefa verən Tahir Hüseynov, Nurlan Rəsulov, Vilayət Muxtarov, Fuad Səfayev, Cavid Nəbiyev və Ramiq Şirinov yaydıqları birgə bəyanatda AXCP daxilində yaranmış siyasi mühitə etiraz etdiklərini bildiriblər: "Son illərdə AXCP daxilində baş verən hərc-mərcliyə, demokratik mühitin pozulmasına, gənclərə qarşı repressiya xarakterli rejimin mövcudluğuna "yox" deyirik və bundan sonra Razi Nurullayevin rəhbərlik etdiyi AXCP sıralarında fəaliyyətimizi davam etdirəcəyik".

## Çexiya prezidenti Azərbaycana sentyabrda gələcək

**Çexiya prezidenti Miloş Zemanın Azərbaycana rəsmi səfərinin vaxtı bəlli olub. Çexiya prezidentinin mətbuat xidmətindən APA-ya verilən məlumata görə, səfər sentyabrın 14-də həyata keçiriləcək.**

Hələlik səfərin proqramı barədə açıqlama verilmir.

## Ərdoğan Davudoğluna 5 gün vaxt verdi

**Türkiyə prezidenti Rəcəb Tayyub Ərdoğan müvəqqəti hökuməti qorumaq vəzifəsini Davudoğluna həvalə edib. "Qafqazinfo" Türkiyə KİV-nə istinadən xəbər verir ki, Ərdoğan dünən baş nazir Davudoğlunu qəbul edib. Davudoğlunun müvəqqəti hökuməti qurmaq üçün isə beş gün vaxtı var. CHP və MHP əvvəlcədən seçim hökumətində yer almayacaqlarını bəyan etdikləri üçün müvəqqəti hökumət AK partiya, HDP və müstəqil partiyalardan təşkil olunacaq.**

# Cavid Hüseynov cəzasını evdə çəkmək istəyir

**"Qəbələ" klubunun sabiq kapitanı Cavid Hüseynov barəsində seçilmiş həbs-qətimkan tədbirinin ev dustaqlığı ilə əvəz olunması üçün məhkəməyə vəsatətlə müraciət edilib.**

Bu barədə "Report"a C.Hüseynovun vəkili Adəm Məmmədov məlumat verib. Belə ki, A.Məmmədov bu gün özü vəsatəti Səbayel Rayon Məhkəməsinə təqdim edib.

Vəkil həmçinin İtaliya mətbuatında C.Hüseynovla bağlı yayımlanmış məqalə ilə əlaqədar üzrxahlıq mətninin yer aldığını da bildirib.

Bundan əvvəl İtaliya mətbuatı ann.tv-nin videoreportyoru Rasim Əliyevin döyülməsində



futbolçu Cavid Hüseynovu günahlandırıb: "Məhz mənim Avropa Şurasının baş katibi Turbyörn Yaqlandın yalanlarını ifşa edən açıqlamalarımdan sonra İtaliya mətbuatı səhvini anlayaraq müvafiq qaydada Cavid Hüseynovdan üzr istəyib".

## "Nikoilbank" Vergilər Nazirliyi ilə məhkəmədə çəkişir

**"Nikoil" İnvestisiya Kommersiya Bankı (İSB) ASC Azərbaycanın Vergilər Nazirliyi yanında Xüsusi Rejimli Vergi Xidməti Departamentini məhkəməyə verib.**

"Report"un xəbərinə görə, 1 saylı Bakı İnzibati-İqtisadi Məhkəməsinə müraciət edən "Nikoil" İSB departamentin cərimə qərarının ləğv edilməsini və "əsassız tutulmuş pul vəsaiti"nin qaytarılmasını istəyib.

Məhkəmə iddianı təmin etməyib.

## Nazirliyin sektor müdiri infarktdan öldü

**Ekologiya və Təbii Sərvətlər Nazirliyinin 3 saylı Şirvan ərazi idarəsinin sektor müdiri avqustun 25-də qəfildən dünyasını dəyişib.**

Virtualaz.org saytının Şirvan bürosu xəbər verir ki, Salyan rayon sakini, 59 yaşlı Mikayıl Qulu oğlu Bağırov vəfat edib. O, məzuniyyətdə imiş və elə öz evində də dünyasını dəyişib. Yaxınlarının bildirdiyinə görə, Mikayıl Bağırov ürək-damar xəstəliyindən əziyyət çəkirdi.

## Türkiyədə 900 polisin iştirakı ilə əməliyyat keçirildi

**İstanbulun 5 mahalında narkotik satıcılarına qarşı genişmiqyaslı əməliyyat keçirilib. Publika.az Türkiyə mediasına istinadən xəbər verir ki, İstanbul Polis Təşkilatının narkotiklə mübarizə şöbəsinin Beyoğlu, Şişli, Eyüp, Gaziosmanpaşa və Kağıthane mahallarında keçirdiyi əməliyyatda 400 polis iştirak edib.**

Vertolyotların da havadan dəstəklədiyi əməliyyatda 90-a yaxın ünvana basqın təşkil edilib və xeyli sayda şübhəli saxlanılıb. Ünvanlarda aparılan axtarışlarda xeyli narkotik maddə və narkotik satışından əldə edildiyi təxmin edilən pul ələ keçirilib.

Adanada narkotik satıcılarına qarşı keçirilən əməliyyatda isə 500 polis iştirak edib. Əməliyyat zamanı 25 nəfər saxlanılıb.

## Deputat rektorlar mandatdan məhrum olmaq ehtimalından danışdılar



**Milli Məclisdə indi təmsil olunan 125 deputat arasında müxtəlif dövlət və özəl ali təhsil ocaqlarının rektorları var. Memarlıq və İnşaat Universitetinin rektoru Gülçöhrə Məmmədova, Azərbaycan Dillər Universitetinin rektoru Səməd Seyidov, Odlar Yurdu Universitetinin rektoru Əhməd Vəliyev, Tibb Universitetinin rektoru Əhliman Əmiraslanov, Bakı Dövlət Universitetinin rektoru Abel Məhərrəmov, Azərbaycan Müəllimlər İnstitutunun rektoru Aqiyə Naxçıvanlı, Bədən Tərbiyəsi və İdman Akademiyasının rektoru Ağacan Abiyev mandat daşıyanlar sırasındadırlar.**

Modern.az saytı parlamentdə təmsil olunan bir neçə deputatın eyni zamanda universitet rektoru olmasını nəzərə alaraq məsələyə onlardan münasibət öyrənib.

**Azərbaycan Memarlıq və İnşaat Universitetinin rektoru, Milli Məclisin Elm və təhsil komitəsinin üzvü Gülçöhrə Məmmədova deyib ki, təmsil olunduğu partiya hansı qərarı verəcəksə, onunla razılaşacaq:** "Mənim mövqeyim Yeni Azərbaycan Partiyasının (YAP) mövqeyidir. Partiya necə məsləhət bilsə, elə də edəcəyik".

Gülçöhrə Məmmədovanın "Seçim qarşısında qalsanız, rektorluğu yoxsa deputatlığı" seçərsiniz sualına cavabı belə olub: "Bunu deyə bilmərəm. Seçim qarşısında qalacağamsa, o zaman düşünüb şərtlərə görə qərar verəcəyəm".

**Azərbaycan Müəllimlər İnstitutunun rektoru, Milli Məclisin Elm və təhsil komitəsinin üzvü Aqiyə Naxçıvanlının fikrincə, parlamentə kimin seçilib, kimin seçilməyəcəyi ilə bağlı qərar dövlətə məxsusdur:** "Mən dövlətin verdiyi qanuna müvafiq olaraq hərəkət edəcəyəm. Bəziləri deyir ki, rektor deputat ola bilməz. Mən qanuna riayət edən insanam. Olmaz deyirlərsə, olmayacağam».

**Aqiyə Naxçıvanlının "Seçim qarşısında qalsanız rektorluğu, yoxsa deputatlığı seçərdiniz" sualına cavabı təxminən həmkarınınkı kimi olub:** "Mən bu haqda düşünməmişəm. Bilmirəm dövlətim üçün deputat, yoxsa rektor kimi xeyir verə bilərəm. Bunun üçün düşünmək, götür-qoy etmək lazımdır.

Mən heç vaxt o işimlə bu işimi fərqləndirməmişəm. Dövlət qarşısında hər bir vətəndaşın borcu kimi hər ikisini öz borcum hesab etmişəm, hər ikisini planlı həyata keçirmişəm. Məqamı gələndə qərar verəcəyəm. Amma indi dəqiq bir söz deyə bilmərəm".

"Elm" tədris mərkəzi
MAGIC LANGUAGES
➔ Ali məktəblər xarici dillər
➔ kompyuter kursları
➔ Magistratura - dövlət qulluğu - məntiq
➔ 1.C. mühasibat - anbar - bank işi
➔ Məktəbə qədər həftədə 5 dəfə
➔ Sürücülük kursları (1 aya 100 AZN)
Ünvan: 1. «Neftçilər» metrosu 40 mert. R.Rüstəmov-44
Tel:/Faks: (012)421-10-46; (012)323-55-21; (055)660-60-95;
Ünvan: 2. «İnşaatçılar» metrosu 60 metr. «İran» klinikasının yanı
Tel:/Faks: (012) 434-88-28; 408-44-74; (055) 660-07-05



## Ramil Usubov yol polisi olmaq istəyən şəxslərlə görüşəcək

**Ramil Usubov yol polisi olmaq istəyən şəxslərlə görüşəcək.**

Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən APA-ya verilən məlumata görə, daxili işlər naziri, general-polkovnik Ramil Usubov tərəfindən Baş Dövlət Yol Polisi İdarəsinin Yol Patrul Xidməti Alayının və Bakı şəhər Baş Polis İdarəsinin Dövlət Yol Polisi İdarəsinin yol-patrul xidməti inspektoru vəzifələrində xidmətə qəbulla bağlı keçiriləcək sıra baxışında iştirak etmək istəyən şəxslər 2015-ci il sentyabr ayının 1-də saat 9.00-da şəxsiyyət vəsiqələri ilə birlikdə Bakı şəhəri Nobel prospekti 69 ünvanında yerləşən Çevik Polis Alayına gəlməlidirlər.

## Gürcüstan müxalifəti hökuməti istefa verməyə çağırdı

**Gürcüstan hökuməti milli valyutanın - larinin dəyərsizləşmə prosesinin qarşısını ala bilmədiyi üçün istefa verməlidir.**

Virtualaz.org "Qruziya Onlayn"a istinadən bildirir ki, bunu keçmiş hakim "Vahid milli hərəkat" partiyasının deputatı Zurab Melikişvili dünən keçirilən brifinqdə çıxış edərkən deyib.

Qeyd edək ki, larinin uzun müddət 1,74-1,76 GEL/$1 səviyyəsində qalan məzənnəsi 2014-cü ilin oktyabr ayının sonundan gözəçarpacaq dərəcədə ucuzlaşmağa başlayıb. Bu gün Gürcüstanın Milli Bankı larinin mübadilə məzənnəsinin dollara nisbətini 2.3336 GEL/$1 müəyyən edib.

"Milli valyutanın dəyərsizləşməsi əhalinin yoxsullaşmasında birbaşa əks olunur... Belə ki, hökumətin bu problemin öhdəsindən gəlmək üçün planı yoxdur, əksinə, bu illər ərzində tətbiq edilən tənzimləmələr ölkəyə investisiya yatırımına birbaşa maneə törədir, biz onun istefasını tələb edirik", - deyə Melikişvili vurğulayıb.

Əslində müxalifət haqlıdır. Çünki 2014-cü ilin oktyabr ayının 26-dan 2015-ci ilin avqust ayının 24-nə qədər larinin dollara nisbətən məzənnəsi 33,1% ucuzlaşıb.

2015-ci ilin iyul ayında isə ölkədə ərzaq və spirtsiz içkilərin qiymətləri 2014-cü ilin iyul ayı ilə müqayisədə 7,1% artıb.

YENİ MÜSAVAT
N 187 (6215) 26 avqust 2015



**Yazarımız Tofiq Yaqubluya Azadlıq!**

# Metrolarda qəzet satışının bərpa olunması mümkündür

## “Bakı Metropoliteni” QSC-nin rəsmisi: “Əgər bu təklif...”



**Metrostansiyalarda ticarət köşklərinin, reklam lövhələrinin yenidən bərpa edilməsi qəzet satışının da bərpa oluna biləcəyinə ümid yaradır. Xatırladaq ki, Bakı Metropolitenində qəzet satışına 2013-cü ilin sonundan qadağa qoyulub. Lakin bu ilin əvvəlindən ticarət köşkləri və reklam lövhələri ilə bağlı qoyulan qadağalar aradan qalxdı. Yeni ticarət köşklərində hələ ki kitab və gül satılır.**

Bəs metro keçidlərində qəzet satışı bərpa oluna bilərmi? Bu sula cavab almaq üçün “Bakı Metropoliteni” QSC-nin mətbuat xidməti və ictimaiyyətlə əlaqələr şöbəsinin rəisi Nəsimi Paşayevə müraciət etdik. QSC rəsmisi musavat.com-a açıqlamasında bildirdi ki, sahibkarların bu məsələ ilə bağlı təklifi olmayıb.

**N.Paşayev sahibkarların təkliflərinin “Bakı Metropoliteni” QSC tərəfindən müzakirə olunduğunu dedi:** “Əgər bu təklif sərnişinlərin rahatlığına, hərəkətinə, təhlükəsizliyinə mane olmursa, dəyərləndirilir və müzakirə olunur. Əsas olan sərnişinlərin rahatlığıdır”.

Metropoliten rəsmisi heç bir sahibkarın belə bir təklif irəli sürmədiyini əlavə edərək bildirdi ki, istənilən sahibkar ticarətlə məşğul olmaq üçün müraciət edə bilər. Bu zaman sahibkarla “Bakı Metropoliteni” QSC arasında razılıq əldə olunarsa, daha sonra Əmlak Məsələləri Dövlət Komitəsinin icazəsi lazım olacaq. Komitə tərəfindən veriləcək razılıqdan sonra sahibkar fəaliyyətə başlaya bilər.

**“Yeni Müsavat” qəzetinin baş redaktoru Rauf Arifoğlu metropolitendə qəzet satışının qadağan olunmasının qəzetlər üçün böyük maliyyə itkisi olduğunu qeyd etdi:** “Təəssüflə qeyd etməliyəm ki, bizim israrlı çabalarımıza baxmayaraq metropoliten ərazisində qəzet satışını bərpa edə bilmirik. Bu qadağa qoyulmamışdan metropolitendə 2 min nüsxə "Yeni Müsavat" qəzeti satırdıq. Bu, ayda 60 min nüsxə demək idi. Nominal hesablama ilə isə bu, redaksiyaya 24 min manat gəlir gətirirdi. Bu qadağadan sonra ciddi maliyyə itkisi ilə üzləşmişik. Təəssüf ki, bu qadağanı götürə bilmirik".

**R.Arifoğlu Nəsimi Paşayevin qəzet satışının bərpa edilə biləcəyi haqda dediyi fikirlərə də münasibət bildirib. Baş redaktor metropoliten rəsmisinin bu açıqlamasının onlarda ümidlər yaratdığını və buna görə də “Yeni Müsavat” qəzeti adından rəsmi müraciət edəcəklərini bildirdi:** “Yayım sektorunda olan dostlara da deyəcəyik ki, rəsmi müraciətləri etsinlər. Metropoliten ərazilərində qəzet satışının bərpa olunması həm ölkənin mədəni görünüşü, həm medianın əlavə gəlir mənbəyi, həm də Azərbaycan oxucusunun informasiyaya rahat çatması üçün mühüm amildir”.




Xatırladaq ki, metro keçidlərindəki bu qadağa qəzet satışına yaradılan ilk maneə deyil. 2014-cü ilin yanvar ayından başlayaraq Bakıda küçə ticarəti, qəzet və jurnalların səyyar satışı qadağan olundu. Bu zaman da qəzet redaksiyaları böyük zərbə aldı. Müəyyən müddət sonra paytaxtın müxtəlif yerlərində quraşdırılan müasir köşklərdə qəzet satışı bərpa olundu. Lakin qəzetin əsas satış nöqtələrindən biri hesab olunan metropoliten ərazisində isə bu qadağa hələ ki qüvvədədir.

Onu da əlavə edək ki, hazırda metro keçidlərində quraşdırılan yeni mağazaların əksəriyyəti boşdur. Bir neçə mağazada isə yalnız gül, aksessuarlar satılır. “Koroğlu” və “İçərişəhər” stansiyalarının çıxışında isə kitab mağazaları var.

❑ **İlkin MURADOV**

# Facebook Azərbaycanın ictimai rəyidir?

## Bütün proseslər “Markın balaca daxmasında” cərəyan edir

**Son illər Azərbaycanda ictimai kəsimin “döyünən ürəyi” sosial şəbəkə, daha dəqiq desək, facebookdur. Proseslər burda müzakirə olunur, xəbərlər burda verilir, aktiv dartışmalar, polemikalar burda öz əksini tapır. Ona görə də belə fikir yayılır ki, öz enerjisini, etirazını, qəzəbini sosial şəbəkədə ifadə edən toplum küçələrə çıxmağa, prosesləri dəyişdirməyə çalışmır.**




Elementar bir misal: müxalifətin hansısa aksiyası zamanı meydanda hesab edək ki, 1000 nəfər olursa, sosial şəbəkədə onun xəbərini yayan, evində oturub, mitinq şəkilləri paylaşan, “haydı irəli” tipli statuslar yazan minlərlə insan üzə çıxır.

Siyasətçilər az qala prosesləri sosial şəbəkədən idarə etməyə çalışır. Partiya daxilindəki qruplar, orda gedən aramsız müzakirə və mübahisələr, güc savaşları, əzələ nümayişləri... Bütün bunlar kiçicik bir məkanda gerçəkləşir. Bir də baxırsan, ciddi bir siyasi məsələnin müzakirəsi, qərarın qəbulu anında “layk krizisi” yaşanır. Siyasətçilər artıq layk sayır, status, şərhlərin arxasındakı məqamlardan ciddi nəticə çıxarırlar. Bu isə aparılan siyasətin faydasız nəticəsinə gətirib çıxarır.

Son illərdə isə sosial şəbəkələr tək şəhərlərdə deyil, eləcə də rayon yerlərində populyarlaşıb. Rayon sakinlərinin sosial şəbəkələrdə, xüsusən facebookda aktivliyi şəhərlilərdən artıq çox az geri qalır. Facebookda rayonların qrupları var. Həmin qruplarda rayonlarla bağlı problemlər, xəbərlər, məlumatlar öz əksini tapır.

Gedən proseslər isə göstərir ki, bölgələrdəki insanları sosial şəbəkələrə itələyən səbəblər də müxtəlifdir. Belə ki, rayonlarda xeyli problem var: İşsizlik, məmur özbaşınalığı... İcra başçılarının rayonlardakı hegemonluğu, özbaşınalığı insanları qəzəbləndirir. Bölgələrdə müstəqil mətbuat orqanları fəaliyyət göstərmir. Heç də hamının paytaxta gəlib, öz dərdini anlatmaq imkanı yoxdur. Bu səbəbdən də insanlar dərdini sosial şəbəkədə bölüşür, çarə axtarır. Bundan başqa, əhalinin qəzet almağa da imkanı yoxdur. Əlində müstəqil qəzet tutan rayon sakini barədə avtomatik olaraq çuğulçular icra hakimiyyətinə məlumat verəcəklər ki, bu da son nəticədə həmin şəxsə problem yaradacaq. Odur ki, çox vaxt gizli niklərlə profil yaratmaq, yaşadığı rayon barədə məlumatları sosial şəbəkə vasitəsilə paylaşmaq da çıxış yollarından biri sayılır.

Çünki son dövrlərdə təşkil olunmuş aksiyalar da göstərdi ki, sosial şəbəkələrdən istifadə edənlər daha aktiv, daha tez bu məsələləri yaya bilirlər. Sürətlə yayılır və sosial şəbəkədə fəal əhali bundan istifadə edir.

Amma sosial şəbəkənin yarandığı gündən təyinatı əsasən əyləncə xarakterli olub. Tanışlıq, söhbətləşmək, fotoların, əyləncələrin paylaşılması, dostlarla əlaqə vasitəsi... Dünya insanı bundan ancaq sözügedən təyinat üzrə istifadə edib. Dünyanın tanınmış liderləri, siyasətçiləri üçünsə öz siyasi mesajını ünvanlamaq vasitəsi əsasən tvitter olub. Facebook bu məqsədlər üçün adekvat qəbul olunmayıb.

Azərbaycanda facebookun öz təyinatını daha çox siyasi istiqamətə yönləndirməsi isə Tunis hadisələrindən sonra baş verib. Belə ki, Misirdəki inqilabın əsas hərəkətverici qüvvəsi sosial şəbəkə olub. Bu modelin uğurlu ola biləcəyinə inanan azərbaycanlılar eyni xətt üzrə getsələr də, proseslər fərqli cərəyan etdi. Son nəticədə facebook fırtınaları, facebook inqilabları və facebook qəhrəmanları cəmiyyətdə tüğyan edir.

❑ **Sevinc TELMANQIZI**

# Bu teatr ki var...



**Aysel ƏLİZADƏ**

**Dünya mədəniyyəti “rəqəmsal” mərhələsini bitirmək üzrəykən bizim kino, teatr sənəti geriyə-geriyə addımlayır. Hələ də modern tamaşaçını şaşırdacaq sənət nümunəsi görməmişik. İşıqlandırma, rəng seçimi, koordinasiya, modelləşdirmə çağdaş zövqə uymur.**

Bunun günahı kimdədir, bilmirəm.

Azərbaycan teatrında digital effekt yoxdu. Yanını basa-basa tamaşa göstərir. Dinamika!

Ləng bir həyat yaşanan mühit təsəvvürü yaradır bizim teatr.

Hard-diski işləməyən, maketlə baş girləyən kompüter kimidi.

Teatr “izləmək” anlamı verir. Çox qədimdi və qədimliyini müasir həyata dürtə bilən bir sənət növüdü.

Teatr köhnə sənət olsa da bəzən həyatı qabaqlayıb.

Həyat axsıyanda teatrın bar-bar bağıran dövrü olub.

Böyük-böyük mövzulara girişib.

Bütün cəmiyyətlərdə teatr avtoritetləri var. Bizdə də olub, indi yoxdu.

Cəmiyyətdə qadın-kişi bərabərliyi olmayanda teatrda olub.

Cəmiyyətdə qadın görünməyəndə teatrda qadın obrazları yaradılıb.

Cəmiyyətdə qadının hüququ olmayanda teatr qadını səhnəyə çıxarıb.

Mənə görə teatr ayrıca bir dindi. Missiyası böyükdü. Zövq formalaşdırır, protest edir, cəmiyyəti arxasınca çəkib aparır, tərbiyələndirir, ruh, ağıl, sakitlik verir. Düşündürür.

Teatr mədəni istirahət yeridi.

Nimdaşlıq üzərində “oyun” qurmaq vaxtı bitib, cənablar.

Dünya teatrı online tamaşa hazırlayır, eyni anda bir neçə teatr eyni əsəri səhnələşdirir. Digital effekt artıq nanoeffektlə əvəzlənir. İnteraktiv üsulla modern tamaşaçını şaşırdacaq manevrlər edirlər.

Biz isə hələ də pafosla kimisə təsirləndirə biləcəyimizi düşünürük.

Action!

Biz indi plazma televizorlara baxırıq, Sovetin təpəsinə döyə-döyə işlətdiyimiz “Elektron”una deyil. Biz indi komfortlu ofislərdə elektron texnologiya ilə qəzet çap edirik, “qoryaçiy sex” də yox.

Teatr da belə olmalıydı.

Teatr bir çox məsələləri yoluna qoymaq üçün köməkçi mexanizm ola bilir.

Klassisizm ona görə əbədiyaşardı ki, həmişə dövrün yeni cərəyanlarına, üslublarına, ehtiyaclarına qarışa bilib.

Cəmiyyətin gündəmi silkələyəcək “canlı sənət” örnəklərinə ehtiyacı var. Bu barədə, əlbəttə, peşəkarlar daha yaxşı danışar. Bir dəfə Sənubər İskəndərlidən “niyə bizim aktyorlar pafosla danışır” soruşdum. “Pafos əvvəllər texniki səbəblərdən yaranıb. Mikrofonlar, səs avadanlıqları olmayıb deyə, aktyorlar qışqırıblar” dedi. “Bu gün naturallıq dəb yox a, şərtdi. Həyatla sənət bir-birinə çox qarışıb. Dünyaya çıxışımız, müqayisə imkanımız çoxdu. Las Veqasda "The Phantom of The opera"ya (Qaston Leru) baxan tamaşaçını ələ almaq çox çətindi. Bir dəqiqənin içində səhnə su olur, qayıqla aktyorlar önümüzdən keçir, iki dəqiqə sonra ora qupquru yerə çevrilir. Bizim səsi zala gedən “fış, fış, fış” edən tüstü aparatıyla tamaşaçını necə təəccübləndirəcəksən?! Və ya qar effekti yaradanda “vırrrr” edən motorun səsi tamaşaçını hansı aləmə, sehrə salacaq?! Texniki tərəfdən zəifiksə aktyor oyunuyla ələ almaq qalır".

Sözümün canı odur ki, əgər teatrla nəfəs-nəfəsə yaşayan insanlar belə bu problemləri bilir və əziyyət çəkirlərsə, bunun bir çözümü olsun gərək. Kimin birbaşa görəvidisə bir əncam qılsın.

# Parlament seçkiləri ilə bağlı kritik vaxta 1 həftə qaldı

**Parlament seçkilərinə rəsmi start verilməsinə düz 1 həftə qalır. Gələn həftənin bu günü, başqa sözlə desək, sentyabrın 1-də seçkidə iştirak edəcək şəxslər öz namizədliklərini irəli sürəcəklər. Amma bu qədər qısa vaxt qalmasına rəğmən hələ də seçki mühiti hiss olunmur. Hazırkı vəziyyət deməyə əsas verir ki, budəfəki parlament seçkiləri Azərbaycan tarixinin ən sönük seçkisi olacaq.**



# Bəzi iqtidar deputatları infarkt həddində - siyahı gecikir

## YAP-ın rəsmi və qeyri-rəsmi siyahısında bir çox məşhur adlar olmaya bilər; 20 il millət vəkili olmuş və yaşı 70-dən yuxarı əksər Milli Məclis üzvlərinin növbəti heyətə salınmayacağı deyilir; kimlər üçün yeni dövr başlanır, kimlərinsə dövrü qapanır...

Azərbaycanın siyasi mühitinin tələtümlərdən uzaq olmasını iqtidar istəyir. Hakimiyyət çalışıb tempi aşağı salır ki, siyasət aktual olmasın. Ölkə əhalisi, mediası siyasi prosesləri prioritet olaraq yaşamasın. Siyasətin aktuallaşması müxalifətin dirçəlməsinə, güclənməsinə və təşkilatlanmasına gətirib çıxarır. Paralel olaraq cəmiyyət siyasi baxımdan canlanır. İnsanlar öz iradələri ilə seçim etməyə həvəslənir. Nəticə isə hökumətin ziyanına olur.

Sonuncu dəfə 2013-cü ilin prezident seçkiləri zamanı bunun şahidi olduq. İki il öncə müxalifət nə qədər zəif, dağınıq vəziyyətdə olsa da seçki ərəfəsində toparlanıb hakimiyyətə ciddi problemlər yaşada bildi. Hətta Rüstəm İbrahimbəyov projesi iflasa uğrasa da müxalifət seçki prosesində boy və güc göstərməyi bacardı. Bu da iqtidara izafi problemlər yaradır. Seçkinin təbliğat-təşfiqat mərhələsində tele-debatlar zamanı iqtidar rəqib namizədlərdən nə qədər "zərbələr" yeyir. Buna görə də hakimiyyət seçkinin sönük keçməsi üçün təbliğat-təşviqat müddətini iki dəfədən çox azaldıb. Bütövlükdə seçkiyə marağın azalması üçün əlindən gələni artıqlaması ilə edir. Nəticə var... Daha parlament seçkilərində iştirak üçün nə əvvəlki həvəs var, nə də kütləvilik. Hər kəs anlayır ki, təsadüf və şans əsəri parlamentə düşə bilməz. Ona görə də iddialılar maksimum praqmatik davranmağa üstünlük verir. Bu da hakimiyyətin seçki siyasətinə çox yaxşı cavab verir.

Parlament seçkiləri ilə bağlı ləngimənin səbəbi təkcə seçki prosesinin dinamikliyini bəri başdan süni şəkildə əngəlləmək deyil. Hakimiyyət bu il seçkilərlə bağlı ciddi problemləri həll etməlidir. Məsələn, yaşı 70-dən yuxarı deputatların növbəti dəfə Milli Məclisə düşmələri ilə bağlı hakimiyyət dəhlizlərində qızğın müzakirələrin getdiyi haqda informasiyalar var. Həmçinin 4 çağırış deputat olmuş "stajlı" millət vəkillərinin əksəriyyəti ilə üzülüşmək planının olduğu haqda bilgilər dolaşır. Deputat rektorların növbəti seçkidə iştirakı da mübahisəlidir. Bu üç kateqoriyaya daxil olan deputatların bu hakimiyyət qarşısında bu və ya digər şəkildə xidməti var. Bu səbəbdən onlara birbaşa qapını göstərə bilmirlər. Amma yaxın iki gün ərzində radikal qərarın veriləcəyi şübhəsizdir. Çünki artıq seçki qapını kəsdirib. Hakimiyyət istəsə də, istəməsə də bu qərarı verib seçkidə iştirak edəcək namizədlərinin siyahısını rəsmiləşdirməlidir. Zaman gözləmir.

Bu arada, əldə etdiyimiz məlumata görə, bəzi iqtidar deputatları həddən artıq narahatdır. Onlara seçkidə iştirak edib-etməyəcəkləri haqda heç bir sözün deyilməməsi həmin deputatların hətta sağlıq durumuna mənfi təsir göstərib. Hər halda, mənbəmiz belə söyləyir. Məlumatlarda deyilir ki, bir sıra deputatlar üçün növbəti parlamentə düşmək ölüm-qalım məsələsinə çevrilib. Ona görə də onlar çalışıb bugünlərdə özləri haqda dəqiq məlumatlar əldə etmək istəyirlər. Lakin siyahı o qədər məxfi saxlanır ki, ondan hakimiyyətin hətta yuxarı qatında təmsil olunan məmurların əksəriyyəti məlumatsızdır.

Lakin siyahının hazır olduğu da istisna edilmir. Yaxın günlərdə kimlərin dövrünün qapandığı, kimlər üçün yeni dövrün açıldığı bilinəcək.

❑ **Aydın ABBAS**



# Tanınmış Qarabağ qazisi seçkilərə qatılacaq

## Səfər Hümbətov 101 saylı dairəni seçib

**Qarabağ qazisi, Azərbaycanın torpaqlarının qorunmasında iştirak etmiş Milli Ordunun keçmiş zabiti, Azərbaycan Milliyyətçi Demokrat Partiyasının üzvü, "Yeni Müsavat" qəzetinin qurucularından olan Səfər Hümbətov parlament seçkilərində deputatlığa namizədliyini irəli sürəcək.**

Bu barədə musavat.com-a Səfər Hümbətov onunla söhbət edərkən məlumat verib. Məlum olub ki, Hümbətov Səfər Cavad oğlu deputatlığa namizədliyini 101 saylı Göygöl-Daşkəsən seçki dairəsindən irəli sürəcəyini planlaşdırıb. Səfər Hümbətov açıqlamasında eyni zamanda bildirib ki, namizədliyini təmsil etdiyi Azərbaycan Milliyyətçi Demokrat Partiyasının müttəfiqi olan Müsavat Partiyasının siyahısı ilə verəcək. AMDP dövlət qeydiyyatından keçirilmədiyi və Müsavat onun müttəfiqi olduğu üçün bu addımı atmalı olduğunu deyən S.Hümbətov məhz 101 saylı dairəyə üz tutmasının səbəblərini açıqladı: "Mən o bölgəni yaxşı tanıyıram, Azərbaycanın ərazi bütövlüyü uğrunda döyüşlərdə məhz həmin bölgədə silahlı qüvvələrin təşkilində yaxından iştirak eləmişəm. AMDP Yeni Müsavat Partiyasının qurucularından biri kimi, 1988-89-90-cı illərdə orada döyüşmüş və Rauf Arifoğlu ilə birlikdə silahlı dəstələrin təşkilində bilavasitə iştirak etmişəm . Bölgə insanları məni tanıyırlar, bütün rəy liderlərinin əksəriyyəti döyüşçü yoldaşlarımdır. Mən inanıram ki, mənim həmin seçki dairəsində çoxsaylı dəstəkçilərim olacaq. Eyni zamanda həmin seçki dairəsinin ərazisində bir çox insanlar mənim kimi Qərbi Azərbaycandan deportasiya olunaraq gəlmiş soydaşlarımızdır. Hesab edirəm ki, onlara da parlamentdə hüquqlarını müdafiə eləyən bir deputat lazımdır. Onların dərdini anlayan və onlar kimi həyat yaşamış, yaşamaqda davam eləyən, onların bağrından qopmuş bir deputat lazımdır. Mən bu xidmətə hazıram və bu xidmətə hazır olduğumu onlara təklif edəcəyəm. Səs versələr sağ olsunlar, səs verməsələr yenə də mənim xalqım, mənim camaatımdır, yanlarındayam. Necə ki, 1988-89-90-cı illərdə erməni qəsbkarlarına, Çaykənd anklavından azərbaycanlılara atəş açan rus hərbçilərinə qarşı əlimdə silah vuruşmuşam, yenə də hər bir cəbhədə xalqımın, dövlətimin maraqlarına qorumağa hazıram. İstər parlament cəbhəsində, istər informasiya cəbhəsində, istər savaş olarsa, Ali Baş Komandan könüllüləri toplayarsa, əldə silah xalqımın, Azərbaycanın uğrunda savaşmağa hazıram".

❑ **E.SEYİDAĞA**

# PKK Azərbaycana məxsus kəməri partlatdı

## Ekspertə görə, terror təşkilatı Türkiyə hökumətini danışıqlara məcbur etmək və Qərbin diqqətini cəlb etmək üçün strateji əhəmiyyətli enerji layihələrini hədəfə alır



**PKK terror təşkilatı növbəti dəfə Bakı-Tiflis-Qars-Ərzurum qaz kəmərini partladıb. Türkiyə mediasının məlumatına görə, partlayış avqustun 24-də yerli vaxtla saat 18 radələrində baş verib. Hadisə ətraf bölgələrdə böyük ajiotaja səbəb olub, təhlükəsizlik qüvvələri ətrafda çənbər yaradıblar. Partlayışdan sonra alov yüzlərlə metr yüksəlib, qaz nəqli dayandırılıb.**

Bundan bir qədər əvvəl, yəni avqustun 6-da da PKK yaraqlıları Türkiyə ərazisində Sarıqamış rayonunda Bakı-Tiflis-Ərzurum təbii qaz xəttini partladıblar. Partlayışdan sonra bölgədə qaz təchizatı 3 günlük dayandırılıb.

Türkiyədə hökumətin PKK-ya qarşı əməliyyatlara başlamasından sonra kürd yaraqlıları ordu və təhlükəsizlik qüvvələri ilə yanaşı, hökumət idarələrinə, o cümlədən mühüm əhəmiyyətli nəqliyyat yollarına, boru kəmərlərinə qarşı terror həyata keçirir. İyulun 27-də Doğubəyazid rayonunda PKK yaraqlıları İrandan Türkiyəyə qaz nəqlini həyata keçirən boru kəmərini partladıb.

Avqustun 25-də isə Mardin vilayətinin Nusaybin rayonunda PKK terrorçuları beynəlxalq İpəkyolu magistralını uzaqdan idarə olunan bomba ilə partladıb və partlayış nəticəsində yol istifadəsiz hala gətirilib. Nusaybin rayonundan Habur sərhəd məntəqəsinə gedən beynəlxalq avtomagistral yararsız hala düşüb.

Qeyd edək ki, PKK uzun illər Türkiyədə terror fəaliyyətində olsa da, Azərbaycana məxsus BTC və Bakı-Tiflis-Qars-Ərzurum qaz kəmərinə, belə desək, toxunmayıb. Yalnız 2008-ci ildə Rusiya-Gürcüstan müharibəsi zamanı BTC-yə müəmmalı hücum baş vermişdi. Ancaq ümumilikdə Azərbaycanın neft və qaz məhsullarını dünya bazarına çıxaran kəmərlər təhlükəsiz hesab olunurdu. Bir sıra müşahidəçilər bunu boru kəmərlərinin Qərbin layihəsi olması və PKK-nın da dolayısı ilə Qərb ölkələri ilə əlaqələri səbəbindən kəmərlərə toxunmaması kimi izah edirdi. Ancaq eyni zamanda PKK-nın Azərbaycan üzərindən fəaliyyətləri olması və bu səbəbdən Bakını qəzəbləndirməmək üçün boru kəmərlərinə toxunmadığı iddia olunurdu.

Ancaq indi görünən odur ki, bu vəziyyət dəyişib. Ən azı PKK-nın atəşkəsi dayandırdıqdan sonra iki dəfə qaz kəmərinə hücum etməsi bunu deməyə əsas verir. PKK-nın məhz Azərbaycana məxsus kəmərləri hədəfə almasının anlamı nədir? Doğrudanmı terror qruplaşması Azərbaycana qarşı düşmənçilik etməyə başlayıb?

**Siyasi şərhçi Natiq Mirinin fikrincə, PKK yaraqlılarının boru kəmərini hədəfə alması Türkiyəni sabotaj etmək və hökuməti danışıqlara vadar etmək məqsədi güdür:** "PKK-nın aldığı ciddi zərbələrdən sonra bütün sahələr üzrə Türkiyəyə ziyan vura bilmək üçün hər cür yollara baş vuracağı gözlənilirdi. Neft kəmərlərində törədilən partlayışlar da Türkiyə ordusunu dayandırmaq məqsədi güdür. Əslində PKK bunun Türkiyə dövləti tərəfindən verilən bir siyasi qərar olduğunu və müəyyən mənada ABŞ-la razılaşdırıldığını bilir. Ona görə də bu prosesin PKK terrorunun tam məhv edilənədək davam etməsi əndişəsiylə Türkiyənin strateji maraqında olan bütün nahiyələrə hücum etmək qərarı veriblər ki, türk hökumətini yenidən danışıqlar masasına qaytarsınlar. Üstəlik, PKK-nın partlatdığı neft kəməri Türkiyə hissəsində olduğu üçün bu, bilavasitə Türkiyənin məsuliyyət dairəsinə aid edilir və bədəli də təbii ki, Türkiyəyə aiddir. Ancaq terror hadisəsi Azərbaycan, yaxud Gürcüstan ərazisində baş vermiş olsaydı, bunu Azərbaycana bir mesaj kimi dəyərləndirmək olardı. Ancaq hər bir halda bunun Azərbaycanın maraqlarına uyğun olmadığı bəllidir və bəlkə də Azərbaycana müəyyən qüvvələrə PKK-ya dəstək verilməsi gərəkliyinə bir işarə də ola bilər".

**N.Mirinin fikrincə, Qərb ölkələri PKK-nın bu addımına razılıq verə bilməzlər, ancaq terror təşkilatı bu hücumlarla diqqəti özünə cəlb etməyə çalışır:** "Enerjidaşıyıcı kəmərlərin vurulması heç bir halda Qərbin maraqlarına uyğun deyil. Sadəcə, qaz kəmərlərini vurmaqla ABŞ başda olmaqla, Avropanın da diqqətini Türkiyədəki bombardmanlara yönəltmək və onların təzyiqi ilə prosesi dayandırmaq istəyirlər".

❑ **KƏNAN**

YENİ MÜSAVAT
N 187 (6215) 26 avqust 2015

# "İntertabakko"nun direktoru haqda sensasion məlumatlar



**Ötən həftəsonu Beynəlxalq Banka kredit borcunu qaytarmadığı üçün 17 iş adamının həbs müddətinin uzadılması tezliklə daha sensasiyalı həbslərin də olacağına işarə idi. İddialara görə, bu günə qədər borclu oliqarxlardan cəmi 160 milyon dollar geri alına bilib.**

## Beynəlxalq Bank işində "tütün iyi": bacanağın həbsinin sirri...

### Tütün Emalı Zavodunun direktoru İsmayıl Hidayətzadəyə uzun illər "gözün üstə qaşın var" deyən olmayıb; Cahangirin "delosu" üçün vacib fiqurun həbsi nəyə hesablanıb?; Hacı İbrahimin sabiq baş mühasibi də axtarışa verildi

Bu səbəbdən də həbslərin davam edəcəyi gözlənilən idi. Xəbər verildiyi kimi, bankın İdarə Heyətinin sabiq rəhbəri Cahangir Hacıyevin bacanağı, "İntertabakko" Zaqatala Tütün Emalı Zavodunun direktoru İsmayıl Hidayətzadə həbs edilib. İsmayıl Hidayətzadə Nərimanov Rayon Məhkəməsinin qərarı ilə 4 ay müddətinə həbs edilib. Biznesmen CM-in 178.3.2-ci maddəsi ilə ittiham olunur. İ.Hidayətzadə Bakıda tütün fabriki yaratmaq üçün Beynəlxalq Bankdan 100 milyon dollar kredit götürübmüş. İstintaq bu kreditlərin təyinatı üzrə xərclənməsinə şübhə ilə yanaşır.

Məlumata görə, İ.Hidayətzadə DİN Mütəşəkkil Cinayətkarlığa Qarşı Mübarizə Baş İdarəsinin istintaq təcridxanasında saxlanılır.

"Yeni Müsavat"ın əldə etdiyi məlumata görə, İsmayıl Hidayətzadə Beynəlxalq Bankla bağlı araşdırma başlayandan istintaqa cəlb edilib. O, 2008-ci ildən "İntertabakko" Zaqatala Tütün Emalı Zavodunun direktoru işləyir. Hətta ölkə prezidenti İlham Əliyev 2010-cu ildə Cahangir Hacıyevin patronajlığı ilə yaradılan, İ.Hidayətzadənin isə rəhbərlik etdiyi Zaqatala Tütün Emalı Zavodunun açılışında iştirak edib. Beynəlxalq Bankdan götürülmüş kreditlə Yuxarı Tala kəndi ərazisində 1,5 hektara yaxın sahədə Zaqatala Tütün Emalı Zavodu tikilib. "İntertabakko" MMC Zaqatala, Qax və Şəkidəki tütün qəbulu və qurudulması məntəqələrində siqaret istehsalı üçün xammal məmulatları istehsal edib. Vaxtilə zavodda işləmiş bir mənbəmiz deyib ki, buradakı avadanlıqlar ABŞ-dan gətirilib. Bundan əlavə, "İntertabakko" MMC Zaqatala və Qax rayonları ərazilərində Bolqarıstandan alınıb quraşdırılmış 120 tütünqurutma kamerasından ibarət 2 tütün qəbulu-qurudulması məntəqə inşa edib. Müəssisənin əsas istehsal sexində Amerikanın və İtaliyanın şirkətlərindən alınmış, müasir texnologiyalarla işləyən avadanlıqlar quraşdırılıb. Bundan əlavə, tütün şitillərinin yetişdirilməsi üçün Amerika texnologiyası ilə işləyən 14 istixana da quraşdırılıb istifadəyə verilib.

Zavodun əsas işini İ.Hidayətzadə görsə də, tütün zavodların C.Hacıyevə məxsus olduğundan burada vergi belə xüsusi yoxlamalar aparmayıb. Çünki şimal-qərb bölgəsinin qeyri-rəsmi sorumlusu məhz C.Hacıyev olduğundan İ.Hidayətzadəyə "gözün üstə qaşın var" deyən də olmayıb. Amma 2013-cü ildən sonra bu bölgədə tütünçülük rentabelliyini itirib. Məsələn, mənbəmiz deyib ki, respublikanın ən böyük tütünçülük rayonlarından olan və bu sahə üzrə ixtisaslaşan Şəkidə son 5 ildə 1 ton tütünün alış qiyməti təxminən 1000-1500 manat olub. Daha bir maraqlı məlumat isə budur ki, C.Hacıyevin bankın pullarından istifadə edərək bütün gəlirli sahələrə girişməsi, külli miqdarda pul xərcləməsi digər oliqarx-məmurları qəzəbləndirirmiş. Onun tütünçülükdən də pul qazanması "siqaret mafiyası"nda ciddi narazılıq yaradıbmış və zavodların rentabelli işləməməsinin səbəbləri sırasında rəqiblərinin də rolu var.

İddialarda deyilir ki, İ.Hidayətzadə istintaqda pulların əvəzinə avadanlıqları təklif etsə də, bununla razılaşmayıblar. Ümumiyyətlə, istintaq heç bir halda borclulardan mal-mülk qəbul etmir. İ.Hidayətzadə adına götürülmüş borcları qaytarmaq üçün vaxt istəyib və bu imkan ona tanınıb. Onun ölkədən çıxışına qadağa qoyulub və istintaq nəzarətində olub. Amma uzun zaman keçsə də, bacanaq pulun heç üçdə-birini də toplaya bilməyib. Nəhayət, yuxarıların sanksiyasından sonra İ.Hidayətzadə həbs olunub.

Məlumata görə, sabiq bankirin biznesindən sorumlu ən yaxın adamı Adil Hüseynovdan sonra İ.Hidayətzadənin də həbsi C.Hacıyevin başı üzərindəki təhlükəni daha da artırıb. Məlumdur ki, Beynəlxalq Bankın Dubay filialının rəhbəri olan Adil Hüseynov C.Hacıyevin bu şəhərdə qurduğu iki zavod işinə görə həbsdədir. Onunla bağlı istintaq müddəti ötən həftə daha üç ay uzadılsa da, indiyə kimi hər hansı istintaq hərəkəti həyata keçirilməyib, ifadə verməyib və ən əsası hər hansı üzləşmə həyata keçirilməyib. İ.Hidayətzadə də sabiq bankirin qurduğu zavodlardan sorumlu kimi indi həbsə düşüb və bu, artıq C.Hacıyevə ciddi xəbərdarlıqdır. Mümkündür ki, bu adamların həbsi C.Hacıyevin "delosu" üçün vacibdir və sırada Beynəlxalq Bankın sabiq rəhbəridir...

Yeri gəlmişkən, Beynəlxalq Banka 500 milyona yaxın borcu olan "Avesta" konsernin rəhbəri Hacı İbrahim Nehrəmlinin yaxın adamlarından olan Vaqif Bağırov barəsində İnterpol xətti ilə axtarış elan olunub.

1970-ci ildə Şahbuz rayonunda anadan olmuş Vaqif Bağırov Hacı İbrahim Nehrəmlinin sahibi olduğu "Avesta" konsernində baş mühasib vəzifəsində çalışıb. O, Cinayət Məcəlləsinin 178-ci maddəsi ilə ittiham elan edilib. Ölkədə olmadığını görə onun qırmızı xətt üzrə axtarışına qərar verilib.

Bir müddət əvvəl Azərbaycandakı bəzi KİV-lə əlaqə saxlayaraq H.İbrahimlə bağlı iddialar irəli sürən V.Bağırov Afrikada yaşadığını deyib. Onu da qeyd edək ki, V.Bağırovun Bakıda tikilmiş binalarda vətəndaşlara satılmış mənzillərin digər şəxslərə satdığı iddia edilirsə də, borclu oliqarxın "pul kisəsinin sirlərini" bilən V.Bağırov Beynəlxalq Bank işi ilə də bağlı istintaq üçün maraqlı fiqurantdır.

❑ "Yeni Müsavat"

# Niyə məhz əyalətlər?



Hüseynbala SƏLİMOV

**Hətta hiss olunacaq bahalaşma belə medianın və sadə insanların diqqətini Mingəçevirdə baş vermiş hadisədən ayıra bilmədi... Səhv etmiriksə, bu, üçüncü böyük əyalət etirazıdır - birincisi Qubada, ikincisi İsmayıllıda, üçüncüsü də Mingəçevirdə oldu...**

Əslində etirazların nədən qaynaqlandığını, onların nədən mərkəzdə deyil, məhz əyalətlərdə baş verməsi xüsusi bir izah tələb etmir...

Bakı mərkəzdir. Burada hər şey fərqlidir. Yerli hakimiyyətin davranışı da, sosial durum da, insanlar arasındakı kommunikasiya imkanları da... Amma gəl ki, əyalət belə deyil...

Düzdür, 90-cı illərlə müqayisədə bir xeyli dəyişiklik var, indi hətta əyalət də həmin keçmiş əyalət deyil - şəhərlər və qəsəbələr tikilir-qurulur, əhalinin minimal da olsa, öz sosial immuniteti var, işsizlik daha əvvəlki illərdəki kimi kəllə-çarxa vurmur...

Amma bütün bunlarla belə, əyalət Bakı deyil, onlar daha çox xırda xanlıqlara bənzəyirlər. Həm də son vaxtlarda böyük layihələrin dayandırılması ucbatından işsizlik yenə də bir nömrəli problemə çevrilib. İşsizlik qədər sosial problemləri qabardan, vəziyyəti gərginləşdirən ikinci amil isə tapmaq çətindir...

Amma sözüm bunda deyil. Məni bu etirazların başqa tərəfi maraqlandırır. Bu vaxta qədər baş vermiş əyalət etirazlarının demək olar ki, hamısında yerli hakimiyyətlərin təqsiri etiraf olunub. Amma bununla bahəm az qala kütləvi həbs dalğası olmadan da keçinmək mümkün olmayıb - çoxlu sayda insan həbs olunub, incidilib...

Demirik ki, əyalətdə baş vermiş hər hadisə orada böyük sosial partlayışa səbəb olmalıdır. Yox. Amma insanları başa düşmək lazımdır. Etiraz etmək də bir növ bu insanların hüququdur. Mingəçevirdə baş vermiş hadisənin təfərrüatları bizə tam aydın deyil. Amma yerli strukturların təqsiri dərhal etiraf olundu. Bu isə o deməkdir ki, etiraz üçün zəmin olub...

Bir az əvvəldə dedik ki, yerli strukturlar özlərini kiçik xanlıqlar kimi aparırlar.

Bu da insanların səbrini daşdırır... Onları etiraz etməyə sövq edir...

Bunu həm də avtoritar idarəçiliyin xüsusiyyətlərilə izah edərdik. Bilirsiniz, bu qədər neqativ enerji ki, insanlarda toplanır, onun da azad edilməsinin yolları olmalıdır...

İndi guya qarşıdan parlament seçkiləri gəlir. Əslində insanlar etiraz edəndə ilk növbədə onların qarşısına deputatları - onları parlamentdə təmsil edən adam çıxmalıdır. Amma əksər hallarda insanlar hətta onları tanımırlar...

Məgər bu, problem deyilmi? Təsəvvür edin, illərlə acıq, etiraz insanların içində toplanır və öz ifadəsini tapa bilmir. İnsanlar nə etsin? Demirik ki, olay və proseslər o qədər gərgindir ki, yalnız neqativ enerjiə çıxış verir...

Amma bu, da var. Ən qəribəsi isə bilirsiniz nədir? Bu yaxınlarda götürüb Lev Tolstoyun "Anna Karenina" romanını təkrar oxudum və məni bir daha təəccüb etməyə bilirsiniz nə vadar etdi?..

Əşi, bu çarın vaxtında əməlli-başlı iş görülürmüş, əməlli-başlı demokratiya və sərbəstlik varmış...

İndi biz də qəbul edirik ki, Azərbaycanda ən azı yaxın vaxtlarda arzuladığımız demokratik sistem olmyacaq. Amma heç olmasa, bəzi işləri görmək olardı axı!..

Təsəvvür edin, rus çarının dövründə insanlar seçkidə saxtakarlığın nə olduğunu bilmirlərmiş. Bəli, bəzi seçkilər məhdudiyyətlərlə keçirilirmiş, gəl ki, insanlar saxtakarlığın nə olduğundan xəbərsiz imiş...

Məgər bu azdırmı? İnanın, azad seçki olsa, insanlar özlərini azad şəkildə ifadə etsələr, məhkəmələr normallaşsa, bir çox problemlər sadələşə bilər...

Həmin bu əyalət etirazlarının hamısına hansısa narazılıq təkan verib. İnsanlar bu narazılığı məhkəmə yolu ilə də həll edə bilərdilər. Amma görünür ki, ya bizim məhkəmələr qaydasında deyil, ya da insanlarda onlara qarşı inamsızlıq mövcuddur...

İndi də qarşıdan parlament seçikisi gəlir. Elə bir əhəmiyyəti olmasa da, bunu bir daha qeyd etmək zorundayıq...

Nə demək istəyirik? İnsanlara seçmək imkanı verin. Qoy onlar istədikləri insanları seçsinlər, öz istədiklərinə səs versinlər. Bu, ən azı sizin də, yəni hakimiyyətin də rahatlığı üçündür, siz onlara seçim imkanı versəniz, onlar da sizi seçim qarşısında qoymazlar...



# Torba dolusu təlaş

Samir SARI

**Biz soyuqqanlı camaat deyilik, türkün sözü, "panik atak" insanlarıq. Bir şey oldumu, təlaşlanır, təşvişə düşür, böyüzm olur, vahimələnir, vay-nöfsə qoparır, haray-həşir salırıq. Tam əminliklə deyə bilərəm ki, 1993-cü ildə Qarabağın rayonları sırf yersiz yerə vahiməyə düşməyimizin güdazına getdi.**

Başqa rayonları demirəm, o gün işğalının 22-ci ildönümünü qeyd etdiyimiz Cəbrayıl və Füzuli kütləvi vahimənin qurbanı oldu. Gözümün şahidiyəm, özü də o vaxt camaatı hərbçilər panikaya saldı. Səngərə girib əliyalın camaatı müdafiə edəcəkləri yerdə, özləri "Qaz-66"ların banına doluşub "qaçın, qaçın, gəlirlər!" deyə paytaxta sarı götürülmüşdülər, camaat da pay-piyada qalmışdı dərə-təpənin arasında. Ağlaşma, şivən qopmuşdu. Uşaqların qorxudan gözü böyümüşdü. Əsir düşməmək üçün özünü xan Araza vuranlar vardı.

Sonradan məlum oldu ki, o boyda təlaşlanmağa ehtiyac yox imiş. Vahiməyə düşüb qaçan alaylardan biri qayıdıb düşmənə müqavimət göstərsə rayonları qorumaq olarmış.

Şəxsən mən o silah-sursatlı moto-atıcı alaylardan birini Kərimbəyli kəndinin yaxınlığında üzü Beyləqana tərəf nizami addımlarla hərəkət edən gördüm. Onlar gedib Beyləqan camaatını da panikaya salmışdılar, ordan da qaçanlar vardı. İmişli sakinləri də artıq yır-yığışa başlamaq üzrəydilər, xəbər gəldi ki, müharibə 100 kilometr geridə gedir, buralar üçün qorxu yoxdur.

Sonralar biz heç nədən təlaşlanmağa vərdiş elədik. Böyrümüzdən yel ötən kimi təşvişə düşürdük. 1994-cü ilin payız aylarında bir-iki ay çörək qıtlığı yaranmışdı, növbə olurdu. Aclıq olacağı qorxusundan insanlar kütləvi şəkildə un, buğda tədarükü görmüşdülər. Elə adam vardı, 3 ilə yetəcək qədər un alıb evinə yığmışdı. Hamısı kifləndi getdi.

Hazırda məsələ belədir: neft ucuzlaşıb, Çin yuanı dəyərdən düşüb, rus rublu ölüb və biz öz manatımızın dəyərsizləşəcəyi qorxusundan kütləvi şəkildə panikaya düşmüş durumdayıq, əlimizdə olan manatları təcili şəkildə dollara dəyişməyə çalışırıq.

Dünən həmkarlarımız sosial şəbəkədə bankların, valyuta mübadiləsi məntəqələrinin qarşısında növbəyə duran əlitorbalı adamların fotolarını paylaşmışdı. Bunlar o adamlardır ki, bir neçə gün öncə borc istəyən qohum-qardaşına "sən öl, atamın goru haqqı, evdə çörəkpulundan başqa pulumuz yoxdur" deyən adamlardır, indi hərəyə yeddi kilo milli əskinas götürüb növbəyə durublar ki, 6 kilo dollar alsınlar.

Bir nəfər yazmışdı ki, dolları qıtlaşdıran bunlardır. Düzgün müşahidədir. Elədir. Yoxsa cibində cəmi 300 manatı olan adam nə qıtlıq yaradasıdır ki... Uzağı gedib 284 dollarını alıb qoyacaq cibinə ki, manat ucuzlaşsa, sabitləşsə, bu təzədən o pulu manata çevirib xərcləsin, 15-20 manat qabağa düşsün.

Paradoksun ən yekəsi elə budur: bir "Şagman" dolusu manatı olan da panikaya düşüb, cəmi 100 manatı olan da. Birinci müflis ola, milyarderliyindən geriləyib milyonçu ola bilər, ikincisi isə ən çoxu 20 manat itirəcək.

Əslində, kasıb adamların devalvasiyadan qorxması daha təbiidir. Ataların belə bir misalı var, deyir, kök arıqlayana qədər arığın canı çıxacaq. Kasıblar da ondan qorxur ki, milyonçulara bir şey olası deyil, amma bu tərəfdə çörəkpulu problemi yarana bilər.

Neçə gündür tanınmış iqtisadçılar milli valyutanın bərəkətinə and içib, aman edirlər ki, manatın devalvasiyası gözlənilmir, təlaşa, təşvişə ehtiyac yoxdur, amma yenə də qədirbilən xalqımızı inandıra bilmirlər. Bilməyəcəklər də. Hər kəs əlindəki bir torba pulu dollarla dəyişdirməyincə dincəlməyəcək.

Əlbəttə, əldə dilənçi torbası gəzdirməkdənsə pulla dolu torba gəzdirmək yaxşıdır və arzulayaq ki, manatımız Zimbabve dollarının gününə düşməsin (bildiyiniz kimi, 1 çuval Zimbabve dollarına bir yumurta verirlər).

Manatın dəyərinə münasibətdə soyuqqanlı olan adamlar da var, amma azdırlar. Manat-dollar söhbəti onların vecinə də deyil. Sadəcə, onlar səmimi qəlbdən istəyirlər ki, vəziyyət daha da pis olsun, bəlkə onda Siyavuş Novruzovun dili bir az gödələ...

# Daha bir cəbhəçi gənc istefa verdi

## Cavid Nuriyev: "Əli bəyi taksi ilə qaçırdıq..."

**Əli Kərimlinin keçmiş müavini Razi Nurullayevin təşkilat yaratmasından və AXCP adına iddiasını irəli sürməsindən sonra partiya daxilində başlayan "yarpaq tökümü" davam edir. Bir-birinin ardınca istefalar reallaşır. R.Nurullayevin getdikcə tərəfdarlarının sayı artmaqdadır.**



AXCP daxilində daha bir istefa Suraxanı təşkilatında yaşanıb. Gənc üzv Cavid Nuriyev müsavat.com vasitəsilə partiya sıralarından istefa verdiyini, R.Nurullayevin tərəfinə keçdiyini bəyan edib: "2003-cü ildən meydanlardayam. AXCP-nin Suraxanı şöbəsinin üzvüyəm. Əli Kərimlini indiyə qədər hər zaman dəstəkləmişəm. Son illərdə partiyada gördüklərim artıq qalmağıma imkan vermədi. 2005-ci ildə dəfələrlə döyüldüm. Hətta həmin il Əli bəyi Nərimanov parkından taksi ilə qaçırdıq. Bu il 28 fevralda 400 manat cərimələndim. Fəhləliklə o cəriməni ödədim. Partiya mənə kömək etmədi. Bir insan belə maraqlanmadı. Mənə çoxlu sayda təzyiqlər oldu ki, sənin orada nə işin var. Ürəkdən cəbhəçi olmuşam. Heç zaman xəyanət etməmişəm. Üzvlük haqqı daim vermişəm. Hər mitinqdə ətrafımda 5-10 nəfərlə iştirak etmişəm. 20 qəpik belə partiyadan xeyir görməmişəm. Çəkdiyim əzablar hədər oldu. Artıq haqq-ədaləti indi tapmışam. Razi bəyin yanındayam. Onu dəstəkləyirəm. Tam şəkildə kənara çəkilmişdim. Bu gün dostlarım Razi bəyin yanındadırsa, mən də onların yanındayam. Həmişə gözlədim ki, əqidəli bir təşkilat yaransın, mən də ona qoşulum. Bu gün onu tapdım. Bu gün Əli Kərimlinin mühafizəçisi olan, Suraxanı təşkilatının sədri Bəhruz məni təhdid edir. O kimdir ki, məni təhdid etsin. O, partiyada olmayanda, mən orada idim. Mənə deyir ki, sən narkomansan. Əli bəyin qəbuluna düşmək üçün dəfələrlə çalışdım. Şikayətimi çatdırmaq üçün. Amma mənə şans vermədilər. Ona görə də partiyadan gedirəm. Bu andan etibarən Razi bəyin tərəfinə keçirəm. Onun yürütdüyü siyasəti dəyərləndirirəm. İndiyə qədər boğazımdan kəsib, fəhləliklə qazandım pullardan partiyaya yardım etmişəm. Əsasən də həbsdə olanlara görə. Peşman deyiləm. Çünki bu yolu gedən şərəfli insanlar üçün etmişəm".

❑ Cavanşir ABBASLI



# Rauf Mirqədirov müalicə müəssisəsinə köçürülür

**MTN-in təcridxanasında saxlanılan jurnalist Rauf Mirqədirov bu gün tibbi müayinə üçün Penitensiar Xidmətin müalicə müəssisəsinə köçürüləcək.**

Bu barədə virtualaz.org saytına jurnalistin vəkili Fuad Ağayev məlumat verib.

Vəkil deyib ki, R.Mirqədirovun səhhətində ciddi problemlər var.

"Zerkalo" qəzetinin icmalçısı R.Mirqədirov 2014-cü il, aprelin 19-da Türkiyədən deportasiya olunduqdan dərhal sonra CM-in 274-cü (dövlətə xəyanət) maddəsi ilə həbs olunub. O, ittihamları rədd edir.

# VHP-dən deputatlığa gürcü namizəd

## Partiyanın Qax rayon təşkilatının sədri Zaza Poladaşviliyə seçkilərdə etimad göstərildi

**Avqustun 25-də Vətəndaş Həmrəyliyi Partiyasının (VHP) Qax rayon təşkilatının IV konfransı keçirilib. Partiyanın mətbuat xidmətindən verilən məlumata görə, konfransda təşkilatın özəklərindən seçilmiş nümayəndələr, VHP Siyasi Şurasının üzvü Samir Əsədli, Ali Məclisin üzvü Məhəmməd Qadaşlı və şöbə müdiri Səlcuq Elçin iştirak edib.**




Konfrans sədarət və katibliyin seçilməsi ilə işə başlayıb. Konfransa Hazırlıq üzrə Təşkilat Komitəsinin sədri Elşən İbrahimov konfrans öncəsi özək təşkilatlarının toplantısı və digər hazırlıq işləri barədə məlumat verib.

**VHP Qax rayon təşkilatının sədri Zaza Poladaşvili** geniş hesabat məruzəsi ilə çıxış edib, rayon təşkilatının və onun seçkili orqanının gördüyü işlər, təşkilatın qarşısında duran vəzifələr, rayondakı ictimai-siyasi vəziyyət barədə məlumat verib. O bildirib ki, VHP çoxmillətli partiyadır: "Bizim üzvlərimizin arasında gürcülər, ləzgilər və saxurlar var. Biz bu partiyada özümüzü daha yaxşı hiss edirik. Çünki bu partiya bizim hər birimizin hüququnu qoruyur və bizləri müdafiə də edir. VHP bəlkə də yeganə partiyalardandır ki, onun 20-dən artıq gürcü üzvü var".

NTK sədri Asif Qədirli çıxışında bildirib ki, təşkilat öz fəaliyyətini VHP-nin Nizamnaməsinə uyğun qurub və onun Məramnaməsindən irəli gələn məsələləri həll etməyə çalışır. Konfrans iştirakçılarından - Ağsaqqallar Şurasının sədri Allahyar Qadaşlı, Qadınlar Şurasının sədri Elnarə Elşadqızı, Gənclər Təşkilatının sədri Roma Zazayeviç, Qax İngiloy kənd özək təşkilatının sədri Enriko Canaşvili, Qax şəhər özək təşkilatının sədri Cəfər Məhyəddinov və digərləri də çıxış edərək təşkilatın fəaliyyətindən danışıb, öz təkliflərini veriblər.

VHP Ali Məclisinin üzvü Məhəmməd Qadaşlı da qurultay hazırlıqları və VHP-nin fəaliyyəti barədə məlumat verib.

**VHP Mərkəzi İcra Aparatının rəhbəri Samir Əsədli isə çıxışında ölkədəki ictimai-siyasi vəziyyət barədə danışıb. O bildirib ki, VHP-nin əsas işi ölkədə vətəndaş həmrəyliyinə xidmət etmək və bu ideologiyanı gerçəkləşdirməkdir:** "VHP-nin 80 rayon təşkilatı fəaliyyət göstərir və partiyanın üzvləri arasında 18 millətin nümayəndəsi var. Bu, VHP-nin hər bir vətəndaşın və ölkədə mövcud olan bütün milli azlıqların partiyası olduğunu göstərir".

Sonda 11 nəfər Məclis üzvü, 3 nəfər NTK üzvü və qurultaya 9 nəfər nümayəndə seçilib. Gürcü əsilli Zaza Poladaşvili isə böyük səs çoxluğu ilə yenidən rayon təşkilatının sədri seçilib və onun qarşıdan gələn parlament seçkilərində 112 saylı Qax Seçki Dairəsindən namizədliyinin Milli Məclisə irəli sürülməsi qərara alınıb.

❑ E.SEYİDAĞA

# Avropa İttifaqının təmsilçiləri AMİP rəhbərliyi ilə görüşdü

**Avqustun 25-də AMİP rəhbərliyi ilə Avropa İttifaqının Azərbaycandakı Nümayəndəliyinin rəhbərliyi arasında görüş keçirilib. AMİP-dən verilən xəbərə görə, Avropa İttifaqının Azərbaycandakı Nümayəndəliyinin ofisində baş tutan görüşdə Azərbaycan Milli İstiqlal Partiyasını sədr Yusif Bağırzadə, baş katib Arzuxan Əlizadə və beynəlxalq əlaqələr katibi Elşən Mustafayev, qarşı tərəfi isə Avropa İttifaqının Azərbaycandakı Nümayəndəliyinin rəhbəri xanım Malena Mard və nümayəndəliyin Siyasi, İqtisadi, Mətbuat və İnformasiya bölməsinin rəhbəri Toralf Pilts təmsil ediblər.**

Görüş zamanı əsasən Azərbaycanda keçiriləcək parlament seçkiləri öncəsi vəziyyət, eləcə də AMİP-in seçkilərdə iştirakı müzakirə olunub. Eyni zamanda Azərbaycanın Avropa məkanına inteqrasiyası, bu istiqamətdə siyasi partiyaların rolu və AMİP-in beynəlxalq əlaqələri ilə əlaqədar məsələlər müzakirə obyekti olub.

❑ E.SEYİDAĞA

# “İqtidar islahatlar paketi hazırlayıb...”

## **Mehman Əliyev:** “Böhrandan çıxmaq üçün heç bir ciddi addım atılmasa, bu, genişmiqyaslı etirazlara gətirib çıxara bilər”

**“Neftin qiymətinin ucuzlaşması müvəqqətidir və payız aylarında qiymətlər qalxmağa başlayacaq. Hesab edirəm ki, neftin qiyməti ən aşağısı 65-70 dollar olacaq. Ancaq qiymətlərin indikindən aşağı düşməsini gözləmirəm”.**

“Turan” İnformasiya Agentliyinin direktoru **Mehman Əliyev** bunu “Yeni Müsavat”a açıqlamasında bildirdi. Onun sözlərinə görə, neftin ucuzlaşmasının arxasında daha çox iqtisadi deyil, siyasi amillər durur: “Bu da Rusiya və digər ölkələrə davam edən təzyiqlərlə bağlıdır. Hazırda bu ölkələrlə ABŞ-ın danışıqları gedir. Əlbəttə ki, Amerika öz məqsədlərinə nail olmaqda israrlıdır. Məncə, Rusiya və digər ölkələr güzəştlərə gedəcəklər. Məsələn, bu gün Yaxın Şərq üzrə gedən proseslər, Rusiyanın Suriya, Livan, İraqdan çəkiləsi, PKK məsələsi və Moskvanın Qərblə əməkdaşlığa getməsi məsələsi var. Onlar da bunun müqabilində başqa imtiyazlar istəyirlər. Bütövlükdə, məncə, yaxın zamanlarda onlar bir araya gələ biləcəklər, bu, qaçılmazdır. Qlobal yanaşanda görürük ki, prinsipcə Amerika öz məqsədlərinə nail ola bilir. İranla münasİbətlər kifayət qədər normallaşıb, artıq Tehran Amerikaya qarşı düşmənçilik münasibətlərində deyil. Venesuela, Kuba ilə bağlı də eyni vəziyyətdir. Türkiyənin özünün artıq bu proseslərə girməsi onu göstərir ki, bölgədə həlledici proseslər başlayıb. Ona görə də Türkiyə hərbi müdaxilələrə start verib. Hansı ki, Ankara həmişə kənarda dayanmağa üstünlük verirdi. Bu, onu göstərir ki, artıq ortada çox maraqlı vəziyyət var və bu, Rusiya ilə əlaqədardır”.

**M.Əliyev Ukrayna, Orta Asiya, Çinlə bağlı da kifayət qədər ciddi proseslərin getdiyini vurğuladı:** “O ki qaldı Azərbaycanla bağlı vəziyyətə, əlbəttə ki, hakimiyyət ilk növbədə daxili iqtisadi siyasətini dəyişməlidir. Gündəmdə azad iqtisadiyyata gedilməsi məsələsi var. Yəni Azərbaycanın kifayət qədər daxili resursları var ki, onlar işə salınmalıdır. Bu resurslar arasında ən böyüyü insan resursudur. Azərbaycanlılar bütün dünyada sübut edirlər ki, onlar işləməyi bacaran, qurub-yaradan xalqdır. Necə ki, Rusiyada, Ukraynada əksər hallarda bunun şahidi oluruq. Bu mənada potensial çox böyükdür, həmin potensialı işə salmaq gərəkdir”.

**Ekspert deyir ki, söhbət Azərbaycanın ehtiyatlarının nə qədər olmasından getmir:** “Gürcüstanın heç Azərbaycandakına yaxın ehtiyatları da yoxdur. Lakin yeni bazar prinsiplərinin işə salınması ilə Gürcüstanda kifayət qədər ciddi irəliləyiş baş verdi. Bütün dünyada belədir, əgər o prinsiplər işə salınırsa, inkişaf da olur. Yox, əgər bunun əvəzində nə qədər neft pulu xərclənirsə, mənası yoxdur. Bu gün bizim iqtisadiyyatımız daha çox quyuya su tökməyə bənzəyir. Dövlət bazarı saxlamaq üçün müəyyən qədər vəsaiti dövriyyəyə buraxır. Ancaq bazar özü tənzimləmir, çünki ortada bazarın özü yoxdur. Ona görə də bazar münasibətlərinin yaradılması, kiçik və orta sahibkarlığın real inkişafı, rəqabət mühitinin bərqərar edilməsi lazımdır”.

**M.Əliyev bu addımların atılmasının heç də gec olmadığını düşünür:** “Bu addımların atılması heç vaxt gec deyil. Onsuz da bu addımlar bir gün atılmalıdır. Biz qeyri-neft sektorunun inkişafından danışarkən elə bunları nəzərdə tuturduq. Əgər biz ABŞ, Yaponiya iqtisadiyyatını götürsək, onların iqtisadiyyatının böyük hissəsini kiçik və orta sahibkarlar təşkil edir. Ona görə də bu gün bu təbəqəni yaratmaq lazımdır, təbii ki, ölkədə sağlam rəqabəti bərqərar etməklə”.

**M.Əliyev ciddi tədbirlər görülməyəcəyi halda ölkədə xoşagəlməz halların yaşanmasını da mümkün saydı:** “Ayrı-ayrı partlayışlar da ola bilər. Bu, insanların sosial-iqtisadi durumunun necə olacağından asılıdır. Vətəndaşların vəziyyəti ciddi şəkildə pisləşməyə doğru getsə, əlbəttə ki, bu, mümkündür. Mən düşünmürəm ki, Mingəçevirdə baş verənlər təkcə o gəncin ölümü ilə bağlı idi. Bu, üzdə olan məsələdir, daha çox bəhanə rolunu oynadı. Əslində bunun arxasında çox böyük narazılıq var. Bilirik ki, Mingəçevir vaxtilə inkişaf edən dördüncü şəhər idi, ”energetiklər şəhəri" deyirdilər, fabrikləri var idi. Bu gün tamam başqa vəziyyətdir. O boyda şəhərdə camaatın dolanışıq problemi var, adamlar Rusiyada işləyir, Rusiyada vəziyyətin pisləşməsi də öz təsirini göstərib. Ona görə də bu hadisələr daha çox sosial vəziyyətlə əlaqədardır".

**Ekspert bildirdi ki, hazırda iqtidar prosesi izləyir:** “Bu, faktdır. Amma əgər Mingəçevirdə belə hadisələr baş verirsə, deməli, iqtidar prosesləri o qədər də yaxşı izləmir, burada problem var, yəni vəziyyəti qiymətləndirə bilmirlər. Müxalifətinsə bu işə qarışmağa ehtiyac yoxdur. Digər tərəfdən, müxalifətin elə bir potensialı da qalmayıb. Məsələn, Türkiyədə görürük ki, müxalifət var, bizdə bu, yoxdur. Digər tərəfdən, müxalifətin ortaya çıxması hakimiyyət üçün bir bəhanə yaradır, deyirlər bunlar qarışdırır, nəsə edirlər. Yəni burdakı proseslər müxalifətsiz də gedir”.

**M.Əliyev real vəziyyətdən çıxış yolu kimi konkret təklif verdi:** “Sadəcə, hakimiyyət maraqlı olmalıdır ki, ayrı-ayrı şəxsləri işçi qrupuna, yaxud hansısa başqa bir formata salsın, təklifləri bir yerə toplasın. Heç olmasa bu fikirlərin səslənməsi üçün özləri cürbəcür forumlar, konfranslar təşkil edə, mütəxəssisləri ora dəvət edə bilərlər. Yaxud vəziyyətlə bağlı təkliflərin təqdim olunmasını sifariş edə bilərlər. Məndə olan məlumata görə, iqtidarın özü bir islahatlar paketi hazırlayıb. Onun nədən ibarət olduğunu, nə zaman ortalığa çıxarılacağını heç kəs bilmir, ancaq ortada belə bir şey var. Güman ki, iqtidar müstəqil, yaxud müxalif ekspertlərin fikirlərindən də bəhrələnir”.

**Həmsöhbətimiz belə bir durumda parlament seçkiləri ilə bağlı riskləri görmədiyini vurğuladı:** “Bizdə böhran uzunmüddətlidir. Sadəcə olaraq, böhrandan çıxmaq üçün heç bir ciddi addım atılmasa, vəziyyət pisləşməyə doğru gedəcəksə, onda bu, genişmiqyaslı hansısa etirazlara gətirib çıxara bilər. Çünki orda kütləvi narazılıq olacaq, bu, qaçılmazdır”.


Mehman Əliyev

❑ E.PAŞASOY


Maykl Tatham

## İngiltərə səfiri müxalifət liderləri ilə görüşüb

**Avqustun 25-də Böyük Britaniyanın Bakıdakı səfirliyində Böyük Britaniya Xarici İşlər Nazirliyinin Şərqi Avropa və Mərkəzi Asiya Departamentinin rəhbəri Maykl Tathamla müxalifət nümayəndələri arasında görüş keçirilib.**

Görüşdə ölkəmizdə ictimai-siyasi vəziyyət, Qarabağ konfliktinin ədalətli həlli yolları, siyasi məhbuslar problemi, yaxınlaşan parlament seçkiləri və digər məsələlər barədə fikir mübadiləsi aparılıb.

Görüşdə Müsavat Partiyasının başqanı Arif Hacılı, AXCP sədri Əli Kərimli, “REAL” Vətəndaş Hərəkatının icra katibi Natiq Cəfərli və Böyük Britaniyanın Azərbaycandakı səfiri İrfan Siddiq iştirak ediblər.


Arif Məmmədov

## “İnterpol”un axtardığı sabiq səfir dönük dostlarını qınadı

### **Arif Məmmədov:** “Sabah öz övladlarınızın üzünə necə baxa biləcəksiniz?”

**Hazırda Brüsseldə yaşayan keçmiş səfir Arif Məmmədov dostlarının ondan üz çevirməsi haqda yazıb. O, facebook səhifəsində qeyd edib ki, Bakıda 15 nəfərin ölümü ilə nəticələnən bina yanğını ilə bağlı statusundan sonra on illərlə dostluq etdiyi adamlar ondan üz döndəriblər: 10, 20, 30 il mənim ən yaxın düşündüyüm, ən azı 50-100 dəfə duz-çörək kəsdiyim “dostlarım” məndən üzlərini döndərdilər».**

Keçmiş səfir həmin adamlara maraqlı ismarış da yollayıb: “İnsan nədənsə qorxa bilər, tərəddüd edə bilər, amma millətimizə, xalqımıza, onun gələcəyinə gəldikdə, belə qorxaq mövqe göstərmək ayıbdır. Bu, bütün ziyalılarımıza da aiddir. Restoranlarda tostlar demək, kabab yeyərək və araq içərək Qarabağda bayrağımızın ucaldılmasından da danışmaq olar, amma xalqımıza inanaraq, onun yanında olaraq olar. Əks halda, bu sözlər ən eybəcər, qorxaq düşmən sözlərinə çevrilir.

Sizlər sabah öz övladlarınızın üzünə necə baxa biləcəksiniz?"

Arif Məmmədov sonda elə bu hadisələrdən sonra tanımadığı və birbaşa ünsiyyətdə olmadığı dostlar qazandığını da yazıb.

Qeyd edək ki, Azərbaycanın Avropa Şurası yanında Daimi Nümayəndəliyinin keçmiş rəhbəri olan Arif Məmmədov axtarışa verilib. A.Məmmədovun adı mayın 19-da Azadlıq prospektində 15 nəfərin ölümü ilə nəticələnən yanğınla bağlı “facebook” səhifəsində yazdığı statusdan sonra gündəmə gəlib. Avqustun 12-də Baş Prokurorluq A.Məmmədov barədə Baş prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsi tərəfindən aparılmış araşdırmaların nəticələri barədə məlumat yayıb. Məlumatda bildirilir ki, Hesablama Palatasının təqdim etdiyi faktlar təsdiqlənib və toplanmış materiallar üzrə Cinayət Məcəlləsinin 179.3.2 (mənimsəmə və ya israf etmə külli miqdarda törədildikdə) və 308.2-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə ağır nəticələrə səbəb olduqda) maddələri ilə cinayət işi başlanıb. A.Məmmədov barəsində məhkəmənin qərarı ilə həbs-qətimkan tədbiri seçilərək beynəlxalq axtarışa verilib. Hazırda onun tutulub istintaqa cəlb edilməsi üçün “İnterpol”un Azərbaycan Milli Mərkəzi Bürosu tərəfindən zəruri istintaq və əməliyyat-axtarış tədbirləri həyata keçirilir.



# Neftçilərin corabı

Zamin HACI
zaminhaci@gmail.com

"Sus, dostum Sanço, - Don Kixot dedi. - Qeyd etməliyəm ki, hərbi durum qədər tez dəyişən şey yoxdur. Üstəlik, mən hesab edirəm və buna əsasım da var, mənim kitablarımı mülkümlə birgə oğurlayan həmin müdrik Freston divləri külək dəyirmanlarına çevirmişdir, çünki məni qələbələrimdən məhrum eləmək istəyir, - mənə bu qədər nifrət edir. Ancaq gec ya tez, onun qəddar tilsimləri mənim qılıncımın gücü önündə dayana bilməyəcəkdir"

***(Migel de Servantes, "Don Kixot")***

**Mingəçevirdə polis idarəsində saxlanan adamın ölümünə görə işdən çıxarılan və həbs edilən polis zabiti hazırda başqa bir cinayət işində "üzdəran" rolunda gedir. Müxalifətçinin cibinə narkotik atıb tutublar. Həmin müxalifətçi isə Qarabağı düşmənlərdən müdafiə edərkən yaralanıb əlil olubdur. Bax, ölkəmizdə belə vətəndaş münasibətləri vardır. Necə deyərlər, fəxr edirəm ki, azərbaycanlıyam.**

Polisdə ölən şəxsi isə elə həmin polislər aparıb meyitxanaya qoymuşdular, camaat etiraz aksiyası keçirəndən sonra dəfninə icazə verdilər. Maraqlıdır ki, indi polis idarəsi həmin ölünün üzərindən narkotik çıxdığını bəyan edir. Əcəb işdir. Bizdə ölülər də narkotikdən yararlanırmış. Gör necə parlaq dövlətdir. O biri dünyada da narkotik olmasa rahatlıq tapmırsan.

Mingəçevir polis idarəsinin rəisi Ələsgər müəllim isə özünə gəlibdir. İlk günlərdə "nazirə qara başım qurban, səhv eləmişəm, töhmətlə yaxşı canımı qurtardım" deyən rəis indi görün nə deyir: "Etiraz aksiyasına çıxanların hamısı mərhumun narkoman yoldaşlarıdır". Görün özündən necə arxayındır, yüzlərlə insanı birdən-birə narkoman elan edir. Prinsipcə, bütün Mingəçevir əhalisini narkoman, bandit, ekstremist, təxribatçı, çevrilişçi elan eləmək mümkündür. Kim kimədir? Üstəlik, şəhərin adında da çevriliş ifadəsi vardır.

Ələsgər müəllim orda sabitliyi nəşələndirmək üzrə olsun, sizə kimdən deyim, kimdən danışım, Rövnəq müəllimdən. ARDNŞ şefindən. Prinsipcə, sürətlə inkişaf eləyən ölkəmiz üçün bu xəbər artıq köhnədir, yayılmasından bir həftə keçir, ancaq dəyərli xalqımız ola bilsin bunu hələ öyrənməmişdir. Yazaq, bilin: artıq ARDNŞ binasındakı işçilər üçün geyim standartları müəyyən edilibdir. Sitat: "Geyim standartında kişilər tünd rənglərdə (qara, boz, göy və s.) kostyum, solğun və tək tonlu köynək, rəngi geyimə uyğun olan neytral rəngli ayaqqabı, tək tonlu corab geyinə bilər. Kişilərin nişan üzüyü, sadə qol saatı taxmasına icazə verilir.

Qadınlar da əsasən, tünd rəngli kostyum və ya klassik biçimli şalvar və pencək, ətəyə uyğun gələn solğun və tək tonlu köynəklər geyinə bilərlər. Rəngbərəng, naxışlı corabların geyinilməsinə, işə corabsız gəlməyə icazə verilmir.

SOCAR-ın Hüquq İdarəsinin rəis müavini Şahin İsmayılbəyov deyir ki, avqustun 1-dən bu qaydaların tətbiqi rəsmiləşdirilib" (azadlıq.org).

Bundan başqa, qadın neftçilərimiz dar və qısa donlar geyinə bilməzmiş.

Ey gidi dünya... Hamısı neft zəhrimara qalmışın qiymətinin düşməyinə görədir. Neftin bareli 110 dollar ətrafında rəqs edəndə Rövnəq müəllim də Elton Conu qucaqlayıb Bəhramov stadionunda rok-n-roll oynayırdı. O vaxtlar heç kimin vecinə deyildi neft çıxardanlar işə hansı geyimdə gəlirlər, ümumiyyətlə, gəlirlərmi. Çünki neftin quyusunu bp-zad qazıb boruya perçim eləmişdi, neft bala-bala axıb gedirdi Ceyhan limanına, idarənin işçiləri də Qazaxda diaqnostika mərkəzi, Lənkəranda Hadı Rəcəbov adına müəllimləri İşədüzəltmə Bürosu-filan qayırmaqla günlərini keçirirdilər. Hətta bəzi işçilər idarəyə şortikdə gəlirmiş! Yalançı çıxmayım, lümbələmlüt neftçilərimizi də görənlər olmuşdur.

O çağlar neftçi kişilərin işə nişan üzüyü və saat taxmasında maraqlı deyildik. İndi isə dünyanın işini nə biləsən, əgər barel 40 dollardan aşağı dığırlansa, Rövnəq müəllim Çevik Polis Alayını cəlb edib idarənin girişində işçilərin üzük və saatlarını açdıracaqdır. Bəs necə, Ümumxalq Müdafiə Fonduna gərək hər kəs yardım eləsin! Təklif edirəm Aqil Abbas müəllim də ləl-cəvahirat yığımı prosesini təzədən təşkil eləsin. Ancaq bu, ayrı mövzudur. Müdafiə qüdrətimizlə bağlı məsələləri biz gərək bağlı qapılar arxasında müzakirə edək.

İndi söz əlaqədar neftçilərindir. Rəngli geyinməyin.



# Qərb Putin hakimiyyətini laxladır - Bakı üçün də yeni gəlişmə

## Rubl kliniki ölüm vəziyyətində ikən rus döyüş gəmiləri Xəzərdə on günlük fasilədən sonra yenidən təlimlərə başlayıb; NATO baş katibinin Gürcüstana səfərinə cəmi bir gün qalmış Kreml həm qorxudur, həm də qorxur...

**Qərbin, özəlliklə də ABŞ-ın Rusiyaya qarşı genişləndirdiyi, rublun sürətlə dəyərsizləşməsi ilə müşayiət olunan iqtisadi-maliyyə savaşı, şübhəsiz, ilk növbədə Putin hakimiyyətini laxlatmağa yönəlib. Belə görünür, qlobal demokratiya və maliyyə paytaxtları Putinin "fatihəsi"ni veriblər, sadəcə, zaman məsələsi var.**

Bəs niyə Rusiyanın hazırkı prezidenti Qərb üçün, ABŞ, Avropa, NATO üçün bunca arzuolunmaz oldu? Ona görə ki, Qərb KQB məktəbinin sonuncu monstrı olan Putinin 2008-ci ildə Gürcüstana qarşı "5 günlük müharibə"dən tutmuş, Krımın Rusiyaya birləşdirilməsi avantürasınadək bəşəriyyət üçün, oturuşmuş beynəlxalq təhlükəsizlik sistemi üçün, 2-ci Dünya Savaşından sonra qurulmuş Avropa düzəni üçün, beynəlxalq hüququn özü uçun, nəhayət, Yaxın Şərqdə daimi sülhə nail olmaq üçün (Suriya məsələsi) nə dərəcədə ciddi təhlükə və əngəl olduğuna əminlik hasil etdi. Ona da əmin oldu ki, Qərbə əlcək atan Putini bu təhlükəli yoldan yalnız işğalçı Rusiyanın iqtisadi-maliyyə sistemini çökdürməklə uzaqlaşdırmaq olar. Çünki o zaman Kremlin qorxunc hərbi qüdrəti və hərblə təhdid eləmək potensialı, faktiki, qalmayacaq - baxmayaraq ki, o nüvə dövlətidir *(SSRİ də nüvə dövləti idi).*

Təsadüfi deyil ki, Rusiyaya qarşı maliyyə sanksiyaları, ardınca neftin ucuzlaşması və bütün bunların da məntiqi nəticəsi kimi rublun devalvasiyası məhz məlum Krım hadisələrindən sonra start götürüb. Ayrı sözlə, bu boyda qovğa, kaşa Rusiyaya, ipə-sapa yatmayan Putinə görədir və hədəfdə də müstəsna olaraq Kremlin özü, bir də onu bataqlıqdan çıxarmaq istəyən, ona kömək əli uzatmaq istəyən Çin kimi ölkələrdir.

***

Qərbin cəza tədbirləri isə getdikcə qarda iriləşən qar topası kimi daha sanballı miqyas almaqdadır. Artıq rubl az qala hər gün dəyərini bir az daha qeyb edir. Sözsüz ki, belə vəziyyət ölkədəki biznes-oliqarx dairələrini ciddi narahat edir. Həmin dairələrin on milyard dollarlarla ölçülən maliyyə itkilərinə məruz qalmış nüfuzlu təmsilçiləri anlayırlar ki, məhz Putinin avantürist siyasətinin altını çəkirlər, ona görə ziyana düşüblər.

Qərb mətbuatının yazdığına görə, hökumət daxilində bu xüsusda Putindən gizli narazılıq böyüməkdədir. Təbii ki, bahalıq və kasıbçılıq başının üstünü kəsdirən cəmiyyətdə, getdikcə daha zəif qidalanmağa, arağın və siqaretin ən ucuzuna keçən, kəmərini bir az da sıxan sıravi vətəndaşlarda narazılıq bundan da sürətlə böyüyür.

***

"Rusiyada əhalinin kortəbii çıxışları, hakimiyyətin yuxarı elitası arasında qarşıdurma və narazılıq fonunda ölkədə siyasi hakimiyyət böhranı qaçılmaz ola bilər". Bu sözləri axar.az-a açıqlamasında **politoloq Qabil Hüseynli** deyib. Sabiq dövlət müşavirinin sözlərinə görə, Qərb Rusiyaya qarşı yeni sanksiyalardan əl çəkən deyil.

**Sitat:** "Rusiya iqtisadiyyatı misli görünməmiş inflyasiya dövrünü yaşayır. Rusiya neftindən imtina və ölkənin beynəlxalq bank sistemindən uzaqlaşdırılması qaçılmaz ola bilər. Bu reallıq özünü doğruldarsa, ölkə iqtisadiyyatı iflas edəcək. Hazırda Moskvanın Pekinlə əlaqələrində müəyyən gərginlik yaranıb. Çünki Çinin vəziyyəti də pisləşməkdədir. Üstəlik, Pekin Moskvanı özünə etibarlı tərəfdaş hesab etmir. Bu səbəbdən də 400 milyard dollarlıq qaz layihəsi şübhə altındadır. Qərbdən ciddi təzyiqə məruz qaldığı bir şəraitdə üzünü Çinə çevirən Moskvanın Pekindən ümidini üzdüyü hiss olunur. Çırpınan Rusiyanın Oxot dənizində neft yataqlarının axtarışı ilə bağlı yeni layihəsi qeyri-real görünür. Çünki layihəyə ilk növbədə Çin və Cənubi Koreya razılıq verməlidir. İkincisi isə layihə üçün lazımi vəsait Rusiyada yoxdur".

**Politoloq Rusiyada artan hakimiyyətdaxili çəkişmələr fonunda siyasi böhranın qaçılmaz ola biləcəyini istisna etmir:** "Belə layihələr hər zaman Putin tərəfindən irəli sürülürdü. Ancaq indi onu baş nazir Medvedyevin dilə gətirməsi hakimiyyətin qanadları arasında müəyyən parçalanmanın olmasının xəbərçisidir. Ölkə oliqarxlarının Putinin yeritdiyi siyasətə qarşı narazılığı durmadan artır. Rusiyanın problemləri getdikcə dərinləşir və bu, müxtəlif formalarda təzahür edə bilər. Əhalinin kortəbii çıxışları, hakimiyyətin yuxarı elitası arasında qarşıdurma və narazılıq fonunda siyasi hakimiyyət böhranı qaçılmaz ola bilər".

***

**Maraqlıdır ki, hətta belə böhranlı vəziyyətdə də Rusiya sanki tövrünü pozmadan Qərbə, region ölkələrinə əzələ nümayiş etdirməkdə davam edir. Belə ki, Xəzər dənizində Qazaxıstan və Azərbaycanla birgə hərbi təlim adı ilə manevrlər təzəcə başa çatsa da, 10 günlük fasilədən sonra dünən Rusiya Xəzər Donanmasının döyüş gəmiləri dənizdə yeni təlimlərə başlayıb. Bu barədə Rusiya Cənub Hərbi Dairəsindən məlumat verilib.**

"20 döyüş gəmisi və katerlərdən ibarət donanma Xəzər dənizi zonasında su nəqliyyatı və iqtisadi obyektlərin qorunması istiqamətində təlim-döyüş tapşırıqlarını yerinə yetirir. Yekun mərhələdə gəmilər hava hücumundan müdafiə əməliyyatlarını yerinə yetirəcək və şərti düşmənin hava hədəflərini məhv edəcək" - məlumatda deyilir.

Aydındır ki, bu da növbəti güc nümayişidir və ən əvvəl region ölkələrinə, o sırada Azərbaycana və Gürcüstana qarşı yönəlib, onları ABŞ-la əlaqələrdən çəkindirməyə hesablanıb. Söz düşmüşkən, bu gün NATO baş katibi Yens Stoltonberq Gürcüstan müstəqillik qazanandan sonra ilk dəfə bu ölkəyə iki günlük rəsmi səfərə gəlir *(26-27 avqust).* Xəbər verdiyimiz kimi, səfər çərçivəsində alyansın Gürcüstanda hərbi-təlim mərkəzinin açılışı olacaq, qonşu ölkənin NATO-ya üzvlüyünün perspektivi bir daha diqqət mərkəzinə gətiriləcək.

Şəksiz ki, proseslərin belə inkişafı, ələlxüsus da NATO-nun, ABŞ-ın Gürcüstanda möhkəmlənmək planlarının reallaşmağa üz tutması rəsmi Moskvanı bərk narahat edir, ona görə ki, sonuncunun Gürcüstana hər hansı müdaxilə ssenarisini sıfırlayır. Həmsərhəd Gürcüstana nəzarətin itməsi isə labüd olaraq, qonşu Azərbaycanın və Ermənistanın da şimal qonşumuz üçün itirilməsi ilə nəticələnə bilər. Demək, konkret olaraq Azərbaycanda yeni Rusiya hərbi bazaları *(Qəbələ RLS)* qurmaq planları da öz aktuallığını itirir.

Bu və başqa səbəblərə görə, Kreml son vaxtlar həm qorxur, həm də qorxudur. Amma deyəsən, indi daha çox qorxur, nəinki hədələyir. Kremlin zəifləməsi isə Bakının Qərblə Rusiya arasında manevr imkanlarını əhəmiyyətli dərəcədə sadələşdirərdi. O mənada ki, Azərbaycan zorən zəifin yanında yer almaq, "cəhənnəmə gedənə yoldaş olmaq" əzabından qurtula bilər.

❑ **Siyasət şöbəsi**

# Razi Nurullayevdən heç yerdə demədiyi şok açıqlama

## "O, doyunca araq içir və səndələyə-səndələyə namaz qılmağa gedir"

**AXCP rəhbərliyi bu partiyanı Əli Kərimlidən alacağını bəyan edən və bunun üçün təşkilat komitəsi yaradan Razi Nurulayevə qarşı "Azadlıq" qəzetində və sosial şəbəkədə ittihamlarına hər gün yeniləri əlavə edir. Avqustun 25-də "Azadlıq"da Elçin Həsənov adlı cəbhəçi gəncin adından daha bir ittiham irəli sürülüb. Maraqlıdır ki, az qala ayın tutulmasını, yağış yağmasını belə "Yeni Müsavat" qəzetinin, qəzetin baş redaktoru Rauf Arifoğlunun adı ilə bağlamaq qədər absurda yuvarlanan cəbhə rəhbərliyi Razi Nurullayev məsələsində də şakərindən əl çəkmir.**



Razi Nurullayev

Elçin Həsənovun adından "Azadlıq"da iddia olunub ki, guya Razi Nurullayev AXCP-dən hər istefaya görə Rauf Arifoğluna pul ödəyir. Özü də guya ki, bu barədə Razi Nurullayev Elçin Həsənova şəxsən özü bildirib.

**Qeyd edilənlərlə bağlı Razi Nurullayevlə əlaqə saxladıq. Razi Nurullayev Əli Kərimlinin diktəsi ilə yazılan yazını sərsəmləmə adlandırdı və çox sərt cavab verdi:** "İnsanın içi göynəyəndə, siyasi biznesi əlindən çıxanda, oynadığı oyunlar alt-üst olanda sərsəmləməyə başlayır. Adına belə dilimi bulaşdırmaq istəmədiyim o şəxsə, ən yaxşısı gedib aptekdən dərman alıb atsın. Sərsəmləməyin sonu şizofreniyadır. İstəmirəm ki, o, ağlını itirsin. Hər halda, Allah yaradıb onu da. Allah da ölçüsünü götürsün. Digər tərəfdən, düşünürəm ki, araq içib, dalınca da namaz qılan bir şəxsi Allah da bağışlamaz. Qoy insanlar bilsin ki, o yalnız siyasi riyakar deyil. Həm də din adına oyunbazdır. Guya namaz qılır. Amma o, doyunca araq içir və səndələyə-səndələyə namaz qılmağa gedir. Qoy buna dinçilər qiymət versinlər. Bunu isə AXCP-də bilməyən yoxdur. Çox gözlədim ki, bunu deməyim. Amma daha dedim. Dinimizə görə o kafirdir. İçkili-içkili namaz qılmaq çox böyük günahdır. Bunu bilən cəbhəçilərə səslənirəm. Siz bilə-bilə yenə Əli Kərimlinin diktəsi ilə bunu danmağa çalışsanız, o zaman Allahdan qorxun. Orada bir nəfər də belə adam var. Onun da adını qoy digərləri açıqlasın. Bizim dostlardan birinə deyərəm, qoy onun da adını o açıqlasın".

**R.Nurullayev təəssüflə bildirdi ki söz azadlığına xidmət edəcək və xalqın səsinə çevriləcək bir qəzet, ümumilikdə isə xalqa azadlıqdan və ədalətdən danışan "Azadlıq" qəzeti hazırda bir nəfərin əlində girova çevrilib:** "Həmin bir nəfər isə Əli Kərimlidir. Bu gün "Azadlıq" qəzeti yalnız Əli Kərimliyə xidmət edir. Bu qəzetdə heç bir yazı və ya məqalə Əli Kərimlinin icazəsi olmadan gedə bilməz. Çox təəssüf ki, Əli Kərimli "Azadlıq" qəzetini özünün girovuna çevirib. Əgər bu gün Əli Kərimli Azərbaycanda söz azadlığı və demokratiyadan, müxalifətin televiziyalara buraxılmamasından danışırsa, eyni zamanda müxalifət adına iddia edilən "Azadlıq" qəzetinə də yaxın düşə bilmirik. Çünki "Azadlıq" qəzetinə düşmək üçün Əli Kərimlini tərifləmək lazımdır. Bütün bu faktlar isə ən böyük demokratiya pozuntusudur. Mən buna çox təəssüf edirəm.

"Azadlıq" qəzetində çalışan hər bir kəs özünə sual verməlidir: Mən Azərbaycan xalqına xidmət edirəm, yoxsa Əli Kərimliyə? Əli Kərimliyə bu gün xidmət etməyin heç bir əsası yoxdur".

**R.Nurullayev AXCP-nin möhürünün alınmasında israr etdiklərini də bildirdi:** "Ədliyyə Nazirliyinə müraciət edib möhürü alacağıq. Bunun üçün müharibə aparmaq lazım gəlsə, müharibə aparacağıq, döyüşmək lazım gəlsə, döyüşəcəyik, hüquqi müstəvidə nə lazımdırsa, onu da edəcəyik. Biz mütləq AXCP-ni Əli Kərimlidən azad edəcəyik. Çünki Əli Kərimli hüquqi və mənəvi cəhətdən AXCP sədri olmağa layiq deyil. Əli Kərimli AXCP-də parçalanmanın əsasını qoyub və bu gün də davam etdirir. Hesab edirəm ki, onun partiya sədri kimi fəaliyyətinə son qoyulacaq. Əli Kərimli vaxtilə "Yurd" təşkilatı yaradıb. Yaxşı olar ki, gedib öz təşkilatını yenidən fəaliyyətə başlatsın".

**Publika.az saytının "Hazırda AXCP-dən sizə yağdırılan ittihamlar paralel olaraq "Yeni Müsavat" qəzetinin baş redaktoru Rauf Arifoğluna qarşı da aparılır. Bu ittihamlara münasibətiniz necədir" sualına isə Razi Nurullayev belə cavab verib:** "Ümumiyyətlə, Azərbaycan siyasətində və mediasında Rauf Arifoğlunun özünə görə böyük rolu var. Mən AXCP-də sədr müavini olan zaman da Rauf Arifoğlu ilə münasibətlərimizi hər zaman qoruyub saxlamışam. AXCP-də Rauf Arifoğluna qarşı mübarizə aparılanda, o aşağılananda, ona qarşı şər-böhtan yağdırılanda da mən bütün bunlara qarşı olmuşam. Bunu Rauf Arifoğlu da, Əli Kərimli də bilirlər.

Bilirsiniz, mənə elə gəlir ki, Rauf Arifoğlunun "Yeni Müsavat" adlı tirajlı qəzet buraxması və müxalifət düşərgəsində artan reytinqi Əli Kərimlini narahat edir, o, bunu qəbul etmək istəmir, bundan qıcıqlanır. Azərbaycanda 10 milyona yaxın əhali yaşayır. Əgər bu gün 10 milyon arasında sorğu keçirilsəydi, mən tam əminliklə deyə bilərəm ki, sorğunun nəticəsi olaraq Rauf Arifoğlunun reytinqi Əli Kərimlidən qat-qat üstün olardı".

❑ **Etibar SEYİDAĞA**

# "İnsanları seçki prosesinə kökləmək lazımdır"

## "AĞ blok"un seçki hazırlıqları davam edir; digər qurumlarla danışıqlar davam edir




**Bu ilin noyabrında keçiriləcək parlament seçkiləri ilə bağlı yaradılmış "AĞ blok"un 23 avqustdakı təqdimatı ilə bağlı xəbər vermişdik. Tədbirdən sonra blokun təqdimatı sosial şəbəkələrdə və mətbuatda maraqla qarşılanıb. Əsasən gənclərdən təşkil olunmuş "AĞ blok"un seçkilər və ondan sonrakı fəaliyyəti hər kəs də maraq doğurur.**

"AĞ blok"un təsisçilərindən olan **Tural Abbaslı** "Yeni Müsavat"a açıqlamasında digər partiyalarla daim əməkdaşlığın tərəfdarı olduqlarını bildirdi: "Real müxalifətlə, müxalif fikirli insanlarla hər zaman birgə fəaliyyətin tərəfdarıyıq. Bu istiqamətdə hazırda məsləhətləşmələr gedir. Görüşlərimiz də olur. Zamanında blokun hədəflərinə uyğun təkliflər gələcəksə, niyə də bir yerdə olmayaq? Əgər 10 dairədən namizədimiz varsa, 115 dairə üzrə namizəd dəstəkləmiriksə, nə mənası var? Yaxud bizim dairələrdə digər partiyalar namizəd irəli sürmürlərsə, bizi dəstəkləyirlərsə, nə ziyanı var? Niyə imtina etməliyik? Xalq və dövlətin mənafeyinə uyğun olan istənilən danışıqlarda varıq. İnsanları müxalifətdə saxlamaq fikrimiz yoxdur. Yetərincə müxalifətdə qalıblar. Lazım gələrsə, ümumi maraqlar naminə şəxsi ambisiyalarda güzəşt etmək lazımdır. Biz bu əhval-ruhiyyədəyik. "Bizim kimi düşünməyən düşməndir" anlayışında deyilik. Kimin bizə necə münasibət göstərməyinin anlamı yoxdur. Kimisə düşmən, kimisə dost elan etməyəcəyik. Belə məsələlərdə kimliyindən asılı olmayaraq, seçim qarşı tərəfdə olacaq".

**T.Abbaslı blokda təmsil olunan partiyalardan da danışdı:** "Hazırda üç partiyadan nümayəndələr var. Müsavat, Ümid və KXCP. Elə fəaliyyət göstəririk ki, hansısa partiyanın namizədi olan şəxs bizim də namizəd olsun. İnsanları seçim qarşısında qoymağın tərəfdarı deyilik. Gələcəkdə blokda təmsil olunan namizədlərin sayı arta da bilər. Hazırda təkliflər var. Seçkilərə az müddət qaldı. "AĞ blok"da artım, yaxud azalma olacaqsa, ictimaiyyətə çatdıracağıq. Burada daha çox rəqəmlərə önəm verməyin tərəfdarı deyiləm. Əsas proses önəmlidir. İnsanları seçki prosesinə kökləmək lazımdır. Xalqın seçkilərdən, ümumi proseslərdən uzaq olmaları, ilk növbədə, müxalifətin zərərinədir. Hakimiyyət resursları hesabına istənilən prosesi apara bilir. Xalq narazı kəsimin tərəfdarı olmalıdır. Biz də proseslərin canlandırılmasının tərəfdarıyıq. Biz bu gün təqdimat keçiririksə, sabah da başqa bir siyasi qurum tədbir keçirsin. Yəni canlanma olsun. İnsanlar proseslərə qoşulduqda, hər şeyə gedəcəklər. Əks təqdirdə, evdə oturacaqlar. Biz də bu hakimiyyətin idarəçiliyində yaşamalı olacağıq".

**"AĞ blok"un təmsilçisi rəsmi elan olmasa da, qurum olaraq təbliğata start verdiklərini bildirdi:** "Təqdimat olduğu gündən hazırlıqları sürətləndirmişik. Proses davam edir. Siyasətin əsasını təbliğat təşkil edir. Bu yoxdursa, demək, səmərəsi yoxdur. Özümüzü təqdim etməyi bacarmalıyıq. Mənə elə gəlir ki, işlərimiz bu istiqamətdə normal gedir".

❑ **Cavanşir ABBASLI**



Sərdar Cəlaloğlu

# ADP ayrıca seçki qərargahı yaratdı

## Ümid Partiyası ilə seçki bloku yaratmağın nədən mümkün olmadığı açıqlandı

**Avqustun 25-də ADP İdarə Heyətinin toplantısı keçirilib. Partiyadan verilən xəbərə görə, toplantıda ölkə və beynəlxalq aləmdə baş verən ictimai-siyasi proseslər müzakirə obyekti olub.**

Toplantıda qarşıdan gələn parlament seçkiləri müzakirə olunub. İdarə Heyəti ADP-nin seçkidə koalisiya şəklində iştirakla bağlı səylərinə baxmayaraq müxalifətin mümkün seçki blokunun alınmamasından təəssüf ifadə edib. ADP-nin seçkidə təkbaşına iştirakı ilə əlaqədar ilkin qərar qəbul edilib və ADP-nin mərkəzi seçki qərargahının yaradılması haqqında da qərar verilib. Qərarda partiya İdarə Heyətinin tam tərkibdə Mərkəzi Seçki Qərargahının tərkibinə daxil edilməsi və seçki dövründə partiya adından qərarların verilməsi səlahiyyətinin bu quruma verilməsi qeyd olunub. Seçki qərargahının ilk iclası 26 avqusta təyin edilib.

**ADP sədri Sərdar Cəlaloğlu Ümid Partiyası ilə birlikdə seçki bloku yaratmağın nədən baş tutmamasına isə belə aydınlıq gətirib:** "Ümid Partiyasının "125-lər" adlı seçki bloku ilə iki illik əməkdaşlığını, bu blokda seçkilərə qatılmağa üstünlük verdiyini və ADP-nin "125-lər" bloku ilə bu günə qədər heç bir əməkdaşlıq etmədiyini əsas götürərək Ümid Partiyası ilə Azərbaycan Demokrat Partiyası seçkilərdə ayrı-ayrılıqda, öz namizədləri ilə müstəqil iştirak etmək haqqında razılıq əldə ediblər. ADP parlament seçkilərinə Qarabağ blokunda qatılmağa qərar vermişdi. Ancaq Ümid Partiyası "125-lər" bloku ilə birlikdə namizədlərini müəyyən edərək mətbuata elan edib və "125-lər"lə birlikdə xeyli vaxtdır ki, seçkiyə yönəlik siyasət aparır. Məlum oldu ki, iki partiya birlikdə parlament seçkilərinə qatılacağı təqdirdə Ümid Partiyasının "125-lər"lə birgə elan etdiyi namizədlər siyahısına yenidən baxmaq şansı yoxdur. Yəni onlar mətbuata elan etdikləri namizədlər siyahısını möhkəm siyahı kimi qəbul edirlər. Biz də gördük ki, ADP-nin rəhbər şəxslərinin namizədliklərini irəli sürəcəkləri seçki dairələrinin hamısından onlar namizəd müəyyənləşdiriblər. Bizim namizədlər olan dairələrdə bunlar namizədləri müəyyənləşdiriblər, biz isə yerdə qalan dairələrdən namizəd verməliyik ki, heç o dairələrdə bizim namizədimiz yoxdur. Ona görə də fikirləşdik ki, bu şəkildə ADP və Ümid Partiyası parlament seçkilərində birgə iştirak edə bilməyəcək. Bu baxımdan aramızda danışdıq ki, birgə seçkiyə qatılmaq ADP üçün problem olur və bir halda ki, Ümid Partiyası ADP-nin barələrində heç bir məlumatı olmadığı "125-lər"lə 2 ilə yaxındır ki, bir seçki layihəsi üzərində işləyir, onlara mane olmayaq. ADP də seçkilərdə müstəqil iştirak etsin".

❑ **Etibar SEYİDAĞA**

YENİ MÜSAVAT
N 187 (6215) 26 avqust 2015




# Dollar qıtlığını kimlər və niyə yaradıb?

## Onlar əllərində olan nağd manatı bazara atıb külli miqdarda qazanc əldə etmək istəyiblər; prezident 21 fevral devalvasiyasında onlar haqda nə demişdi?

**Son günlər manatın yenidən devalvasiya olacağı barədə xəbərlər ölkə gündəminin əsas müzakirə mövzusuna çevrilib. Mərkəzi Bankın "həm nağd, həm də qeyri nağd valyuta üzrə bankların tələbatı tam təmin olunub və yeni ehtiyacların ödənilməsi üçün də kifayət qədər valyuta ehtiyatı mövcuddur" bəyanatı, manatın nisbi (0,09 qəpik) bahalaşması valyuta dəyişmə məntəqələrində avqustun 22-si və 23-də müşahidə edilən ajiotajı qismən sakitləşdirsə də, gərginlik tam aradan qalxmayıb.**

Mərkəzi Bankın avqustun 25-nə müəyyənləşdirdiyi məzənnəyə əsasən, 1 dollar 1.0466 manat, avro isə 1,2078 manat təşkil edib. Qeyd edək ki, avqustun 24-də 1 dollar 1.0470 manat, avro isə 1,1994 manat olub.

Amma bununla belə, son günlər baş verənlər göstərdi ki, Bakıda manatı qiymətdən salmaq istəyən müəyyən qüvvələr var və onlar əllərində olan nağd manat vəsaitlərini bazara ataraq süni ajiotaj yaradırlar. Bu ajiotaj nəticəsində sadə vətəndaşlar manatın yenə devalvasiyaya uğrayacağını düşünərək evdə olan bütün manat vəsaitlərini dollara çevirməyə çalışırlar.

Qeyd edək ki, Azərbaycanda fevralın 21-də manat ucuzlaşdıqdan sonra prezident İlham Əliyev maraqlı bir açıqlama vermişdi. "Bu vəziyyətdən bəzi spekulyantlar, möhtəkirlər, natəmiz adamlar əsassız qazanc əldə etmək üçün istifadə etmişlər. Belə olan halda bizim valyuta ehtiyatlarımız, Mərkəzi Bankın valyuta ehtiyatları azalmağa başlamışdı. Sadəcə, bir rəqəmi sizə deyə bilərəm. Bir neçə gün ərzində günə azı 500 milyon dollar bazardan alınıb. Əgər belə getsə idi, ilin axırına qədər Mərkəzi Bankın valyuta ehtiyatları kəskin şəkildə azala bilərdi" deyə, prezident bildirmişdi.

**İqtisadçı-ekspert Əkrəm Həsənov ANS PRESS-ə müsahibəsində həmin işbazların müxtəlif qüvvələr ola biləcəyini vurğulayır:** "Birincisi, bunu Beynəlxalq Bankın kredit oliqarxları da edə bilər. Təsəvvür edin, heç bir iş görməyən adamların rentabelsiz layihələrinə 1-2 milyard manat vəsait veriblər. İllər keçib, heç bir iş görməyiblər. Onlar həmin pulu dollara keçirəndən sonra manatı çökdürməyə çalışmalıdırlar. Manat 33,5 faiz devalvasiya edəndən sonra 1 milyard manat kredit götürmüş adam birdən-birə 335 milyon manat irəli düşdü".

**İqtisadçı ekspertin fikrincə, manatın məzənnəsini aşağı salmaq istəyən ikinci qüvvə xüsusi himayə altında AMB-dən manatla vəsait götürüb müştərilərə dollarla kredit verən banklar olmalıdır:** "Belə banklar özləri saxta ajiotaj yaratmaqla əhalini çaxnaşmaya salır. Nəticədə adamlar evlərindəki bütün nağd vəsaitləri dollara çevirməyə çalışır və manata təzyiqlər dəfələrlə artır".

Əkrəm Həsənov Mərkəzi Bankın bu qüvvələrlə lazımi səviyyədə mübarizə aparmadığını bildirib. Onun fikrincə, AMB ölkədən xaricə valyuta axınının qarşısını almaq üçün lazımi səviyyədə mübarizə aparmır: "Mərkəzi Bank "Azərbaycan Respublikasında rezident və qeyri-rezidentlərin valyuta əməliyyatlarının rejimi haqqında qaydalar"ı sərtləşdirməlidir. Qaydaların 2.2.2-ci bəndində ölkədən valyuta köçürülmələrinə çoxsaylı məhdudiyyətlər nəzərdə tutulub. Lakin həmin bəndin "x" hissəsində deyilir ki, hər kəs xaricdəki bank hesabına məhdudiyyətsiz və istənilən məbləğdə pul köçürə bilər! Başqa sözlə, qaydalar valyuta axınına yaşıl işıq yandırır".

**İqtisadçı ekspert bu məsələdə sərt siyasi qərarın verilməsinin çox vacib olduğunu bildirir:** "1990-cı illərin sonlarında Azərbaycanın valyuta ehtiyatları milyard dollarla yox, milyon dollarla ölçülürdü. Amma onda heç kim valyutanın məzənnəsinə bu cür təsir göstərə bilmirdi, ili 5-6%-lik yumşaq devalvasiya ilə başa vururduq. İndi nə oldu ki, strateji valyuta ehtiyatlarımız 10 milyard dollarlarla ölçülən bir zamanda biz valyuta sabitliyini qoruya bilmirik? Mərkəzi Bank mütləq bu sualın üzərində düşünməlidir".

Manatın gözlənilən devalvasiyası haqqında yayılan şayiələr əsassızdır və bu, məsələ ətrafında ajiotaj yaratmaq məqsədi daşıyır.

**Bu barədə "Report"a iqtisadçı-ekspert, Azərbaycanın iqtisadiyyat nazirinin sabiq müavini Oqtay Haqverdiyev son günlər paytaxtdakı valyuta mübadiləsi məntəqələrində müşahidə olunan vəziyyəti şərh edərkən bildirib.**

"Əslində son günlər heç nə baş verməyib, bu, sadəcə ajiotajdır. Müxtəlif şayiələr buraxılır, bu da cəmiyyətdə və müəyyən əmanəti olan insanlar arasında qeyri-normal reaksiyaya səbəb olur", - deyə O.Haqverdiyev qeyd edib.

O, Azərbaycan Mərkəzi Bankının devalvasiyanın olmayacağına və məzənnənin eyni səviyyədə qalacağına dair bəyanatını xatırladıb. "Yaxın zamanlarda, ən azı ilin sonuna qədər dəyişiklik gözlənilmir", - deyə ekspert vurğulayıb və manatın qiymətinin sabitliyini məzənnənin tənzimlənməsi siyasəti ilə izah edib.

❑ Xəbər xidməti

# Azərbaycanda 20 bank bağlana bilər




## Ekspert: "Əhali öz əmanətlərini banklara yatırmazdan əvvəl bank seçiminə diqqət etməlidir"

**Azərbaycanda banklarla bağlı yaranan ajiotaj insanlar arasında çaşqınlığa səbəb olub. Kredit götürmək, əmanətlərini banklara yatırmaq istəyənlər çıxılmaz vəziyyətdə qalıb. Bir çoxları bankların çoxunun bağlanacağını, onların sayının ən azı 10-a qədər azalacağını iddia edir. İqtisadçı Natiq Cəfərli isə bunu real hesab etmir.**

O, modern.az saytına açıqlamasında Azərbaycanda fəaliyyət göstərən kommersiya banklarının əksəriyyətinin bağlanacağını istisna etməyib: "Bunu vəziyyət diktə edir. Bütün bankların həm geri dönüşlü, həm də xaricdən cəlb etdikləri valyutanın geri qaytarılması ilə bağlı problemləri var.

Görünən odur ki, risk menecmenti çox aşağı səviyyədə olub. Ona görə də geri dönüşü problemli olan kreditlərin həcmi getdikcə artmaqdadır.

Hazırda Azərbaycanda 42 bank bu və ya digər şəkildə fəaliyyətini davam etdirir. Bu bankların sayının birdən-birə 6-7-yə enməsi Azərbaycan iqtisadiyyatı üçün ciddi fəsadlar törədə bilər. Ən azı, ilin sonuna qədər 15-20 bankın bağlanma, yaxud kiçik bankların böyük banklar tərəfindən "udulması" ehtimalı yüksəkdir. Buradan çıxış edərək ilin sonuna qədər 20-25 bankın qala biləcəyini demək olar.

Nəzərə alaq ki, proses gələn il də davam edəcək. Lakin bu ilin sonuna qədər fundamental dəyişikliyin ola biləcəyi ehtimalı aşağıdır. Ən azından, iqtisadiyyat bunu qaldıra bilməz".

**Ekspert "Azərbaycanda bank sektorunun normal fəaliyyəti üçün neçə bank kifayətdir" sualına cavab olaraq deyib ki, normal bazar iqtisadiyyatı işləyən ölkələrdə bankların sayını bazar özü tənzimləyir:**

"Bankların az, yaxud çox olmasının ölkənin kiçikliyi, əhalinin sayı ilə birbaşa əlaqəsi yoxdur. Məsələn, Lüksemburq kimi kiçik ölkə dünyada bank ölkəsi kimi tanınır. Bu ölkədə onlarla bank fəaliyyət göstərir. Çünki ölkədə bank sektoru üçün çox aşağı vergilər müəyyənləşib. Bu isə dövlətin apardığı siyasətdən və rəqabətli mühitin formalaşmasından asılıdır. Beynəlxalq praktikanı götürsək, xarici banklar yerli banklarla rəqabətli mühit şəraitində fəaliyyətə başlayır. Beləcə, neçə bankın ayaqda qalmasını bazar özü müəyyən edir.

Təəssüf ki, Azərbaycanda xarici bankların çıxışına birbaşa icazə verilmir. Bu isə rəqabətsiz mühitə gətirib çıxarır. Ona görə də bank sektorunun normal fəaliyyəti üçün neçə bankın gərəkli olması barədə dəqiq say demək doğru deyil. Bunu bazar özü müəyyən etməlidir. O bazar isə bizdə yoxdur".

**Natiq Cəfərli öz əmanətlərini banklara yatırmaq istəyən vətəndaşları bir neçə məsələdə diqqətli olmağa çağırıb:** "İstənilən məqamda əhali öz əmanətlərini banklara yatırmazdan əvvəl bank seçiminə diqqət etməlidir. Müqavilə imzalamadan əvvəl şərtlər ciddi öyrənilməlidir. Sığorta haqqında ayrıca müqavilənin olmasına, depozitin sığorta haqqında qanunun şərtlərinə uyğun tərtib edilməsinə fikir verilməlidir. Vətəndaş depozitlərini mütləq sığortalamalıdır.

Ən əsası oynayan məzənnədə az zərərlə çıxmaq üçün öz depozitlərini xarici valyutada yerləşdirmələri məsləhət olunur. Düşünürəm ki, indiki şəraitdə ajiotaja ehtiyac yoxdur. Əhalinin öz depozitlərini geri çəkməsi üçün böyük hadisələr baş verməyib".

## Neft 38 dollara endi

**Dünya bazarında neftin qiyməti ucuzlaşmaqda davam edir. Dünən günün ikinci yarısında birjalarda Brent markalı neftin bir barelinin qiyməti 43 dollardan da aşağı düşüb. Belə ki, neftin hazırkı qiyməti 42,57 dollarda qərarlaşıb. Bu, 2009-cu ilin martından bu günə qədər olan ən aşağı qiymət kimi dəyərləndirilir.**

WTI markalı neft də öz antirekordunu təzələyib. Belə ki, bu markalı neftin bir barelinin qiyməti hazırda 38,33 dollarda qərarlaşıb.

Ucuzlaşmaya səbəb isə dünya bazarında neftin artması və neftə tələbatın azalmasıdır. Ekspertlər isə yay səyahətlərindən sonra vəziyyətin daha da qəlizləşəcəyini proqnoz edirlər. İranın neft bazarına girməyi isə vəziyyəti daha da ağırlaşdırır.

YENİ MÜSAVAT
N 187 (6715) 26 avqust 2015

# İqtidar seçkilərədək nə edəcək?



**Natiq Cəfərli:**
"İqtidarda ciddi narahatlıq var"



**Fəzail Ağamalı:**
"Ajiotaj yaratmağın mənası yoxdur"

**Bəzi ekspertlər bu il növbəti devalvasiyanın olacağını proqnozlaşdırırlar. Amma siyasətçilər tamam fərqli düşünürlər. Onlar hesab edirlər ki, ölkə iqtidarı noyabrda keçiriləcək parlament seçkilərinə qədər bu prosesin qarşısını alacaq.**

**İqtisadçı ekspert Natiq Cəfərli** də bu qənaətdədir. O hesab edir ki, Azərbaycan parlament seçkiləri ərəfəsində olduğuna görə bu cür iqtisadi kataklizmlərin artmasına imkan verməyəcək: "Doğrudur, seçkilərin yaxınlaşması hiss olunmur. Amma hər halda, parlament seçkiləri önəmli hadisədir. Siyasi proseslərin aktivləşməsi üçün müəyyən pəncərələr açır. Azərbaycan iqtidarı da siyasi proseslərin aktivləşməsində maraqlı deyil. Növbəti devalvasiya seçkilərə qədər baş versə, bu, siyasi aktivliyin yüksəlməsinə təkan verə bilər. Hakimiyyət çalışacaq ki, neftin qiymətinin aşağı düşməsinə baxmayaraq, noyabra qədər kəskin addımlar atmasın. Amma nə qədər bu addım geciksə, sonradan fəsadları ola bilər. İndiki şəraitdə neftin qiymətinin hətta 30 dollara qədər düşməsi ehtimalı var. Bunu nəzərə alaraq, hökumətin müəyyən addımlar atacağı gözlənilir. Çünki ən yaxın qonşu ölkələrimizdə devalvasiya sürətlə gedir. Devalvasiya gedən ölkələrin hər birində müxtəlif səbəblər var. Bir çoxunda neftlə bağlıdır. Rusiya və Qazaxıstanın neftdən asılılığı çoxdur. Bu ölkələrdə olan devalvasiya digərlərinə də təsir göstərir. Əgər devalvasiyanın baş verməməsi üçün hökumət seçkilərə qədər gözləsə, Mərkəzi Bankın rezervlərinin azalmasının şahidi olacağıq. Söhbət hazırda təkcə devalvasiyadan getmir. İqtisadi vəziyyət ağırlaşıb, iş yerləri bağlanır, insanın gəlirləri aşağı düşür. Bir çox sahələrdə, ümumiyyətlə, durğunluq müşahidə olunur. İqtisadiyyatın bir çox sahələrində ciddi problemlər yaşanır. İşsizliyin artması ehtimalı həddindən artıq yüksəkdir. Bəzi şirkətlər ixtisarlara gedib. Hökumət də məcburdur ki, müəyyən ixtisarlara getsin. Çünki bir il ərzində Neft Fondunun gəlirləri tamam yox ola bilər. Hökumət cəmiyyətlə bunları bölüşməsə də, açıq şəkildə görür".

**N.Cəfərli hökumətin də baş verənlərdən narahat olduğunu qeyd etdi:** "Düşünürəm ki, iqtidarda da ciddi narahatçılıq var. Devalvasiya ilə bağlı gərginlik artsa, sosial problemlərin daha da artmasına səbəb ola bilər. Bunları nəzərə alaraq, hakimiyyət seçkilərə qədər bu prosesləri yubatmağa çalışacaq. Devalvasiyadan başqa digər proseslər də ölkədə yaşanır. Elə proseslər də baş verər ki, seçkilərə qədər hökumət proseslərin qarşısını ala bilməsin. Seçkilərdən sonra proseslər daha da sürətlənəcək. Çünki iqtisadi problemlər elədir ki, vaxtında qarşısını almayanda, daha da artır. Nəticə idarəolunmaz hala gəlib çıxır. Hökumət problemləri görməzdən gəlir. Bu məsələdən də, ümumiyyətlə, danışmaq istəmirlər".

**İqtidaryönlü deputat Fəzail Ağamalı dünyada bu cür proseslərin getdiyini söylədi:** "Dünyada çox ciddi proseslər gedir. Dünya ekspertləri açıq şəkildə söyləyirlər ki, dünyanı maliyyə böhranı gözləyir. Baş verənlər dünyada maliyyə böhranının yaşanacağını istisna etmir. Azərbaycan da dünya içərisində olan bir ölkədir. Dünyada bu proseslər gedirsə, hətta ABŞ və Avropa belə, bu böhranla üz-üzədirsə, Azərbaycan bundan sığortalanmayıb. Sadəcə olaraq, bunun ətrafında ajiotaj yaratmağın mənası yoxdur. İndiyə qədər Azərbaycan manatı qorumaq üçün addımlar atır. Düşünürəm ki, ölkəmizin hələ ehtiyat resursları var. Bu resursların hesabına manatın dəyəri saxlanılacaq. Yeni devalvasiyaya imkan verilməyəcək. Buna ümid edirəm. Bu məsələnin şərhində çox istərdim ki, peşəkarların fikirləri əsas götürülsün. Milli Bankın rəhbəri Elman Rüstəmovun, maliyyə naziri Samir Şərifovun həqiqətləri özündə birləşdirən fikirlərinə üstünlük verilməlidir. KİV-lər də çox istərdim ki, bu cür peşəkarların fikirlərinə üstünlük versinlər. Çünki hər bir Azərbaycan ailəsi üçün önəmli bir məsələdir".

❑ **Cavanşir ABBASLI**



# Mingəçevirdə aksiyaçıların həbsi davam edir

## Hüquq-mühafizə orqanları aksiyanı əks etdirən videoyazılara baxaraq kadrlara düşənləri saxlayırlar

**Mingəçevir Şəhər Polis Şöbəsində (ŞPŞ) 27 yaşlı Bəhruz Hacıyevin ölümündən sonra şəhərdə başlayan etiraz aksiyasının iştirakçılarının həbsi davam edir. Avqustun 22-də aksiya günü 21 nəfər saxlanılıb. Polisin bildirdiyinə görə, onların yarısı inzibati qaydada cərimə olunduqdan sonra buraxılıb.**

Lakin yerli mənbələrin məlumatına görə, sonrakı günlərdə də həbslər davam edib. Hüquq-mühafizə orqanları aksiyanı əks etdirən videoyazılara baxaraq kadrlara düşənləri saxlayırlar.

Qeyri-rəsmi məlumatlara görə, hazırda 25-30 nəfər həbsdədir, onlara qarşı hansı maddələrlə ittihamın irəli sürüldüyü məlum deyil.

DİN və Baş Prokurorluq bununla bağlı məlumat vermir.

Eyni zamanda KİV-in məlumatına görə, mərhumun yaxınının yerli prokurorluğun müstəntiqini döyməsi faktı üzrə CM-in 315.2-ci maddəsi ilə cinayət işi açılıb. Bu, meyitxanada mərhumun cəsədinə baxış zamanı baş verib. Bundan əvvəl DİN etiraz aksiyası zamanı polislərin xəsarət aldığını bildirib. B.Hacıyevn ölüm faktı üzrə yalnız bir polis zabiti - baş leytenant Şahlar Şahlarzadə həbs edilib. Onun barəsində Cinayət Məcəlləsinin iki maddəsi üzrə - 125 (özünü öldürmə həddinə çatdırma) və 308.2-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə ağır nəticələrə səbəb olduqda) maddələri ilə təqsirləndirilən şəxs qismində 4 ay müddətinə həbs-qətimkan tədbiri seçilib.

Mərhumun doğmaları hesab edirlər ki, B.Hacıyevi saxlayan və dindirənlər də həbs olunmalıdır. Onlar B.Hacıyevin özünü pəncərədən atması versiyasına inanmırlar.

Mərhumun atası Dilsuz Hacıyev bildirib ki, oğluna elektroşokerlə işgəncə verilib və bundan onun ürəyi dayanıb. Pəncərədən atılmanı isə polis əməkdaşları özlərindən quraşdırıblar. Mərhumun cəsədində elektroşoker və digər zorakılıq formalarının əlamətləri olub.

Hüquq-mühafizə orqanları bildirirlər ki, B.Hacıyev narkotik maddə satışında və istifadəsində şübhəli kimi saxlanılıb. Mərhumun atası isə oğlunun narkotik maddələrə bağlılığını qəti şəkildə inkar edir ("Turan").

# Öldürülən məhkumun işindəki ilginc ifadə üzə çıxdı

## **Məhkum Yadigar Nuriyev:** "Mən içəri girəndə təpik, dubinka... daha nə ilə vurmurdular onu"

**"Onu vuranda mən içəri girdim. DPNK-nın otağına. "Rejim", "DPNK" Babayev Elşadı vururdular. Guya ki, rəisə cavab qaytarıb. Rejim rəisi Faiq, DPNK Vüqar, baş "starşina" Rahib, bir də Hafiz idi, rəisin "zam"ı. Ona deyirdilər ki, filankəslə niyə "spor"laşmısan?" - bu sözləri "Yeni Müsavat"ın əməkdaşına məhkum Yadigar Nuriyev deyib.**



Onun sözlərinə görə, ötən ilin dekabrında məhkum Elşad Babayevin döyülməsi onun gözlərinin qarşısında baş verib. E.Babayev dekabrın 22-də dünyasını dəyişəndən sonra isə onu Məhkumların Müalicə Müəssisəsinə köçürüblər və geri qaytarmayıblar. Y.Nuriyev Bakı Şəhər Prokurorluğunun müstəntiqi Cavid Abbasova verdiyi ifadəsində E.Babayevin döyülməsi haqda şahid kimi ifadə verib: "Müstəntiq Cavid Abbasov gəlmişdi. Məndən ifadə aldı. Dedi ki, onun vəziyyəti pis olanda, karsda olanda yanındakı 1-2 nəfəri dindirmişəm, onlar geri çəkildilər. Sual verdi ki, sən belə eləməyəcəksən? Dedim ki, yox, nə görmüşəm onu deyirəm".

**Y.Nuriyev müstəntiqə dediklərini bir daha təkrarlayıb:**

"Mən onu vuranda içəri girdim. DPNK-nın otağına. "Rejim", "DPNK" Babayev Elşadı vururdular. Guya ki, rəisə cavab qaytarıb. Rejim rəisi Faiq, DPNK Vüqar, baş starşina Rahib, bir də Hafiz idi, rəisin "zam"ı. Ona dedilər ki, filankəslə niyə "spor"laşmısan? O, dustaqla "spor"laşmışdı, elə belə. Rəis də ona demişdi ki, belə eləmə. O da rəisə cavab qaytarmışdı. Rəis də demişdi ki, vurun. Mən içəri girəndə təpik, dubinka... daha nə ilə vurmurdular onu. Əlləri qandalda idi".

**Y.Nuriyev deyib ki, Elşad Babayevin ölümü ilə bağlı 14 saylı cəzaçəkmə müəssisəsinin rəisi Əli İbrahimova da fikirlərini deyib:** "Rəis Əli İbrahimova da dedim ki, Elşadın ölümündə işçilərin günahkardır, onun vurub öldürüblər. Rəis də dedi ki, o xəstə idi, əcəl idi. Dedim ki, yox, o xəstə deyildi, özüm girib görmüşəm. Elşad döyüləndən sonra onunla birgə kamerada olmuşam. Gömgöy idi bədəni. Onu karsdan aparıb bir daha döydülər. O uşaq öləndə məni karsa bağlamışdılar. O da karsda keçinib. O, uşaq ölən gündən, dekabrın 22-dən məni atıblar bura, müalicə müəssisəsinə. Dializ xəstəsiyəm. Hər həftə mən dializə gedirəm".

Qeyd edək ki, ötən il dekabrın 22-də Penitensiar Xidmətin 14 saylı cəzaçəkmə müəssisəsində məhkum Elşad Babayev dünyasını dəyişib. Ölümündən sonra onun meyiti Qaradağ Rayon Məhkəmə Tibb Ekspertizasına aparılıb. Bacısı S.Babayeva orada qardaşının meyitinin fotolarını çəkib və ictimailəşdirib. İş üzrə araşdırma aparmalı olan istintaq orqanına də həmin fotoları təqdim edib. Amma gözlənildiyinin əksinə olaraq məhkumun ölümü ilə bağlı Qaradağ Rayon Prokurorluğunda Cinayət Məcəlləsinin 309.1-ci - vəzifə səlahiyyətlərini aşma maddəsi ilə cinayət işi başlanıb. Sonradan isə işi Qaradağ Prokurorluğundan alıb Bakı Şəhər Prokurorluğuna veriblər. İşin istintaqı müstəntiq Cavid Abbasova tapşırılıb. Bir neçə gün əvvəl isə müstəntiq C.Abbasov E.Babayevin yaxınlarına bildirib ki, cinayət tərkibi olmadığından işə xitam verilib. Maraqlıdır ki, müstəntiq xitam qərarını verərkən şahid kimi dindirdiyi məhkum Yadigar Nuriyevin ifadəsini nəzərə alıbmı? Ümumiyyətlə, həmin ifadəni rəsmiləşdirib işə əlavə edibmi?

Bu sualların cavabı açıqdır. Bundan başqa, iş üzrə digər şahidlər də olub. Simuzər Babayeva qəzetimizə açıqlamalarında bildirib ki, bu il yanvarın 29-da baş prokurorun 1-ci müavini Rüstəm Usubovun qəbulunda olub. Onu dinləyən baş prokurorun 1-ci müavini karsda olan və onun ölümünə şahid olan Zaur adlı məhkumun, vəkil Qurban Məmmədovun dindirilməsini də tapşırıb. Görəsən, müstəntiq işə xitam verməzdən əvvəl baş prokurorun 1-ci müavinin tapşırığını icra edib? Məhkumun bacısının təqdim etdiyi və iş materialları arasında olan fotolara baxıb?

Yada salaq ki, hüquqşünas, keçmiş siyasi məhbus Qurban Məmmədov Qaradağ rayonu, 14 saylı cəzaçəkmə müəssisəsində məhkum olaraq cəza çəkib. 2014-cü il dekabrın 30-da hüquqşünas əfv olunub və müsahibə verərək "Elşad Babayevin işgəncə verilərək öldürülməsi bir faktdır" söyləyib.

Belə bir vəziyyətdə iş üzrə xitam qərarının Azərbaycan qanunvericiliyinə uyğun qəbul olunması şübhə doğurur.

❑ **E.MƏMMƏDƏLİYEV**

YENİ MÜSAVAT
N 187 (6215) 26 avqust 2015

# AzadlıqRadiosu əməkdaşları istintaqa nələr deyib?

## Xədicə İsmayılın ittiham aktının detalları "Yeni Müsavat"da

**Ötən saylarımızda AzadlıqRadiosunun əməkdaşı Xədicə İsmayılın cinayət işi üzrə istintaq materiallarının bir hissəsini yayımlamışdıq. İlk iki yazı dərc olunandan sonra ictimai sektorda bunu diqqətlə oxuyanlarla yanaşı, narazılıq bildirənlər də oldu. Son olaraq X.İsmayıl məhkəmədən mesaj verərək, bizim yayımladıqlarımızın istintaq materialı olduğunu, gerçək ifadələri özündə əks etdirmədiyini açıqlayıb.**

Amma "Yeni Müsavat" olaraq bir daha bildiririk ki, biz cəmiyyətin diqqət mərkəzində olan cinayət işləri ilə bağlı eyni mövqeni nümayiş etdirmişik - bu işə aid olan bütün materialları dərc edirik. Bu, qəzetimizin baş yazarı Rauf Arifoğlu üçün də, eks deputat Gülər Əhmədova üçün də, Lotu Quli.... üçün də keçərli olub. Bilirik ki, X.İsmayıl və onun dostlarını bu materialların yayımı məmnun etmir. Amma biz də peşə kodeksi və jurnalist etikasını nəzərə alıb, həmin materialı özəl və intim həyata aid bütün detalları çıxararaq dərc etməkdə davam edəcəyik. Məhbus jurnalistin işinin "mətbəx mərhələsi" oxucular və geniş ictimaiyyət üçün maraq kəsb etdiyindən detalları nəzərinizə çatdıracağıq.

### Radioda qonorar sistemi...

Bugünkü yazımızda isə AzadlıqRadiosu işçilərinin ittiham aktında yer alan ifadələrinə yer verəcəyik.

**Radionun əməkdaşı, şahid Cavadova Esmira Turab qızı** ifadəsində göstərib ki, 2009-cu ildə mətbuat sferasında olan məlumatlardan AzadlıqRadiosunun Bakı bürosunun jurnalist axtardığını eşidib və radionun Bakı bürosuna gələrək işləmək arzusunu bildirib. Əmək şəraiti, ödəniləcək qonorarın məbləğini öyrənib. Həmin vaxt radionun Bakı bürosunu rəhbəri *(koordinatoru)* Xədicə İsmayılova olub. *(İttiham aktında və məqalənin rəsmi sənəd hissəsində jurnalist rəsmi sənədlərdə olduğu kimi, X.İsmayılova kimi təqdim ediləcək)* AzadlıqRadiosunda rəsmi ştatda olan əməkdaş deyil, radioda xidmət müqaviləsi əsasında işləyir. Xidmət müqaviləsini 2009-cu ildə Bakı bürosunun rəhbəri X.İsmayılova ilə bağlayıb, göstərəcəyi xidmətin növü, şərtlərini, iş rejimi və xidmət haqqının məbləğini də büro rəhbəri kimi onunla qarşılıqlı surətdə razılaşdırıb. Radionun neçə nəfər müxbirinin olduğunu dəqiqliklə bilmir. Xidmət müqaviləsinə əsasən radio üçün xəbər yazmalı, reportaj hazırlamalı idi. "RFE/RL.İnc" tərəfindən xidmət müqaviləsi ilə cəlb olunan jurnalistlərin göstərdikləri hər bir xidmətin haqqı dəqiqliklə müəyyən edilib. Məsələn, xətt xəbərin *(2-3 cümləlik, imzasız)* qonorarı 6 ABŞ dolları, Veb xəbərin (imzalı) qonorarı 16-24 ABŞ dolları, Veb məqalənin (reportaj) qonorarı 37 ABŞ dolları təşkil edir. Radioda işə qəbul olunduğu ilk dövrlərdə xidmət haqqının məbləği 500-700 manat civarında olub, sonradan bu məbləğ çoxalıb, son vaxtlar ayda 1400 manat məbləğində xidmət haqqı alıb.

### Babək Bəkir bildirib ki, Tural Mustafayev yorulduğu üçün işdən çıxmaq istədiyini ona yazıb

**Şahid Bəkirov Babək Mövsüm oğlu** (Babək Bəkir) ifadəsində göstərib ki, 1997-ci ilin sentyabr ayından radionun Bakı ofisində işləyir. 2007-ci ildə müxbir vəzifəsinə təyin olunub, 2007-ci ildə radionun Bakı ofisinin rəhbəri, hazırda Praqadakı baş ofisdə işləyən Natiq Zeynalov adlı şəxs olub, 2008-ci ildə Natiq Zeynalov Praqaya təyinat aldıqdan sonra X.İsmayılova hazırda xatırlamadığı başqa təşkilatdan AzadlıqRadiosunun Bakı ofisinə rəhbər təyin olunaraq 2010-cu ilin son aylarınadək həmin vəzifədə işləyib. X.İsmayılova Bakı ofisinin rəhbəri təyin olunandan sonra radio ilə əməkdaşlığı davam etdirərək 2010-cu ilin sonlarında ona radionun Bakı ofisinin rəhbəri vəzifəsi təklif edilib və o, təklifi qəbul edərək, radionun Bakı ofisinin rəhbər əvəzi kimi fəaliyyətə başlayıb. 2014-cü ilin təxminən mart ayında isə həmin vəzifəyə təsdiq olunub. Bakı ofisinin rəhbərini əvəz etdiyi müddətlərdə baş müxbir kimi ayda 1330 manat əmək haqqı alıb, Bakı ofisinin rəhbəri vəzifəsinə təsdiq olunduqdan sonra isə aylıq əmək haqqı 1600 manat olub. 2014-cü ilin may ayının sonunda məzuniyyətə çıxdıqdan sonra ərizə yazaraq həmin vəzifədən getmək istədiyini bildirib. 2014-cü ilin avqust ayında məzuniyyətdən qayıtdıqdan sonra radionun Bakı ofisinin rəhbəri vəzifəsindən azad olunmağı ilə bağlı əmr imzalayıb, həmin vaxtdan sonra yenə də baş müxbir kimi fəaliyyət göstərib və təcrübəli işçi olduğu üçün aylıq maaşı saxlanılıb. Hazırda da aylıq 1600 manat əmək haqqı alır və əvvəlki kimi yenə də radionun ştatda olan işçisidir. AzadlıqRadiosunun Bakı ofisinin rəhbəri-koordinator vəzifəsindən azad olmağı ilə bağlı ərizə yazmasının səbəbi ondan ibarət olub ki, həmin vəzifənin məsuliyyəti həddindən artıq çox və əmək haqqı ilə az fərqli olubdur. Hazırda AzadlıqRadiosunun Bakı ofisində təxminən 15-20 nəfər ştatda olan işçi işləyir, xidmət müqaviləsi ilə işləyən işçilər ştatda olan işçilər kimi radionun ofisinə gəlib, mütəmadi olaraq oradakı avadanlıqlardan istifadə edərək fəaliyyət göstərirlər, lakin ştat vahidində olan işçilərlə xidmət müqaviləsi ilə işləyən işçilərin maliyyə məsələlərində fərq var.

B.Bəkir bildirib ki, 1997-ci ildə AzadlıqRadiosunun Bakı ofisində işə başladığı vaxtdan indiyədək radionun bank hesabı Azərbaycan Beynəlxalq Bankında olub və işlədiyi bütün vaxtlarda aylıq əmək haqqını ABŞ-dan alıb, maaşı heç vaxt nağd şəkildə almayıb, pul vəsaitləri köçürmə yolu ilə hesabına köçürülüb, onun tərəfindən nağdlaşdırılaraq götürülüb. AzadlıqRadiosunun Bakı ofisinin rəhbəri kimi fəaliyyət göstərdiyi müddətdə radionun Bakı ofisinin istər ştat vahidində olan, istərsə də xidmət müqaviləsi ilə işləyən əməkdaşlarına akkreditasiya kartı alınması üçün tərəfindən Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinə müraciət olunub, lakin kartların etibarlılıq müddətinin keçib-keçməməsi barədə fikir söyləyə bilmir.

Konkret Tural Mustafayev məsələsinə gəlincə, B.Bəkir bildirib ki, onu təxminən 2013-cü ilin əvvəlindən tanıyır, o, radionun Şirvan bölgəsi üzrə müxbiri olmaq üçün radionun ofisinə gələrək müraciət edib. Müvafiq qabiliyyəti yoxlanıldıqdan sonra Praqadakı baş ofisə məlumat verməklə Tural Mustafayev işə qəbul olunub, əmək haqqı materiallardan asılı olaraq təxminən 500 ABŞ dolları təşkil edib. Onun bildirdiyinə görə, 2013-cü ilin oktyabr ayının 27-də Tural Mustafayev onun elektron poçt ünvanına məktub yazaraq işdən azad olunmasını xahiş edib, səbəb kimi artıq yorulduğunu, jurnalist fəaliyyətinə son qoymaq istəməsini göstərib. B.Bəkir bundan sonra T.Mustafayevin Meydan TV-də işlədiyini eşidib. 2014-cü ilin may ayında T.Mustafayev yenidən ona müraciət edərək radio ilə əməkdaşlığını bərpa etməyini xahiş edib, radionun Praqadakı baş ofisinə bildirdikdən sonra həqiqətən də Turalın işləmək istədiyi Göyçay bölgəsi üzrə müxbirə ehtiyac olmadığından müsbət cavab verilməyib.

İttiham aktında qeyd olunur ki, şahid qismində dindirilmiş "Azad Avropa/AzadlıqRadiosu" Bakı bürosunun veb- redaktoru işləmiş Rəsulov Ehtibar Əlövsət oğlu, büroda xidmət müqaviləsi ilə işləmiş Abdinova Mətanət Yaqub qızı, Əliyeva Fərəh Sabir qızı, Sultanov Çingiz Rüstəm oğlunun ifadələri ilə də təqsirləndirilən şəxs Xədicə İsmayılovanın Avropa/AzadlıqRadiosunun Bakı bürosunun rəhbəri olması, əmək kollektivinə, iş sahələrinə, ayrı-ayrı şəxslərin fəaliyyətinə rəhbərliyi həyata keçirərək kadrların seçilməsi, işin planlaşdırılması, tabeçiliyində olan şəxslərin əmək fəaliyyətinin təşkili, maliyyə vəsaitlərinin təyinatının müəyyənləşdirilməsi üzrə təşkilati-sərəncamverici funksiyaları yerinə yetirməsi bir daha təsdiq olunur.

### Texniki nəzarətçidən məvacib sistemi və vergi hesablanmasının detalları...

**Radionun əməkdaşı, şahid Abdullayev Fərid Şaiq oğlu** ifadəsində göstərib ki, 2013-cü ilin təxminən yanvar ayında, işsiz olduğu vaxtda uşaqlıqdan tanıdığı qonşusu Ağamalıyev Cavanşir Fərzalı oğlu işlədiyi AzadlıqRadiosunda texniki nəzarət üzrə işçi tələb olunduğunu bildirdikdən sonra həmin radionun Bakı şəhəri, C.Cabbarlı küçəsi 44 ünvanında "Kaspian Plaza" iş mərkəzinin 2-ci mərtəbəsində yerləşən ofisinə gedib, radionun Bakı bürosunun rəhbəri Babək Bəkirli ilə görüşüb. Sahəvi sual-cavab edildikdən sonra müsbət cavab verilib və ondan vergi orqanlarında qeydiyyatdan keçib-keçməməsi, VÖEN-nin olub-olmaması soruşulub. VÖEN-ə sahib olmadığını bildirdikdən sonra B.Bəkır, eləcə də büroda maliyyə meneceri işləyən Yəhya Mirzəyev VÖEN-siz işə qəbulun mümkün olmayacağını bildirərək onların təklifi və orada olan digər əməkdaşların köməyi ilə elektron qaydada qeydiyyatdan keçərək hazırda xatırlamadığı VÖEN-ə sahib olub, bundan bir neçə gün sonra dəqiq tarixini xatırlamasa da, 2013-cü ilin yanvar ayında o, radionun ofisinə dəvət edilərək onunla bir illik mülki müqavilə imzalanıb. Şahid deyib ki, həmin vaxt Babək Bəkir və Yəhya Mirzəyev tərəfindən AzadlıqRadiosunun Bakı bürosunda VÖEN-ə sahib olmağı və əmək müqaviləsi ilə deyil, mülki müqavilə əsasında işləməsi ilə əmək haqqından 14 faiz yox, 04 faiz vergi tutulacağı və bu fərqlə də ona veriləcək əmək haqqının artıq olacağı izah edilib. Həmin müqaviləni digər tərəfdən kimin imzaladığını hazırda xatırlamır. 2013-cü ilin yanvar ayından AzadlıqRadiosu Bakı bürosunda texniki nəzarətçi kimi fəaliyyətə başlayıb, aylıq 320 manat maaş alıb, həmin məbləği büronun yerləşdiyi binanın 1-ci mərtəbəsindəki "Azəriqaz-Bank"dan alırmış, aldığı pul vəsaitinə görə rübdə bir dəfə öz VÖEN vasitəsilə vergiləri ödəyib. Şahid bildirib ki, radionun ştatda olan işçisi kimi onun müqavilə əsasında işləyənlərdən elə bir fərqi yoxdur. Ofisdə olan kompüter və digər avadanlıqlardan hamı eyni qaydada istifadə edir, lakin müqavilə əsasında işləyən işçilərin tibbi sığortası yoxdur və həmin sığortaya görə ofis tərəfindən vergi və ya digər ödənişlər edilmir.

Şahid qismində dindirilmiş "Fərqli düşüncə" jurnalının təsisçisi və baş redaktoru Namazov Şahvələd Abutalıb oğlu *(Şahvələd Çobanoğlu)* ifadəsində göstərib ki, 2009-cu ilin dekabr ayında qeyd olunan jurnalı təsis edərək onun baş redaktoru kimi fəaliyyət göstərib. Jurnalın təsisçisi yalnız özü olub, müraciəti əsasında 17 dekabr 2009-cu ildə jurnal Azərbaycan Respublikası Ədliyyə Nazirliyində dövlət qeydiyyatına alınıb. Eyni zamanda fiziki şəxs kimi də qeydiyyatdan keçərək fərdi sahibkar qismində bankda özünə hesab açdırıb, ondan bir neçə il əvvəl isə vergi orqanlarında fiziki şəxs kimi qeydiyyatdan keçərək özünə VÖEN alıb. 2009-cu ilin sonu və ya 2010-cu ilin əvvəllərində X.İsmayılova AzadlıqRadiosunun Bakı bürosuna rəhbərlik etdiyi dövrdə fiziki şəxs kimi onunla AzadlıqRadiosu arasında radionun saytında yerləşdirilən materialların təsisçisi olduğu jurnalda nəşr olunması barədə müqavilə imzalanıb. Bu müqavilə üzrə "AzadlıqRadiosu" onun fiziki şəxs kimi açdığı "Bank of Baku" açıq səhmdar cəmiyyətində yerləşən bank hesabına ayda dörd dəfə nəşr olunan hər nömrə üçün əvvəllər 900 manat, sonradan isə 1300 manat, 2013-2014-cü illərdə isə ümumilikdə 54.100 manat pül köçürüb. Radio ilə əməkdaşlığı 2014-cü ilin may və ya iyun ayınadək davam edib. İttiham aktında həmçinin bildirilib ki, şahid Ş.Namazov ifadəsində AzadlıqRadiosunun internet saytında yerləşdirilən məlumatların jurnalda dərci ilə əlaqədar radio tərəfindən külli məbləğlərdə maliyyə vəsaitlərinin dövlət qeydiyyatından keçərək hüquqi şəxs statusunu daşıyan, təsisçisi və redaktoru olduğu jurnalın bank hesablarına deyil, 04 faizlik sadələşdirilmiş verginin ödəyicisi qismində fiziki şəxs kimi özünə məxsus bank hesabına köçürülməsinin, müqavilənin də jurnalla deyil, fiziki şəxs kimi özü ilə bağlanmasının səbəblərini izah edə bilməyib və onun ifadəsi ilə də təqsirləndirilən şəxs X.İsmayılovanın faktiki muzdlu işçi kimi əmək münasibətlərinə cəlb etdiyi şəxsləri zəruri otaq, avadanlıq və imtiyazla təchiz etməsinə rəğmən onlarla əmək müqaviləsi bağlamadan mülki müqavilələr əsasında fəaliyyətlərini təşkil edib bununla da onlara verilən maliyyə vəsaitlərindən dövlətə ödənilməli olan külli məbləğdə pulları dövlət büdcəsindən yayındırmaqla üçüncü şəxslərin xeyrinə israf etməsi xüsusatı bir daha təsdiq edilir.

**REDAKSİYADAN:** X.İsmayıl dostları vasitəsilə mediaya çatdırıb ki, “”Yeni Müsavat" qəzetinin dərc etdiyi ifadələr deyil, bu, prokurorluğun yazdığı ittiham aktıdır və orada onlara sərf edən yalanlar yazılıb, hətta ifadələr saxtalaşdırılıb, guya ifadələrdə belə söylənilir deyə ona saxta ittiham düzəldilib. Adamların ifadələrdə demədiyi sözlərə istinad olunub, yalan şərhlər və çıxarışlar edilib. Nəinki başqalarının, hətta onun öz ifadəsi orada yanlış və prokurorluğa lazım olan kimi qələmə verilir. Bu, saxta və uydurma bir sənəddir". Biz də paralel olaraq, təqsirləndirilən şəxsin bu mövqeyini, eləcə də məhkəmə reportajını yayımlayır və iş üzrə gedən bütün proseslərə işıq salırıq. Növbəti sayımızda ittiham aktı üzrə digər şahid ifadələrini də işıqlandıracağıq.

❑ YM

---

TƏSDİQ EDİRƏM

Azərbaycan Respublikası
Baş prokurorunun birinci müavini
II dərəcəli dövlət ədliyyə müşaviri
Rüstəm Usubov

09 iyul 2015-ci il.



İsmayılova Xədicə Rövşən qızının Azərbaycan Respublikası CM-nin 179.3.2., 192.2.2., 213.1., 308.2., 125.-ci maddələri ilə təqsirləndirilməsinə dair 152006031 №-li cinayət işi üzrə

İTTİHAM AKTI

Azərbaycan Respublikası Baş Prokurorluğunun Ağır cinayətlərə dair işlər üzrə istintaq idarəsinin rəisi, istintaq qrupunun rəhbəri, III dərəcəli dövlət ədliyyə müşaviri Eldar Əhmədov, İsmayılova Xədicə Rövşən qızının Azərbaycan Respublikası CM-nin 179.3.2., 192.2.2., 213.1., 308.2. və 125.-ci maddələri ilə təqsirləndirilməsinə dair 152006031 №-li cinayət işi üzrə kifayət qədər sübutların toplanmasını və ibtidai istintaqın tamamlanmasını nəzərə alaraq, Azərbaycan Respublikası CPM-nin 289-cu maddəsini rəhbər tutub, 09 iyul 2015-ci il tarixdə saat 09:30-da Bakı şəhərində ittiham aktını tərtib etməyə başladım.

Həmin cinayət işi Azərbaycan Respublikasının və xarici qeyri-hökumət təşkilatlarının, filial və nümayəndəliklərinin fəaliyyətlərində aşkar edilmiş qanun pozuntuları faktları üzrə ibtidai istintaqı aparılan 142006023 №-li cinayət işindən 20 iyun 2015-ci il tarixdə İsmayılova Xədicə Rövşən qızının barəsində Azərbaycan Respublikası CM-nin 179.3.2., 192.2.2., 213.1., 308.2., 125.-ci maddələri ilə ayrılaraq, icraatıma qəbul edilməklə rəhbərlik etdiyim istintaq qrupu tərəfindən ibtidai istintaqı davam etdirilmişdir.

c.1, i.v.1-9.

«Azad Avropa/Azadlıq Radiosu»nun Azərbaycan Respublikasındakı nümayəndəliyinin reportyoru vəzifəsində işləmiş Mustafayev Tural Bulut oğlunun 2 oktyabr 2014-cü il tarixdə Bakı şəhəri Dənizkənarı Milli Parkda intihara cəhd etməsi faktı üzrə Xədicə İsmayılovanın Azərbaycan Respublikası CM-nin 125-ci maddəsi ilə təqsirlənlirilməsinə dair Bakı şəhər prokurorluğunun İstintaq idarəsi tərəfindən ibtidai istintaqı aparılan 140026071 №-li cinayət işi də 19 fevral 2015-ci il tarixdə 142006023 №-li cinayət işinə birləşdirilməklə ibtidai istintaq vahid icraatda davam etdirilmişdir.

c.1 , i.v. 204-206

YENİ MÜSAVAT
N 187 (6215) 26 avqust 2015

# Neft bumunun sonu: Azərbaycan silkələnən dünyanın harasındadır?

## İlham Şaban: "Nə qədər öz iqtisadi modelimizin olduğunu isbat etməyə çalışsaq da, regionda və dünyada gedən proseslərdən kənarda qala bilmədik"



**Dünya bazarında neftin ucuzlaşmaqda davam etməsi 2008-ci ildən sonra növbəti qlobal iqtisadi böhrana səbəb olub. İqtisadiyyatının əsası neft və qaz ehtiyatları üzərində qurulan, qeyri-neft sektoru hələ kifayət qədər inkişaf etməyən Azərbaycan kimi ölkələr üçün belə bir vəziyyət heç də yaxşı perspektiv vəd etmir.**

Düzdür, bəzi ekspertlər Azərbaycanın Neft Fondundakı 35 milyarddan artıq, eyni zamanda Mərkəzi Bankdakı 8 milyardlıq ehtiyatlarını nəzərdə tutaraq vəziyyətin heç də kritik olmadığını bildirirlər. Xüsusilə də postsovet məkanındakı nefti və qazı olmayan respublikaların durumunu misal çəkən mütəxəssislər Azərbaycanın bu durumdan daha az itki ilə çıxacağını proqnozlaşdırırlar.

Bir sıra ekspertlər bədbin proqnozlarla çıxış edir və neft hasilatı ilə bərabər qiymətin düşməsi nəticəsində ölkədə əhaliyə ödənişlərdə problemin yarana biləcəyindən ehtiyatlanırlar. Lakin əksini düşünənlər də var.

**Sabiq maliyyə naziri Fikrət Yusifov bu barədə özünün müəllif yazısında əksini bildirib:** "Unutmayaq ki, müstəqilliyimizin ilk illərində və bütövlükdə 1991- 1999-cu illəri əhatə edən 9 il ərzində dünya bazarlarında neftin orta qiyməti 17-18 dollardan yuxarı olmayıb... Əgər Azərbaycan hökuməti qeyri-neft sektorunun çox aşağı səviyyədə olduğu, neftin dünya bazarlarında qiymətinin 17-18 dolları keçmədiyi həmin illərdə təhsil, səhiyyə və büdcədən maliyyələşən başqa təşkilatların işçilərinin əmək haqlarını, təqaüdləri vaxtlı-vaxtında ödəyə bilirdisə, bunu indi də edə bilməzmi? Əlbəttə ki, edər. İndi bizim neftsiz, qazsız iqtisadi və maliyyə imkanlarımız həmin illərlə müqayisəolunmaz dərəcədə genişdir. İndi Azərbaycanın istənilən iqtisadi tələtümləri adlatmağa imkan verən resursları və möhkəm ehtiyat bazası var".

Hazırda qara qızıl dünya bazarında 44 dollardan da aşağı qiymətə satılır. Qeyd edək ki, bu, 2009-cu ilin əvvəlindən bu yana qeydə alınan ən aşağı rəqəmdir. Onda maliyyə böhranı zamanı neftin qiyməti 39 dollara qədər ucuzlaşmış, daha sonra isə yenidən yüksəlməyə başlamışdı. Hazırda neft bazarlarına Çin iqtisadiyyatının çökməsi və ABŞ-da neft ehtiyatları artması təsir edir.

Azərbaycanın dövlət büdcəsində neftin qiyməti 90 dollardan götürülüb. Azərbaycan nefti isə bazarda yarıbayarı ucuz qiymətə satılır. Düzdür, SOCAR-ın nefti 18 dollar, BP-nin nefti quyu ağzında 6,5 dollara satılır. Lakin istənilən halda Azərbaycan hər gün böyük miqdarda vəsaitlərdən məhrum olur.

**Neft Araşdırmaları Mərkəzinin rəhbəri İlham Şaban bildirdi ki, hazırda Azərbaycanda neft gəlirlərinin azalması fonunda iqtisadiyyatın köpüyünün yatması perioduna qədəm qoyulur:** "Əgər ölkədə fond birjası olsaydı, bu saat bütün şirkətlərin dəyərinin, yeni kapitalının bəlkə də dəfələrlə azalmasını müşahidə edərdik. Ancaq bunun müqabilində müşahidə etdiyimiz sivil ölkələrdən uzaq olan mənzərədir: hansısa "çiçəklənən" bank bir günün içində bağlanır, on minlərlə müştəriləri qapılarında ayaq döyür ki, əmanətlərindən sadəcə bir xəbər tutsunlar və "pul yoxdur" cavabını alırlar. Yaxud reklamları illərlə televiziyalardan gələn şirkət məlum olur ki, milyarddan artıq borc içində imiş və bu günə qədər bir dövlət orqanı, vergi təşkilatı, audit şirkəti bu haqda vətəndaşlara bir cümlə də olsa, xəbərdarlıq etməyib. Maraqlıdır, deyilmi?"

**İ.Şaban dövlətin 51% payçısı olduğu Beynəlxalq Bankla bağlı üzə çıxan son faktları da xatırlatdı:** "Yəni 2005-ci ildən artan neft hasilatı və qiymətlərin yaratdığı köpük hesabına iqtisadi yüksəliş indi qısa müddətdə enişlə əvəz olunur və onun sürəti böyüyür. Burada sürətin artmasına təsir edən iki amil var: Azərbaycanda neft hasilatının azalması və dünyada neft qiymətlərinin iki dəfə düşməsi. Bu amillərin üst-üstə düşməsi isə bizim iqtisadiyyatdakı köpüyün partlaması effektini verdi. Proqnozlara görə isə bu, tədricən olmalıydı, hökumət də müəyyən hazırlıqlar görməliydi". **Ekspert təəssüflə qeyd etdi ki, hadisələr təkcə bizdən asılı deyil:** "Azərbaycan nə qədər öz iqtisadi modelinin olduğunu isbat etməyə çalışsa da, regionda və dünyada gedən proseslərdən kənarda qala bilmədi".

Bəs maaş və təqaüdlərin ödənilməsi ilə bağlı krizisin yaranması gözləniləndirmi? Belə halla üzləşsək, o halda ehtiyatdakı valyutaların ölkəyə gətirilməsi mümkündürmü?

**İ.Şabana görə, biz o səviyyəyə gəlib düşə bilərik ki, hökumət əmək haqlarının verilməsi məsələsində belə çətinlik çəksin:** "Bizdə, ümumiyyətlə, dövlətə cəmi 6,5-7 milyard dollar gərəkdir ki, maaş, təqaüd, dövlət strukturlarının saxlanılması, müdafiə xərcləri, təhsil kimi məsələləri həll etsin. Bütün bu illərdə büdcənin bu həcmdən 2-2,5 dəfə çox olması infrastruktur və demək olar ki, bütün nazirliklər üzrə tikinti-təmir işlərinə görə olub. Məsələn, cari ilin birinci yarımilində dövlət büdcəsinin xərci təqribən 8 milyarddan bir qədər artıq olub. İkinci yarısında bundan az ola bilər. Gələn il isə daha da az olacaq. Niyə? Çünki indiyə qədər lazım sayılan şeylər artıq mənasız hesab ediləcək. Rasional xərcləmələrdə neftin qiymətinin 50 dollar civarında olması halında hökumət normal həyat sürməyi də təmin edə bilər, hətta sosial evlər layihəsini də həyata keçirə bilər. Əgər istəyi olsa və ictimai nəzarət prinsipini praktikada ortaya qoysa. Ona görə də hesab etmirəm ki, cəmiyyət nədənsə narahatlıq hissi keçirməlidir ki, onların əmək haqqında bir problem olmalıdır, ya 90-cı illərdəki kimi, 3-4 aydan bir verilməlidir və sair. O adamlar narahat olmalıdırlar ki, indiyə qədər öyrənmişdilər ki, büdcə vəsaitlərindən yararlanmışdılar və indi bunun cavabını hüquq-mühafizə orqanlarına verirlər".

❑ **Cavid TURAN**

# Böyük dövlətlərin savaşdan götürdükləri gizli neft qazancları

## İraq və Suriya nefti qara bazarda dəyər-dəyməzinə satılır; silahlı qruplaşmalar bu satışdan hər il milyardlarla dollar götürür, qarşı tərəf də qazancdadır...

**Bu ilin mayından avqustun 11-dək İsrail İraq kürdlərindən 19 milyon bareldən çox neft alıb. Virtualaz.org saytı bu haqda "Financial Times" qəzetinə istinadən yazıb. Qəzetin məlumatına görə, İsrailin İraq kürdlərindən aldığı neftin dünya bazarı qiymətləri ilə dəyəri 1 milyard dollara yaxındır.**



Beləliklə, İsrail son üç ay ərzində neftə olan tələbatının dörddə üçünü məhz İraq neftinin hesabına ödəyib. Kürdlər neft satışından əldə etdikləri gəlirləri "İslam Dövləti"nə qarşı mübarizəyə və PKK-nın qolu olan YPG-nin maliyyələşdirilməsinə sərf edir. Məqalədə o da qeyd olunur ki, kürd neftini İsraillə yanaşı, İtaliya, Fransa, Yunanıstan, Türkiyə və Kipr də alır.

Bu ilin yazından etibarən İraqın Kərkük əyalətində hasil olunan neftin üçdə biri Türkiyənin Ceyhan limanına daşınıb, oradan isə tankerlərlə İsrailə yola salınıb. Bu məlumat dəniz neft tankerlərinin trafikinin analizi, ticarət şirkətlərindəki mənbələr və peyk məlumatları əsasında ortaya çıxıb.

Analitiklər hesab edir ki, İsrail kürd neftini qiymətin aşağı olması səbəbindən alır. İraq kürdləri neftə alıcı tapmaq üçün onu bazar qiymətlərindən xeyli aşağı təklif edirlər. Lakin İraqın şimalındakı kürd administrasiyası bunu təkzib edir. İsrail rəhbərliyində isə məlumatı şərh etməyiblər. Məlumdur ki, İsrail bundan əvvəl nefti əsasən Azərbaycan, Qazaxıstan və Rusiyadan alırdı. Bundan əvvəl də İsrailin İraq kürdlərindən neft aldığı haqda məlumatlar yayılıb. Bir neçə ay əvvəl kürd nefti ilə dolu tankerin ABŞ limanlarına yan almasına icazə verilməməsindən sonra tanker geri qayıdaraq nefti İsrail limanında boşaltmışdı.

Ancaq indi məlum olur ki, İsrail əsasən kürdlərdən neft alır. Bu, həm də o deməkdir ki, İsrail Azərbaycan neftindən imtina edib və qeyri-leqal yolla bazara çıxarılan kürd neftinə üstünlük verir. Qeyd edək ki, İsrail uzun illər, daha dəqiqi, bu ilin yayına qədər məhz Azərbaycandan neft alıb. Məsələn, bu ilin yayında İsrail-Azərbaycan parlamentlərarası dostluq qrupuna rəhbərlik edən deputat, "İsrail - Evimizdir" Partiyasının rəhbəri, İsrailin sabiq xarici işlər naziri Aviqdor Libermanın rəhbərlik etdiyi toplantıda Liberman İsrail-Azərbaycan münasibətləri haqqında geniş məlumat verib. O, Azərbaycanın coğrafi mövqeyini, iqtisadi potensialını qeyd edərək ikitərəfli əlaqələrin inkişafının İsrail üçün əhəmiyyətini vurğulayıb. Qeyd olunub ki, İsrail neftinin 65 faizi Azərbaycandan idxal olunur.

Ancaq göründüyü kimi, indi vəziyyət dəyişib. Burda təbii ki, əsas amil kürd (İraq) neftinin ucuz başa gəlməsidir. Qeyd edək ki, İraqda mərkəzi hökumətlə Şimali İraq Kürd Administrasiyası arasında neft satışı ilə bağlı mübahisə uzun müddətdir ki, davam edir. Bağdad Ərbilin satdığı nefti mərkəzi hökumətlə bölüşməsini tələb edir. Kürdlər isə neft təkbaşına satmaqda israrlıdırlar. Şimali İraq nefti Türkiyə üzərindən Ceyhan limanına çıxır və oradan dünya ölkələrinə göndərilir. Ancaq ötən ilin payızında İraqda yeni hökumət qurulduqdan sonra yeni hökumət dünya ölkələrinə müraciətindən kürd neftinin alıcıları olmayıb. Hətta neft tankerləri dünyanın bir sıra limanlarını dolaşdıqdan sonra Türkiyəyə qayıtmışdı. İndi isə görünür ki, kürdlərə İsrail sahib çıxaraq onların neftini alır. Bu isə həm kürdlərə, həm də ucuz neft alan İsrailə sərf edir.

**İsrailin neft tələbatı gündəlik təxminən 240 min bareldir.** ""Financial Times" kürd muxtariyyətinin ixrac etdiyi neftin üçdə birindən çoxunu İsrailə satdığını iddia edir. Ancaq İraq neftini yalnız kürdlər deyil, eyni zamanda ötən il bu ölkənin böyük bir hissəsini işğal edən İŞİD terror təşkilatı da satır. Ötən ilin məlumatlarında qeyd olunurdu ki, İŞİD İraq və Suriyada *(İŞİD Suriyanın neftlə zəngin şərq bölgələrinə nəzarət edir - K.R.)* çıxarılan nefti dünya bazar qiymətlərindən xeyli ucuz - 25 dollara satır. Mütəxəssislərin hesablamalarına görə, İŞİD-in ələ keçirdiyi İraq və Suriyanın neft bölgələrində hasilat ciddi şəkildə azalsa da, hazırda gündəlik neft hasilatı 50-60 min barel arasında dəyişir. İŞİD neftinin əsasən qara bazardakı şirkətlər vasitəsilə Türkiyə və ərəb ölkələri üzərində bazara çıxarıldığı, hətta İsrailin İŞİD neftini alması ilə bağlı məlumatlar dolaşırdı. İŞİD-in gündəlik 50-60 min barel neft satdığı və neft satışından ildə 1 milyarda yaxın qazanc əldə etdiyi bildirilirdi.

Ötən ilin iyulunda İraqın yerli rəsmiləri İŞİD-in Diyalə və Sələhəddin vilayətlərində iki neft yataqlarında 33 quyudan gündəlik 100-150 tanker neft götürdüyünü və qara bazarda hər bir tankeri 3-4 min dollara satdığını bildirmişdilər.

İsrailin gizli şəkildə kürdlərdən neft alması onu göstərir ki, dünyanın bir çox ölkələri Yaxın Şərqdəki xaos vəziyyətindən böyük qazanc əldə edirlər. Dağılıb xaraba qalmış İraq və Suriyada neft istehsalı mərkəzləri silahlı qrupların nəzarətindədir, onlar isə savaşmaq üçün ehtiyac duyduqları pul və silahı neftin dəyər-dəyməzinə satmaqla əldə edirlər. Beləliklə, hər iki tərəf bu prosesdən qazanclı çıxır.

❑ **Kənan RÖVŞƏNOĞLU**

YENİ MÜSAVAT
N 187 (6215) 26 avqust 2015

# Benzinin su qiymətinə olmasına hələ var...

## Natiq Cəfərli: "Xaricdən idxal olunan 95 və 98 markalı benzin qonşu ölkələrdə Azərbaycandan dəfələrlə ucuzdur"



**Dünya bazarında neftin ucuzlaşması bir çox ölkələrdə, son olaraq qonşu Gürcüstanda yanacağın da ucuzlaşmasına səbəb oldu. Lakin Azərbaycanda hələ ki benzinin ucuzlaşması nəinki nəzərdə tutulmur, bu haqda müzakirə belə getmir.**

Neftin bahalaşmasını əsas gətirərək, benzinin qiymətini qaldıran hökumət indi neftin 3 dəfədən çox ucuzlaşmasını nəzərə alaraq yanacağın qiymətini azaltmır. Bəs görəsən, bu durum nədən qaynaqlanır? Neftin hazırkı qiyməti ilə müqayisə etsək, Azərbaycanda yanacaq nə qədər ucuzlaşa bilər? Bu ucuzlaşma ölkə iqtisadiyyatının hansı sahələrində bahalaşma prosesini səngidər?

**"Yeni Müsavat"ın suallarını cavablandıran iqtisadçı ekspert Natiq Cəfərli bildirdi ki, benzinin qiymətində heç bir dəyişikliyin müşahidə olunmaması hökumətin birtərəfli siyasətindən xəbər verir:** "Bu hökumətin davamlı siyasət yürütməməsini göstərən bir amildir. Çünki vaxtilə Tarif Şurası benzinin bahalaşması ilə bağlı qərar verərkən dünya bazarında neftin ucuzlaşmasını əsas göstərmişdi. Dünya bazarında neftin bahalaşması fonunda Azərbaycanda da benzinin qiymətinin artmasının qaçılmaz olduğu haqda qərar verilmişdi. Neftin qiyməti 120 dollar civarında olduğu vaxtda benzinin qiyməti qaldırıldı. Belə bir bəyanat da olmuşdu ki, "premium" markalı benzin bazarda sərbəst buraxılır və qiymətlər dünya bazarındakı qiymətlərə uyğun olaraq dəyişəcək. Ancaq o vaxtdan xeyli vaxt keçməsinə baxmayaraq, nə "premium" markalı benzinin qiymətində, nə hökumətin tənzimlədiyi Aİ 92 markalı benzinin, nə də dizelin qiymətində bir dəyişiklik oldu. Ancaq bu düzgün qiymət siyasəti deyil. O zamandan bəri dünya bazarında neftin qiyməti 2 dəfədən çox aşağı düşüb. Əgər o zaman benzinin bahalaşması dünya bazarında gedən proseslərlə əsaslandırılırdısa, indi də dünya bazarında neft ucuzlaşdığı üçün Tarif Şurası benzinin ucuzlaşması haqqında qərar verməlidir. Ancaq görünən odur ki, Azərbaycanda qiymət siyasəti birtərəfli qaydada gedir, yüksələn xətlə aparılır. Yəni cüzi bir əsas olan kimi qiymətlər qaldırılır, lakin endirilmir".

**Ekspertin sözlərinə görə, bazarın tənzimlədiyi "premium" markalı benzinin qiymətində də heç bir dəyişiklik müşahidə olunmur, halbuki qonşu ölkələrdə bu markalı benzin daha ucuz satılır:** "Rəsmi açıqlamalara görə, "premium" markalı benzin xaricdən gətirilir. Əgər belədirsə, xarici ölkələrdə həmin markalı benzin Azərbaycanda olduğundan dəfələrlə ucuzdur. Xaricdən gətirilirsə, müvafiq olaraq bizdə də qiymət düşməli idi. Hazırkı qiymət siyasətinin heç bir iqtisadi əsası yoxdur. Hazırda müxtəlif ölkələrdə benzinin qiyməti müxtəlifdir. Neft istehsalçısı olan ölkələrlə müqayisə etsək, Qazaxıstanda, Türkmənistanda, Özbəkistanda, o cümlədən Rusiyada qiymətlər tamam fərqlidir, bizdə olduğundan çox ucuzdur. Rusiyada isə benzinin qiyməti tamamilə sərbəstdir, hökumətin heç bir müdaxiləsi yoxdur. Bu ölkədə benzinin qiymətini ancaq hüquqi şəxslər, kommersiya obyektləri bazar qiyməti ilə müəyyənləşdirirlər. Rusiyanın bəzi bölgələrində benzin daha ucuz, bəzilərində isə daha bahadır. Ancaq ən azından bazar qaydalarına uyğun olaraq qiymətlər tənzimlənir. Qazaxıstanda, Türkmənistanda, Özbəkistanda isə benzinin qiyməti hökumət tərəfindən müəyyən edilir və Azərbaycandan xeyli dərəcədə ucuz qiymətlərlə satılır. Türkmənistanda benzinin qiyməti Azərbaycandan 3 dəfə ucuzdur. ABŞ dünyanın ən böyük neft istehsalçısıdır, həm də ən çox neft istehlak edir. Bu ölkədə qiymətlərə nəzər salsaq, benzin qallonla ölçülür və təxminən 3,7 litr benzin 1 qallon hesablanır, bu da təqribən 2 dollar civarındadır. Bir litr benzinin qiyməti 50 sent edir, yəni təxminən 50 qəpik. Azərbaycanda isə "premium" markalı benzinin qiyməti 95 qəpikdir. Bu da onu göstərir ki, bizdə qiymətlər həddindən artıq yüksəkdir və neft ölkəsi olmasını da nəzərə alsaq, iqtisadi qanunlara ziddir".

**Natiq Cəfərlinin sözlərinə görə, əgər hökumət benzinin qiymətini ucuzlaşdırsa, bu, ərzaq bazarından tutmuş bir çox sahələrdə qiymətlərin ucuzlaşmasına təsir göstərə bilər:** "Xüsusən kənd təsərrüfatı məhsulları hiss olunacaq dərəcədə ucuzlaşa bilər. Çünki bu məhsulların maya dəyərinin təqribən 30 faizi yanacağın qiyməti ilə müəyyənləşdirilir. Əgər yanacaq ucuzlaşsa, ərzaq məhsullarının ucuzlaşmasını da biz görə bilərik. Lakin Azərbaycan bazarının spesifikasını da nəzərə alsaq, təkcə benzinin ucuzlaşması ciddi ucuzlaşma trendinin yaranmasına səbəb ola bilməz, qiymətlərin bahalaşmasına səbəb olan digər amillər də aradan qaldırılmalıdır".

❑ **Nərgiz LİFTİYEVA**


## Kişilər!!! Axırıncı şans!!!

**İsrail təbabəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, quluncların dərmansız müalicəsi

Həkim qəbulu və həkimə zəng etmək saat 11.00-dan sonra **Tel: (012) 437-88-05; (050) 213 88-05.**

**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**



## Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gıozləmədən - lateks həlqə qoyulması.*

**SƏLİMOV FƏRMAN**

Tel: (055) 776-70-34


azərişıq
ACIQ SƏHMDAR CƏMİYYƏTİ

# 30 Şirvan sakini "Azərişıq"dan işıq istəyir

**Şirvan şəhərinin 30-a yaxın sakini illərdir ki, elektrik həsrəti ilə yaşayır. Redaksiyamıza yolladıqları müraciətlərində sakinlər yazır ki, "Azərişıq" ASC-nin sədri Baba Rzayevə müraciət edərək ondan kömək istəyirlər.**

"2007-ci ildən Şirvan şəhərində yeni salınmış yaşayış massivində həyətyanı torpaq sahələri alıb evlər tikmişik. Yaşadığımız küçə Şah İsmayıl Xətai küçəsidir. Kasıbçılıqla, əzab-əziyyətlə özümüzə daxmalar tikib yaşayırıq. "Azərsu" rəhbərliyinin səyi nəticəsində artıq su xəttimiz çəkilib, gündəlik içməli su ilə təmin olunmuşuq. Qaz xətti də çəkilib, quraşdırılması qalıb. 2007-ci ildən bu günə kimi ətrafımızda olan küçələrə, yeni imkanlı, vəzifəli şəxslərin yaşadığı küçələrə işıq xətti çəkilib. Amma biz kasıb, imkansız fəhlə sinfinin nümayəndələrinin küçəsinə işıq xətti çəkilmir. Bizlərə konkret şəkildə ögey münasibət göstərilir. Əvvəllər "Azərenerji"yə dəfələrlə müraciət etmişdik. "Azərişıq" yaranandan sonra sizə də müraciət etdik. Müraciətimizlə əlaqədar Şirvan şəhərində yerləşən elektrik şəbəkəsinə çağırıldıq. Bizə konkret şəkildə işıq verməmək üçün süni əngəllər yaradılır. Şəbəkənin müdiri bizdən gedib evlərimizə kupça almağı tələb edir. Eyni zamanda hər evdən 200-250 manat civarında pul yığılması tələb olunur. Biz kasıbçılıqla yaşayan 30 ailə 200-250 manat pulu hardan tapaq? Bizə "gedin, hara istəyirsiniz şikayət edin" deyirlər. Məcbur olub mətbuat vasitəsilə xahiş edirik ki, bizə elektrik enerjisi verilsin. Qarşıdan qış fəsli gəlir, körpə balalarımıza, qocalara, ahıllara rəhm eləyin və yaşadığımız Şah İsmayıl Xətai küçəsinə işıq xəttinin çəkilməsinə göstəriş verin".

❑ **E.HÜSEYNOV**

YENİ MÜSAVAT
N 187 (6215) 26 avqust 2015







# "Mediada qadın" mövzusu müzakirə edildi

## Aynur Camalqızı: "Qadını əri bıçaqladı", "qadın evdən qaçdı" kimi xəbərləri yaymalıyıqmı?"

**Avqustun 25-də "Qadınların nüfuz və səlahiyyətlərinin artırılması sahəsində ictimai maarifləndirmə və ictimai dinləmələrin təşkili" layihəsi çərçivəsində növbəti tədbir keçirilib. Tədbir Azərbaycan Respublikası Prezidenti yanında QHT-lərə Dövlət Dəstəyi Şurasının və Qadın Konsensus Mərkəzi İctimai Birliyinin birgə təşkilatçılığı ilə baş tutub. Tədbirdə Mətbuat Şurasının İdarə Heyətinin üzvləri, mətbuat və eləcə də QHT nümayəndələri iştirak ediblər.**

Musavat.com-un verdiyi xəbərə görə, tədbirin "Gündəlik Teleqraf" qəzetinin baş redaktoru Aynur Camalqızı açıb. Baş redaktor layihə haqqında tədbir iştirakçılarına geniş məlumat verib. O, KİV-də, sosial mediada qadınlarla bağlı daha çox kriminal hadisələrin gündəmə gətirilməsinin narahatlıq doğurduğunu bildirib: "KİV və sosial media nədənsə zorakılıqla bağlı xəbərləri yaymaqda maraqlıdır. "Qadını əri bıçaqladı", "qadın evdən qaçdı" kimi xəbərləri yaymalıyıqmı? Qadın rakursuna hansı mövqedən yanaşmalıyıq ki, cəmiyyətimiz problem yaşamasın? Buna görə də bu mövzunu seçərək müzakirə etmək qərarına gəldik. Çox yaxşı olardı ki, bu məsələlərdə aktiv sosial media nümayəndələri, bloggerlər yaxından dəstək olsunlar. Skandinaviya ölkələrində idarəetmə və siyasi qərarların qəbulu prosesində qadınların iştirakını təmin etmək üçün kvota müəyyənləşdirildikdən sonra qadınlar aktiv şəkildə siyasətlə məşğul olmağa başladılar. Bunun nəticəsi olaraq hazırda həmin ölkələrdə parlament üzvlərinin xeyli hissəsi qadındır. Azərbaycanda da qadınların siyasi sosiallaşma prosesində fəallığını təmin etmək üçün rəsmi və ya qeyri-rəsmi formada kvota sistemi tətbiq etmək olar".

**Tanınmış jurnalist, gender məsələləri üzrə araşdırmaçı Faina Hənifəyeva bildirdi ki, layihə bir neçə ay davam edəcək:** "İlk olaraq deyim ki, bu mövzu ilə bağlı müzakirələr heç vaxt jurnalistlərin iştirakı ilə aparılmayıb. Bu çox təəssüf doğurur. Hazırda dünyada qadınların prezidentliyə namizədlik məsələsi müzakirə edildiyi bir ərəfədə bizdə müzakirə aparılır ki, Ucarda yaşayan qadın telefondan istifadə etməlidir ya yox. Bu gün qadınlar daha çox kriminal mövzularla gündəmə gətirilir. Məsələn, "qadın niyə evdən qaçdı", "Toy günü gəlin özünü asdı" və s . İndi seçkilər ərəfəsindəyik, lakin nədənsə qadınların bu seçkilərdə iştirakı ilə bağlı az danışılır. Sanki hansısa dalğa məqsədli şəkildə bu mövzunu aktivləşdirir. Bir müddət öncə qadınların siyasətdə iştirak etməsi barədə müzakirələr getməyə başlamışdı. Lakin yenidən bu tendensiya azalmağa, daha çox kriminal xəbərlər mediada yer almağa başladı.

Onu da qeyd edim ki, bloggerlər sosial şəbəkələrdə qadın mövzusuna çox az toxunurlar. Onlar daha çox siyasət və iqtisadiyyat mövzularına önəm verir, qadın mövzusuna isə həvəssiz yanaşırlar. Qadınlara qarşı cəmiyyətdə yanlış bir mövqe hökm sürür. Hətta jurnalistlər, televiziya aparıcılarının yanlış mövqeləri ilə rastlaşırıq".

**F.Hənifəyeva çıxışının sonunda mediada rəhbər vəzifələrdə çalışan qadınların sayının az olduğunu xüsusi vurğulayıb:** "Mətbuat Şurasının 17 üzvü var və bunlardan yalnız biri qadındır".

**Tədbirdə Ailə, Qadın və Uşaq problemləri üzrə Dövlət Komitəsinin informasiya və analitik araşdırmalar şöbəsinin müdiri Elgün Səfərov da çıxış edib. Komitə rəsmisi bildirib ki, bu il ölkədə keçiriləcək parlament seçkilərində qadınların xüsusi aktivliyi gözlənilir:** "Bizdə yüksək vəzifədə çalışan qadınlar çox azdır. Məsələn, ölkədə nədənsə nazir qadın yoxdur. Lakin qonşu İran dövlətinə baxsaq görərik ki, orda iki nazir qadın çalışır. Lakin onu da qeyd edim ki, son zamanlar qadınların fəallığı müşahidə edilir. Bələdiyyə seçkilərində bunun şahidi olduq. Bu il keçiriləcək parlament seçkilərində də qadınların fəallığının çoxalacağı gözlənilir.

Bəli, bu doğrudur ki, bir çox media orqanlarında xəbərlər bəzən yanlışlıqla verilir. Və yaxud da kriminal hadisələrlə bağlı xəbərlərdə uşaqların simaları göstərilir. Məsələn, bu yaxınlarda boğazı kəsilmiş qadının uşağından bir jurnalist açıqlama almışdı. Təsəvvür edin, bu uşaq onsuz da hər iki valideynini itirib, atası həbs edilib, anası faciəli şəkildə ölüb. Lakin jurnalist ondan atasının anasını necə öldürdüyünü soruşur. Bu yolverilməzdir".

**Komitə rəsmisi onu da vurğuladı ki, jurnalistika sahəsində, polis qurumlarında qadınların sayının artırılmasına ehtiyac var:** "Yalnız bu və ya digər sahələrdə qadınların sayı artırılarsa, hansısa inkişafa nail ola bilərik".

**Mətbuat Şurası İdarə Heyətinin üzvü, Beynəlxalq Avrasiya Mətbuat Fondunun rəhbəri Umud Rəhimoğlu da çıxış edərək bildirib ki, hazırda mətbuatda baş verən problemlər təkcə qadınlara şamil edilməməlidir:** "Bu, bütövlükdə cəmiyyətin problemidir. Cəmiyyətə informasiyanı hansı şəkildə çatdırmaq çox vacib məsələdir. Azərbaycanda rəhbər qadın azdır fikri yanlışdır. Mətbuatımızda rəhbər vəzifələrdə çalışan qadınlar çoxdur. Məsələn, Aynur Camalqızı nüfuzlu media orqanının rəhbəridir. Ombusdman da bizdə qadındır. Bunları deməkdə məqsədim odur ki, xanımların özləri öz güclərini düzgün realizə etməlidir".

**"Təmiz Dünya" Qadınlara Yardım İctimai Birliyinin rəhbəri Mehriban Zeynalova da çıxış edərək bildirib ki, bəzən qadın jurnalistlər belə öz həmcinslərinə qarşı aqressiya nümayiş etdirirlər:** "Mətbuatda "qadının başını kəsdilər" kimi xəbərlər verilir. Və ya problemi olan qadını televiziyaya çıxardıb ailə problemlərini müzakirə edirlər. Jurnalistlər, aparıcılar fikirləşmək istəmirlər ki, verilişdən sonra evinə qayıdan qadın ciddi problemlərlə qarşılaşır. Bu isə nə həmin jurnalisti, nə də aparıcını maraqlandırır. Belə çıxır ki, media insan taleyinə biganədir. Təklif edirəm ki, problemi aradan qaldırmaq üçün hər redaksiyada gender strategiyası yaradılsın". **Demokratik İslahatçı Gənclər İctimai Birliyinin rəhbəri Vüsalə Hüseynli bildirib ki, bu problemlərdən danışarkən müsbət məqamları da qeyd etmək lazımdır:** "Məsələn, əksər rayonlarda icra hakimiyyətlərində müavinlər qadındır. Amma sırf vəzifə olsun deyə ora qadınları gətirə bilmərik. Qadının özünün də təşəbbüsü və xarizması olmalıdır. Ümumiyyətlə, vəzifəyə gələn insan öz vəzifəsini bilməlidir".

**Jurnalistlərin Həmkarlar İttifaqının sədri Müşfiq Ələsgərli də çıxış edərək bildirib ki, mətbuatımızda çalışan qadınların sayı çoxdur, amma kritik mövzularda qadınların iştirakı aşağıdır:** "Qadın jurnalistlər çalışırlar ki, saat 6-da evə getsinlər. Bunun bir səbəbi ailəsinə, uşağına bağlılıqdırsa, digər bir səbəbi də odur ki, qadınlar qaranlıq düşməmiş təhlükəsiz halda evə getmək istəyirlər. Problemi həll etmək üçün redaksiyalar qadınlar üçün xüsusi avtomobil ayıra bilərlər. Düşünürəm ki, məişət problemlərinin həll olunması üçün kənd yerində qadınların fəallığı artırılmalıdır. Əsasən də aktiv, savadlı qadınları seçib vəzifəyə gətirmək lazımdır".

**Daha sonra Konstitusiya Araşdırmalar Fondunun eksperti Zaur İbrahimli, gənc yazar Sevinc Çılğın, "Gündəlik Teleqraf" qəzetinin şef redaktoru Taleh Şahsuvarlı da çıxış edərək mövzu ilə bağlı tədbir iştirakçıları ilə birgə fikir mübadiləsi aparıblar.**

❑ Xalidə GƏRAY

# Dalaşan xalq artistləri barışdı

**Akademik Milli Dram Teatrının aktyorları - xalq artistləri Ramiz Məlik və Ramiz Novruz barışıblar. Bu barədə "Report"a xalq artisti Ramiz Novruz məlumat verib.**

Onun sözlərinə görə, barışıq Yasamal Rayon Polis İdarəsinin 27-ci polis bölməsində baş tutub: "Bu gün səhər polis bölməsində Ramiz Məlikdən üzr istədim. Barışdıq və Ramiz Məlik şikayət ərizəsini geri götürdü. Hazırda teatra gedirik. Bir azdan teatrda kollektivin qarşısında yenidən Ramiz Məlikdən üzr istəyəcəm. O, məndən 12 yaş böyükdür. Ağsaqqaldır. Mən ona əl qaldırmışam. Əlim üzünə dəyib. Bilmədən olub. Əsəbi olmuşam".

**Ramiz Məlik də sayta açıqlamasında Ramiz Novruzun dediklərini təsdiqləyib:** "Mən böyüklük etdim. Onu bağışladım. Dəfələrlə üzr istədi. Polis bölməsində olduq və ərizəmi geri götürdüm". Məlumata görə, R.Novruzov kollektiv qarşısında ondan üzr istəyib və dalaşanlar barışıb.

Xatırladaq ki, avqustun 23-də iki xalq artisti arasında münaqişə baş vermişdi. Hadisədən sonra xalq artisti Ramiz Məlik öz həmkarından polisə şikayət etmişdi.

Mədəniyyət və Turizm Nazirliyi Akademik Milli Dram Teatrının aktyorları-xalq artistləri Ramiz Məlik və Ramiz Novruz arasında baş verən davaya münasibət bildirib.

**Qurumun İnformasiya və ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri Vüqar Şıxəmmədov "Report"a açıqlamasında deyib ki, son vaxtlar Akademik Milli Dram Teatrında yaranan bütün qalmaqallar və o cümlədən xalq artistləri**



**Ramiz Məlik və Ramiz Novruz arasında baş verən qalmaqal nazirliyin diqqətindədir:** "Sentyabrın əvvəlində teatr mövsümünün açılışı olacaq. Mövsümün açılışı ərəfəsində Mədəniyyət və Turizm Nazirliyi həm sonuncu, həm də bundan öncəki baş vermiş qalmaqallara yenidən baxacaq. Hadisələr araşdırılacaq, baş verənlər təhlil olunacaq".

# YENİ MÜSAVAT

Son səhifə

N 187 (6215) 26 avqust 2015


# 20 ildə 8 növ xərçəngə qalib gəldi



Amerikanın Filadelfiya şəhərində yaşayan Judih Bernstein adlı qadın son 20 ildə 8 növ xərçəngə tutulub. Lakin Bernstein hamısından xilas olmağı bacarıb. Süd vəzi, ağciyər, qida borusu xərçənglərinə tutulan qadın çox nadir hallarda rast gəlinən göz qapağı xərçəngindən də əziyyət çəkib. Mediaya açıqlamasında qadın bir xərçəng növündən xilas olmadan digərinə tutulduğu üçün özünü çox şanssız hesab edirmiş. Lakin qeyri-adi şəkildə xərçənglə mübarizə aparıb və ölümdən qurtulub.



## Uşağa birgə baxmaq xoşbəxtlik gətirir

Amerikanın Georgia Universitetində çalışan sosioloqların 487 nəfərinin iştirakı ilə apardıqları araşdırmalar nəticəsində məlum olub ki, uşaqlarına birlikdə baxan cütlüklər daha xoşbəxt olurlar. Araşdırmalara görə, uşaqlarına birlikdə baxan cütlüklər həm cinsi, həm də hissi baxımdan bir-birilərinə daha yaxın olurlar.



## Gərgin iş rejimi iflic ehtimalını artırır

Həftə ərzində 48 saatdan çox işləyən adamlarda iflic keçirmə riski artır. Report BBC-yə istinadən xəbər verir ki, yarım milyondan çox insan üzərində aparılan bir araşdırma həftədə 35-lə 40 saat işləyənlərlə müqayisədə, 48 saat ərzində çalışanların iflic keçirmə ehtimalının 10 faiz artdığını ortaya çıxarıb. Nəticələri "Lancet" jurnalında dərc olunan araşdırmada həftədə 54 saat işləyən adamların iflic keçirmə ehtimalının 35-lə 40 saat çalışanlardan 27 faiz, 55 saatdan artıq çalışanlarda isə 33 faiz olduğu açıqlanıb. Mütəxəssislər saatlarla işləyən adamların öz qan təzyiqlərinə nəzarət etməsini tövsiyə edirlər.

Saatlarla işləməklə iflic ehtimalı arasındakı əlaqənin səbəbi hələ tam tapılmasa da, nəzəriyyələr arasında iş saatlarının çox olmasının yaratdığı stress və həyat tərzinin insan orqanizminə mənfi təsiri əsas yer tutur.

# Kartof üzərində təbrik yazmaqla varlandı

24 yaşlı Alex Craig üzərinə təbrik mesajları yazdığı kartofları satmaqla minlərlə dollar pul qazanır. Qeyri-adi bacarığı ilə məşhurlaşan Craigın aylıq gəliri 10 min dollar təşkil edir. Gənc oğlanın sözlərinə görə, o ilk dəfə internetdən sifariş qəbul edərək kartof üzərinə təbrik mesajları yazmaq fikrini ortaya qoyduğu zaman sevgilisi onu ələ salıb. Hər kəs onun bu ideyasını dünyanın ən ağılsız fikri sayıb.

Bununla belə, Craig həyatının ən uğurlu addımını atıb. Çünki bu işə başladıqdan sonra aylıq qazancı xeyli artıb. Müdiri və iş yoldaşı olmayan gənc oğlan evində oturub kartofların üzərinə qələmlə təbrik mesajları yazır, açdığı internet saytı üzərindən sifarişləri qəbul edir və olduqca yaxşı gəlir əldə edir. Projesinə "Potato Prcel" adı verən oğlan müştərilərindən internet üzərindən kartof seçmələrini və istədikləri mesajı yazmalarını istəyir. Mesajı kartof üzərinə həkk etdikdən sonra isə sahibinə göndərir. Saytı açdığı ilk iki gündə 2000 min dollar qazanan Craig projesinin uğurlu olduğunu deyib. O, günlərinin böyük hissəsini kartof üzərinə mesaj yazmaqla keçirir.






## Şaftalının faydaları

Qoxusu, dadı, görünüşü ilə çox sevilən şaftalının özündən böyük faydaları olduğunu bilirsinizmi? A, B, C və eləcə də kalium baxımından olduqca zəngin bir meyvədir. Ürək və xərçəng xəstəliyinə qarşı qoruyucudur. Eyni zamanda həzmi asanlaşdırar. Bundan başqa, özündə kalsium, maqnezium, natrium, fol turşusu, dəmir və fosfor ehtiva edir. Böyrəklərin və öd kisəsinin nizamlı işini təmin edir. Sinir sisteminə müsbət təsir edir və yuxusuzluğu aradan qaldırır. Ağız qoxusunu götürür və bağırsaq qurdlarını çürüdür. Qanı təmizləyir, qan xəstəliklərinə qarşı təsirlidir. Babasil şikayətlərini aradan qaldırır. Şaftalı çiçəklərinin qəbizliyi aradan götürdüyü və bağırsaq soxulcanını saldığı da məlumdur.





QOÇ - Daxili dünyanızı anlayan insanlarla bir araya gəlin ki, ümumi süstlüyünüz ərisin. Çünki indi sizə daha çox mənəvi rahatlıq lazımdır. Şəxsi büdcənizə mümkün qədər qənaət edin.


BUĞA - Cəfəng işlərə aludə olmasanız, bu təqvimi tamamilə öz xeyrinizə dəyişə biləcəksiniz. Bu istiqamətdə əsas uğur maliyyə məsələlərində mümkündür və bütün hallarda təşəbbüskarlıq sizdə olmalıdır.


ƏKİZLƏR - Ümumi ovqatınızın yüksək olacağını bildirən Göy qübbəsi bu günü zəngin keçirməyinizə şərait yaradacaq. Belə məqamlarda çoxdan görmədiyiniz yaxınlarınızı da ziyarət etməyə dəyər.


XƏRÇƏNG - İş-gücü bir tərəfə atın. Onsuz da neçə illərdir ora-bura qaçmaqla əsaslı dönüş yarada bilməmisiniz. Heç olmasa, bu təqvimi mənəvi rahatlığa, insanlarla ünsiyyətə həsr edin.


ŞİR - Hər hansı riskli sövdələşmələrə, o cümlədən pulla bağlı müzakirələrə ciddi yanaşmayın. Əsas diqqəti sağlıq durumuna və münasibətlərə yönəldin. Səhər saatlarında səfərə çıxmaq olar.


QIZ - Bəzən səbəbsiz olan daxili gərginliyinizi aradan qaldırmaq istəyirsinizsə, qarşılıqlı münasibətlərinizi tənzimləyin. Bunu bacarsanız, nahardan sonra sürprizləriniz olacaq.


TƏRƏZİ - Səhər saatlarında gözlənilən gərginliyi dəf etməyi bacarsanız, sonrakı müddətdə hər hansı nigarançılıq olmayacaq. Məhəbbət müstəvisində yaranmış boşluqları doldurun.


ƏQRƏB - Bütün vaxtınızı istirahətə həsr edin. Çünki fəaliyyətlə bağlı hansısa yenilik gözlənilmir. Ulduzlar əsasən qarşılıqlı münasibətlərə və qohumluq əlaqələrinə fikir verməyi məsləhət görür.


OXATAN - Yola çıxmaq fikriniz varsa, tərəddüd etməyin. Çünki bu gün rastlaşdığınız insanlardan xoş əhval alacağınız mümkündür. Pulu ilahiləşdirməyin. Çünki İlahi alçatmaz yerdə durur.


OĞLAQ - İqlimin bir qədər mülayimləşməsi sizə əlavə enerji verməkdədir. Odur ki, bu vaxta qədər öhdəsindən gələ bilmədiyiniz planları sürətləndirməlisiniz. Dəvətləri qəbul edin.


SUTÖKƏN - Ulduzların düzümü yalnız maliyyə məsələlərində uğurlar vəd edir. Qalan sahələrdə isə ən yaxşı halda neytrallıqla üzləşəcəksiniz. Saat 14-18 arası sağlıq durumunuzu diqqətdə saxlayın.


BALIQLAR - Ulduzlar kin-küdurəti bir tərəfə atıb barışıq prosesinə qoşulmağınızı tələb edir. Ona görə də bu gündən deyilən istiqamətdə cəfəşanlıq göstərməlisiniz. Cəfəng işlərdən uzaq olun.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Keyfiyyətsiz yemək stress yaradır



İsveçrənin Zurix Universitetinin araşdırmaçıları stressli şəxslərin daha pis yeməklər yediyini sübut ediblər. 51 könüllünün iştirakı ilə aparılan araşdırmalarda 22 nəfər öz seçimləri ilə istədiyini yeyib. Stress altında olan şəxslərin digərlərinə nisbətdə daha keyfiyyətsiz yeməklər yediyi üzə çıxıb. Beləliklə, keyfiyyətsiz yemək beyinə təsir göstərir və insanın əsəbi olmasına şərait yaradır.

Səhifəni hazırladı: ŞAHNAZ


Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Nazim SABİROĞLU

Lisenziya N: B 114
SAYI: 5.300

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.